**Hər kəs ədalətli olacaq**

www.adalet.az

# ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev | *İctimai-siyasi, hüquq qəzeti* | Qəzet 1990-cı ilin iyulundan çıxır | № 1 (6044) 12 yanvar 2024-cü il | Qiyməti 40 qəpik

# İLHAM ƏLİYEV:
# "MƏNİM PEYKİM MƏNİM GÖZLƏRİMDİR"



Bax:səh-3

## ABŞ DA UKRAYNANIN DALINDAN QAÇDI

**Necə ki, vaxtilə Saakaşvilinin dalından qaçmışdı və Saakaşvili ortalıqda qaldı, sonra da getdi düşdü həbsxanaya.**

**İndi Zelenskini də belə bir tale gözləyir. Qısası, Ukraynaya söz verdiyi 60 milyard dolları verəsi olmadı, bildirdi ki, özümüzün əli aşağı düşüb.**

***Ölkənin İranla sərhədində ən strateji rayonlardan biri Astaradır. Bu rayonda icra hakimiyyəti də var, icra hakimiyyətinin başçısı da. İcra hakimiyyətinin başçısı da Qəzənfər Ağayevdi, hələ ki.***



## BU YANĞININ KÖKÜNDƏ NƏ VAR?

**Respublika Perinatal Mərkəzində böyük yangın olub. Nəticədə 4 uşaq həlak olub. Yanğınsöndürənlər nə qədər çalışsalar da, hamını təxliyyə edib xilas etsələr də 4 uşaq yanıb və ölüb.**

İndi hüquq-mühafizə orqanları yanğının səbəbini araşdırır. İlkin ehtimala görə, bu yanğın eletrik naqillərindən baş verib. Belə bir mərkəzin elektrik sistemi niyə nasaz olub?

Əslində güman ki, burda seçkiqabağı təxribat da ola bilər. Çünki xarici qüvvələr, eləcə də içimizdəki kərtənkələlər seçkini pozmağa cəhd edəcəklər.

**Ona görə də ehtiyatlı olmalıyıq.**

## BÜTÜN DÜNYANIN İŞİ DAHA ZOR

**"Türkiyənin işi zor, bütün dünya ilə savaşır. Bütün dünyanın işi daha zor, çünki bütün dünya Türkiyə ilə savaşır".**

**Bir türk filmindən.**

## ERMƏNİLƏR BRİCİT MAKRONA NƏ BAĞIŞLAYIBLAR?





**Hər şey ermənilərin Raisa Qorbaçovaya (Allah yanındakılara rəhmət eləsin) çox qiymətli bir brilyant dəsti bağışlamasından başladı. Qorbaçov (Allah onun da yanında yatanlara rəhmət eləsin) bu üzükdən sonra ermənilərə güzəşt elədi və Dağlıq Qarabağda separatizm Qorbaçovun maymaqlığından güc-qüvvət aldı və bu separatizm Sovet İttifaqının dağılmasının özülünü qoydu. Və beləliklə, ermənilər Sovet hökumətini dağıtdı və dalı üstə qoydu.**

İndi bilmirəm ermənilər Makronun özündən 25 yaş böyük əri ( arvadı sayılsa da, elə həqiqətən əridi) Bricit Makrona nə bağışlayıblar ki, Makron da dayanıb ermənilərin arxasında. Deyilənlərə görə, Makron arvadından it kimi qorxur. Hələ uşaqlığında və gəncliyində arvadı salırmış onu şillə-təpiyinin altına. Bir sözlə, gözünün odunu alıb.

Və bəlkə də Makron düşünür ki, Qarabağda yaşayan 60-70 min erməni SSRİ-ni dağıtdısa, Ermənistandakı 2 milyon yarım erməni də Rusiyanı dağıdacaq. Yavaş ye, boğazında qalar. Rusiya sənin üçün gölməçə qurbağası deyil, Sibir ayısıdı. Ruslar Napoleonu Parisə qədər, Hitleri Berlinə qədər qovan ruslardı. Sən get müflisləşib bağlanan 55 min şirkətinin dərdini çək.

## İCTİMAİ TELEVİZİYA HƏR ŞEYİ AÇIB QOYDU ORTALIĞA



**Son zamanlar Təcili Yardımın hadisə yerinə gecikməsi geniş müzakirələrə səbəb olub. Hərçənd ki bu müzakirələrdə Təcili Yardıma qarşı haqsızlıqlar da ha çoxdu.**

İctimai Televiziyada "Sabaha saxlamayaq" proqramında bu məsələ geniş müzakirə olundu. Xüsusilə professor Adil Qeybulla daha ciddi faktlarla bunun səbəblərini aydınlaşdırdı, kadr çatışmazlığından danışdı.

Hər il Tibb Universiteti nə qədər həkim buraxır, bəs, bu həkimlər necə olur, hara gedir? Hətta xaricə qaçır, niyə? Hətta ən xoşagələn odur ki, Tibb Universiteti bu sahədə çalışacaq həkimlər üçün xüsusi bir fakültə də açıb. Amma bu, bəs etməz.

Ona görə də bu sahədə çalışan həkimlərin, tibb bacılarının, hətta sürücülərin maaşları artırılmalıdır.

**Aqil ABBAS**
**aqilabbas@rambler.ru**

## NARKOTİKLƏRLƏ MÜBARİZƏ TƏKCƏ POLİSİN İŞİ DEYİL



**Son illər Daxili İşlər Nazirliyi narkotiklərlə çox kəskin və ciddi mübarizə aparır. Bunu DİN-in gündəlik yaydığı məlumatlarda, eləcə də nazirliyin mətbuat katibi Elşad Hacıyevin sosial şəbəkələrdə paylaşdığı statuslarda aydın görmək olar. Belə görünür ki, Daxili İşlər Nazirliyi bu mübarizədə bircə addım da geri atmayacaq, xalqı, xüsusən də gəncliyi bu bəladan qorumaq və xilas etmək üçün əlindən gələni (hətta əlindən gələndən də artıq) əsirgəməyəcək.**

**Düzdür, bu məsələdə Dövlət Sərhəd Xidmətinin və Gömrük Komitəsinin əməkdaşlarının da zəhmətini ayrıca qiymətləndirmək olar. Amma əsas güc Daxili İşlər Nazirliyinin üzərinə düşür.**

**Amma onu da qeyd etmək lazımdır ki, narkotiklərlə mübarizə təkcə polisin işi deyil, bu işdə ictimaiyyət də fəal rol oynamalı, polisə kömək etməlidir.**

**Mətbuatın, xüsusən televiziyaların üzərinə də böyük məsuliyyət düşür. Güclü maarifçilik işi aparılmalıdır.**

Bax: səh. 3

## GÜNÜN LƏTİFƏSİ

Rusiya prezidenti Vladimir Putinin mətbuat konfransında jurnalist sual verir:

-Vladimir Vladimiroviç, 256 il bundan əvvəl İmperatoritsa Elizaveta dövlət məmurlarının rüşvət almasının qadağan olunması ilə bağlı fərman verib.



Putin:

**-Təəssüf ki, bu günədək həmin fərmanın nə vaxtdan qüvvəyə minməsi ilə bağlı heç bir məlumat yoxdur.**

## Prezident: Biz sülh müqaviləsində heç bir zəmanətçiyə ehtiyac duymuruq



**Sülh müqaviləsinin imzalanması üçün əsas şərtlər indi yaradılmışdır. Ermənistan istəyir ki, bu sülh müqaviləsinin zəmanətçiləri olsun. Biz hesab edirik ki, buna heç bir ehtiyac yoxdur.**

Adalet.az bildirir ki, bu fikirləri Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində söyləyib. Bunun iki suveren dövlət arasında imzalanacaq sülh müqaviləsi olacağını vurğulayan dövlətimizin başçısı deyib: "Biz orada heç bir zəmanətçilərə ehtiyac duymuruq və əgər bu, ikitərəfli formatda imzalanacaqsa, imzalanmalıdır. Əgər kimsə kömək etmək istəyirsə, biz buna da etiraz etmirik. Ancaq bu kömək elə olmalıdır ki, məcburi olmasın".

## "Xocalı soyqırımını törədən canilər ədalət qarşısında cavab verəcəklər"

**Bizə qarşı qanlı müharibə aparan, vandallıq törədən, Xocalı soyqırımını törədən, torpaqlarımızı, şəhərlərimizi, kəndlərimizi yerlə-yeksan edən canilər bu gün həbs olunub, saxlanılıb və ədalət qarşısında cavab verəcəklər.**

Adalet.az bildirir ki, bunu Prezident İlham Əliyev yanvarın 10-da yerli televiziya kanallarına müsahibəsində deyib.

Onların arasında Qarabağda olmuş bütün dırnaqarası keçmiş liderlər, ondan sonra Qarabağa ixrac edilmiş dırnaqarası baş nazir və digərlərinin yer aldığını bildirən dövlətimizin başçısı vurğulayıb. "O qruplaşmada təkcə iki nəfər çatışmır, onlar da İrəvandadırlar, onlar da olsa, onda tam heyət formalaşır. Bu, doğrudan da ədalətin Zəfəridir və mən deyəndə ki, ədalətə inanmaq lazımdır və ədaləti təmin etmək üçün mübarizə aparmaq lazımdır, məhz bunu nəzərdə tuturdum".

## "Bizimlə hədə-qorxu dili ilə, yaxud təkəbbürlə davranmaq mümkün deyil"

**İkinci Qarabağ müharibəsindən sonra Qarabağda nələr baş verdiyindən tam xəbərdar idik, həm vizual, həm operativ nəzarət edirdik. Yəni, bunu Ermənistana çatdırmağa çalışırdıq ki, bu, bizim nəzarətimizdədir və istənilən an biz əməliyyat keçirə bilərik.**

Adalet.az bildirir ki, bu fikirləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində ifadə edib. Həm Ermənistan rəhbərliyinə, həm də beynəlxalq aktorlara bir dəqiqə ərzində düyməyə basıb bu əməliyyatı keçirəcəyini, onların heç nə də edə bilməyəcəklərini açıq şəkildə dediyini vurğulayan dövlətimizin başçısı bildirib: "Bu hadisələrin gedişatı onu göstərdi ki, - hesab edirəm, bu, təkcə Ermənistan üçün yox, Ermənistanın arxasında dayananlar üçün də bir dərs olmalıdır, - bizimlə hədə-qorxu dili ilə, yaxud da təkəbbürlə davranmaq mümkün deyil".

## İlham Əliyev fevralda keçiriləcək növbədənkənar seçkiləri şərtləndirən əsas amilləri açıqlayıb

**Dövlətimizin başçısı İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində fevralın 7-nə təyin edilən növbədənkənar prezident seçkilərini şərtləndirən əsas amilləri açıqlayıb.**

Adalet.az xəbər verir ki, Prezident İlham Əliyev bunun, ilk növbədə, sentyabr hadisələrindən sonra yeni dövrün başlanğıcı ilə əlaqədar olduğunu bildirib.

O qeyd edib ki, ikinci səbəb müstəqil həyatımızda ərazilərimizin hər bir yerində keçiriləcək birinci seçkilərin məhz prezident seçkilərinin olmasının vacibliyidir.

Dövlətimizin başçısı digər səbəbi isə bu cür izah edib: "Mənim Prezident kimi fəaliyyətimin 20 ili tamamlandı. Bu da bir dövrdür və bunu da biz bir yekun kimi qəbul etməliyik. 20 ildən sonra yenidən prezident seçkilərinin keçirilməsi təbii ki, bu xronoloji dövrü də əsaslandırmış olur".

# XİN: Fransa vətəndaşının əsassız tutulduğu barədə bu ölkənin iddialarının heç bir əsası yoxdur

**"Fransa vətəndaşının əsassız olaraq tutulduğu barədə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin iddialarının heç bir əsası yoxdur. Bu əsassız bəyanat reallığın təhrif olunması, Azərbaycanın daxili işlərinə və qanuni təhqiqat prosesinə növbəti müdaxilə cəhdidir.**



Adalet.az xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Fransanın Avropa və Xarici İşlər Nazirliyinin Fransa vətəndaşının tutulması ilə əlaqədar Azərbaycan əleyhinə açıqlaması ilə bağlı yerli mətbuatın sualını cavablandırarkən deyib.

Onun sözlərinə görə, Fransa Respublikasının vətəndaşı Martin Rian 4 dekabr tarixində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 276-cı maddəsində (casusluq) nəzərdə tutulmuş əməlin törədilməsində şübhəli bilinərək tutulub.

Daha sonra, onun barəsində məhkəmə qərarı ilə 4 ay müddətinə həbs qətimkan tədbiri seçilib. A.Nacızadə qeyd edib ki, Azərbaycan tərəfi sözügedən Fransa vətəndaşı barəsində tədbirlər görərkən milli qanunvericiliyə və beynəlxalq öhdəliklərə tam olaraq əməl edib.

Şübhəli bilinən şəxs tutulandan etibarən Fransa səfirliyinin konsulluq əməkdaşları ona bir neçə dəfə baş çəkib və onlar cinayət işindən tam məlumatlıdırlar. "Bundan əlavə, Azərbaycan Xarici İşlər Nazirliyinin qeyd edilən şəxsin Fransa səfirliyinin iki əməkdaşı ilə işbirliyi ilə bağlı məsələnin araşdırılması məqsədilə Fransanın Azərbaycandakı səfirliyinə verbal nota ünvanlamasına baxmayaraq, Fransa tərəfi hər hansı bir izahat verməkdən və istintaqda əməkdaşlıqdan imtina edib.

Bununla əlaqədar, səfirliyin bu iki əməkdaşı Azərbaycan tərəfindən arzuolunmaz şəxs elan ediliblər.

Biz bir daha, Fransa tərəfini Azərbaycanın daxili işlərinə və qeyd olunan təhqiqat tədbirlərinə müdaxiləni dayandırmağa şiddətlə çağırırıq", - deyə Azərbaycan XİN-in sözçüsü bildirib.

# Seçki ilindən gözləntilər

**2024-cü ildə dünyada bir neçə əhəmiyyətli seçki kompaniyalarının keçiriləcəyi gözlənilir. Dünyanın geosiyasi vəziyyətinin dəyişdirilməsi yönündə bu seçkilərin böyük əhəmiyyət daşıdığını demək olar.**

Hazırda dünya üçün önəm daşıyan, noyabr ayında ABŞ-da keçiriləcək növbəti prezident seçkiləri daha çox diqqət mərkəzindədir. Respublikaçılar və Demokratlar partiyası daxilində namizədin təsdiq olunması uğrunda debadlar ciddi şəkildə davam edir.

Əsas mübarizənin Co Bayden və Donald Tramp arasında gedəcəyi şübhə doğurmasa da, sürpriz namizədin də ola biləcəyi istisna olunmur.

Ekspertlərin fikirincə, hazırki prezident Co Bayden nə qədər tənqid olunsa da, o, yeni iş yerlərinin açılmasında, enerji və hərbi sənaye kompleksləri lobbilərinin maraqlarını təmin etməklə növbəti dəfə seçilmək şanslarını saxlaya bilər.

Müxtəlif məhkəmə qalmaqalları ilə üzləşən, bir sıra ştatlarda seçki kompaniyasının aparılmasında ona qarşı manielər yaradılmasına cəhdlər edilməsinə baxmayaraq, Donald Trampın da yenidən Birləşmiş Ştatların prezidenti seçilmək imkanları var.

Hazırda ABŞ Konqressində çox ciddi debatlar gedir. Respublikaçılar demək olar ki açıq "hücuma" keçib, demokratlar fraksiyasında da Baydenin seçilmək imkanlarının olmadığı ilə bağlı fikir ayrılıqları müşahidə olunmaqdadır. Lakin bütün deyilənlər haqqında qəti fikir söyləmək hələ ki, tezdir.

Böyük Britaniyada keçiriləcək parlament seçkiləri, Konservativ partiyanın qələbə ümidlərini heçə endirə bilər. Belə ki, onların baş nazir pistuna irəli sürdükləri namizədlərin heç biri cəmiyyət tərəfindən nəinki bəyənilməyib, hətta tənqidlərə məruz qalıb. Ona görə də, leyboristlərin bu seçkiləri qazanmaq şansları daha yüksək qiymətləndirilir.

2024-cü ildə Avropa İttifaqı ölkələrində Avropa parlamentə seçkilər keçiriləcək. Onuncu dəfə keçirilən seçkilərdə yeni deputatlar 5 illik müddətə seçiləmlidir. "Xalq partiyası" Avropa hökumətinə güclü təyziqlər göstərməsinə baxmayaraq, sağçıların mövqeyinin daha yüksək olduğu müşahidə olunmaqdadır. Mərkəzçilərin də, milli suverentetə və milli maraqları müdafiə edənlərin yanlnda olacaqları görünür.

Tayvanda keçiriləcək prezident seçkiləri, dünya siyasəti üçün mühüm əhəmiyyət



kəsb edir. Bununla bağlı amerikan beyin mərkəzlərinin demək olar ki, hər həftə hazırladıqları məlumatlar, keçirdikləri monitorinqlər göstərir ki, bu sahədə aparılan qlobal və regional siyasət, Tayvan məsələsinin ABŞ üçün, hətta Ukrayna məsələsindən də vacib olduğunu göstərir.

Rusiyada mart ayında keçirilməsi nəzərdə tutulan prezident seçkilərində, hazırki prezident Vladimir Putinin yenidən hakimiyyətdə qalacağı şübhə doğurmur. Ukrayna ilə aparılan müharibə və bununla bağlı ABŞ və aparıcı Qərb ölkələri tərəfinfən qəbul edilən antirysiya sanksiyaları ölkə iqtisadiyyatına ciddi zərbələr vurmasına baxmataraq, rusiyalılar yəqin ki, "atlarl döngədə dəyişmirlər" prinsipi ilə onu yenidən lider kimi görmək istəyəcəklər.

Qonşu Gürcüstanda həm prezident, həm də parlament seçkiləri keçiriləcək. Artıq uzun illərdi qərbyönümlü siyasət aparan hazırki hakim qüvvələrin yenidən qələbə qazanacağı güman edilir.

2024-cü ildə Azərbaycanda keçiriləcək növbədənkənar prezident seçkilərində, namizədliyini irəli sürən vətəndaşlarımızın içərisində, xalqımızın 30 ilə yaxın düşmən işğalı altında qalan torpaqlarımızı işğaldan azad edən, hazırda azad olunmuş ərazilərdə geniş bərpa və yenidənqurma işləri aparan Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevi yenidən Azərbaycan Respublikasının Prezidenti kimi görmək istəyəcəkləri, hətta ölkəmizə qarşı revanşist mövqe tutan xarici qüvvələr tərəfindən də qətiyyən şübhə doğurmur...

**Rüstəm Hacıyev**

# "ABŞ-da yeni qalmaqal başlayır"

**"Lenta.ru" saytı yazır ki, ABŞ-ın Manxetten Federal dairə məhkəməsi, maliyəçi Cefferi Epşteynin cinayət işi ilə bağlı yeni sənədləri dərc edib. Epşteyn insan alveri, o cümlədən yeniyetmələrin alverində günahlandırılırdı. Onun müştəriləri arasında çoxsaylı tanınmışlar: aktyorlar, rejissorlar və siyasətçilər olub.**

Epşteyni, onlarla gənc qızları seksual köləliyə salmaqla, kriminal şəbəkə yaratmaqda günahlandıraraq həbs cəzasına məhkum ediblər. 5 yanvarda dərc olunan əlavə 300 səhifəlik 19 sənəddə, cinayət işində adı çəkilən 150-dən çox adamların içərisində, ABŞ-ın keçmiş prezidentləri Donald Tramp və Bill Klinton, həmçinin Nyu-Mexiko ştatının keçmiş qubernatoru Bill Riçardson və senator Corc Mitçelin də adları yer alıb. Siyahıda Britaniya şahzadəsi Endryunun, ilizisuionist Devid Kopperfildin, astrofizik Hokinqin, "Ofis" serialının ulduzu Reyn Uilsonun, aktyor- senarist və rejissor Set Makfarleyinin, həçinin müğənni Maykl Ceksonun adları da yer alır. Lakin bu adların siyahıda olması, hələ onların bu cinayətdə iştirak etməsi demək deyildir.

Sənədlərdən də görünür ki, bu adların əksəriyyəti, ABŞ vətəndaşı Virdjiniya Cuffer və Epşteynin rəfiqəsi Hisley Maksvelin şər atması nəticəsində bu siyahıya düşüblər...

**Rüstəm Hacıyev**

# NARKOTİKLƏRLƏ MÜBARİZƏ TƏKCƏ POLİSİN İŞİ DEYİL

**Son illər Daxili İşlər Nazirliyi narkotiklərlə çox kəskin və ciddi mübarizə aparır. Bunu DİN-in gündəlik yaydığı məlumatlarda, eləcə də nazirliyin mətbuat katibi Elşad Hacıyevin sosial şəbəkələrdə paylaşdığı statuslarda aydın görmək olar. Belə görünür ki, Daxili İşlər Nazirliyi bu mübarizədə bircə addım da geri atmayacaq, xalqı, xüsusən də gəncliyi bu bəladan qorumaq və xilas etmək üçün əlindən gələni (hətta əlindən gələndən də artıq) əsirgəməyəcək.**

Düzdür, bu məsələdə Dövlət Sərhəd Xidmətinin və Gömrük Komitəsinin əməkdaşlarının da zəhmətini ayrıca qiymətləndirmək olar. Amma əsas güc Daxili İşlər Nazirliyinin üzərinə düşür.

Amma onu da qeyd etmək lazımdır ki, narkotiklərlə mübarizə təkcə polisin işi deyil, bu işdə ictimaiyyət də fəal rol oynamalı, polisə kömək etməlidir.

Mətbuatın, xüsusən televiziyaların üzərinə də böyük məsuliyyət düşür. Güclü maarifçilik işi aparılmalıdır.

Azərbaycanda narkotika istehsal olunmur, uzaqbaşı kimlərsə həyətində müəyyən qədər nəşə əkə bilir. Amma bu da sahə müvəkkillərinin və cinayət axtarış müvəkkillərinin gözündən yayınmır, vaxtında qarşısı alınır.

Azərbaycanda nə heroin istehsal olunur, nə də adını bilmədiyim müxtəlif narkotik həblər və iynələr. Bunların hamısı xaricdən Azərbaycana ötürülür. Xüsusilə də qonşu İrandan. İranda ən ağır cəza narkotik alverçilərinə verilən cəzadı, özü də edam cəzası.

Necə olursa İranın içiylə min kilometrdən artıq məsafəni qət edib Azərbaycan sərhədinə qədər gələ bilirlər, amma qonşu dövlətin təhlükəsizlik xidmətləri, polisi, xüsusi xidmət servisləri buna göz yumur.

Bir dəfə 6 nömrəli islah-əmək koloniyasına şair Vaqif Bəhmənliylə mən görüşə getmişdik. Kolonu gəzərkən gördüm ki, bir tərəfdə 7-8 nəfər dayanıb öz aralarında söhbət edirlər. Rəisdən soruşdum ki, onlar kimdir?

Dedi:

***- İran vətəndaşlarıdır, hamısı narkotiklə bağlı həbs olunub. Sonra onları beynəlxalq qanunlara görə qaytarıb veririk İrana, amma aradan üç-dörd ay keçir yenə tutulurlar. Eləsi var narkotikə görə üçüncü-dördüncü dəfədir həbsxanaya düşür. İranda bunları cəzalandırmırlar, yenidən əllərinə narkotika verib göndərirlər bura.***

Mən də dedim ki, siz də qaytarıb verməyin.

***- Axı, o bizdən asılı deyil, dedim də beynəlxalq qanunlara görədir.***

İndi bu məsələ həll olunub, daha narkotika ilə bağlı həbs olunan İran vətəndaşları ekstradisiya edilmir.

Əvvəllər Ermənistanın işğalı altında olan Qarabağ tranzit bir məkan sayılırdı, Avropaya, hətta Əfqanıstandan gələn narkotika bu ərazidən ötürülürdü.

İndi Allaha şükür, Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi ilə Qarabağ işğaldan azad olunub və daha bu ərazidən qonşu dövlətlər istifadə edə bilmir. Ona görə də Azərbaycanın özündən plasdarm kimi istifadə etmək istəyirlər.

Gecəsini gündüzə qatan Daxili İşlər Nazirliyi ölkəmizdən tranzit kimi istifadə etmənin qarşısını alır və alacaq da. İndi bir məsuliyyət də, yuxarıda dediyim kimi, düşür bizim üzərimizə, ictimaiyyətin üzərinə. İctimaiyyət də polisə dəstək olmalıdır.

Yeri gəlmişkən, həmişə ürəyimi ağrıdan, televizorda gördüyüm bir süjeti də xatırlatmaq istəyirəm.

Televiziyada əldən düşmüş bir narkomanı danışdırırdılar. O deyirdi vaxtilə Bakıda ən bərkgedən oğlanlardan biri idim. Özü də boylu-buxunlu, gözəl-göyçək bir oğlanıydım, qızlar dalımca düşürdü. Özüm də adlı-sanlı bir ailədən idim. İndi narkotika qəbul edənlər mənim halıma baxsınlar, qalanlarını özləri bilir.

Mən bu oğlanı yaxşı tanıyırdım. 70-ci illərdə Tibb İnstitutunda oxuyurdu, bir yerdə çox futbol oynamışdıq Tibb İnstitutunun həyətində. Hərdən davamız da düşərdi. İki qardaş idilər, ikisi də gözəl-göyçək. İkisinin altında da o vaxt "Mersedes 600"ü əvəz edən qırmızı "06" vardı, özü də qəşəng nömrəylə. Ataları yüksək vəzifədə işləyirdi, demək olar ki, uşaqların hamısının onlara paxıllığı tutardı.

Onu televiziyada bu halda görəndə yadıma onun gəncliyi düşdü, özümdən asılı olmayaraq ağladım. Evdə soruşdular ki, sənə nə oldu.

Dedim:

***- Mən bu oğlanla o qədər futbol oynamışam ki. Alen Delondan yaraşıqlı oğlan idi, indiki halı ağlatdı məni.***

**Bunu ona görə yazdım ki, televizyonlarımız mənasız müğənniləri (bu ifadə Flora xanımla Elza Seyidcahana aid deyil) çıxarıb efirdə dalaşdırmaqdansa belə adamları tapıb danışdırsınlar. Gənclik də ibrət götürsün.**

# İLHAM ƏLİYEV: "MƏNİM PEYKİM MƏNİM GÖZLƏRİMDİR"

***Ayın 10-da Möhtərəm Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibə verdi. İkinci Qarabağ savaşında prezidentin xarici televiziya kanallarının müxbirlərinə verdiyi müsahibələri bütün Azərbaycan xalqı çox diqqətlə izləyirdi. Əslində bu müsahibələrdə prezidentin verdiyi kəskin cavablar qələbəmizin az qala əlli faizini təşkil edirdi.***

***Müsahibə yerli telekanallara verilsə də, prezidentin cavabları bizə dost olan və dost olmayan ölkələrə ciddi mesaj idi. Çünki prezidentimizin hər çıxışı Avropada, dünyanın bir çox ölkələrində çox ciddi izlənilir və incələnir. İndi dost olmayan ölkələr bu müsahibədə onlara sərf edən müəyyən məqamlar axtaracaqlar. Amma tapa bilməyəcəklər, çünki verdiyi cavablarda onlar üçün heç bir tutalqa yeri qoymamışdı. Hamısı açıq mesajlar idi. Və dünyaya bəyan etdi ki, biz müstəqil dövlətik, heç kim bizim daxili işlərimizə qarışa bilməz.***



***Prezident İlham Əliyev: "Mən hesab edirəm ki, gücümüzün əsas mənbəyi haqlı olmağımızdır. Çünki biz haqlıyıq və istənilən auditoriyada, istənilən tədbirdə haqlı olmağımızı sübut etmək üçün kifayət qədər əsaslarımız var. Qarabağ məsələsində biz tamamilə haqlıydıq və heç kim bizi bu haqdan məhrum edə bilməz. Müstəqillik ideyalarımızı rəhbər tutmaqda da haqlı idik. Çünki biz müstəqil ölkəyik. Əgər biz müstəqil ölkəyiksə, nə üçün kiminsə sözüylə oturub-durmalıyıq?"***

***Xüsusilə də son zamanlar Azərbaycan-Ermənistan sülh danışıqlarına bütün gücü ilə mane olmaq istəyən Fransanın prezidenti Makrona bu müsahibədə, türklərin sözü olmasın, bir Osmanlı tokatı vurdu: "Bizim ordu quruculuğu prosesi davam edəcək. Ermənistan bilməlidir, o, nə qədər silah alsa da, onlara nə qədər ürək-dirək versələr də, əgər bizə qarşı hər hansı bir təhlükə mənbəyi olsa, biz dərhal o təhlükə mənbəyini məhv edəcəyik. Mən gizlətmirəm ki, sabah heç kim deməsin nəsə gözlənilməz oldu. Qoy eşidən eşitsin ki, biz görsək, bizə qarşı real təhlükə, o Fransanın sınıq-salxaq "Bastyon" maşınları, o konserv bankaları yox, real təhlükə yaransa, biz preventiv addımlarla o təhlükəni istənilən nöqtədə məhv edəcəyik".***

***Prezident onu da bildirdi ki, sülh danışıqları bəzən 20-30 il də gecikdirilə bilər. Amma bu, Ermənistanı dalana dirəyər və çıxılmaz vəziyyətə salar. "Zəngəzur dəhlizi"nin açılması Ermənistana böyük xeyir verər. Gecikdirərlərsə, biz artıq İranla razılaşmışıq, bu dəhlizi qonşu ölkənin ərazisindən də keçirə bilərik. Artıq Ağbənddə ilk körpünün təməlqoyma mərasimi olub, belə bir körpü İranla Ordubad arasında da tikiləcək.***

***Müsahibədə ən maraqlı məqamlardan birini yenidən xatırlatmaq istəyirəm: "İndi yenə də deyirəm, bizi ittiham edirlər ki, biz Ermənistana hücum etmək istəyirik, mən bunu artıq demişəm, bir daha deyirəm, tam səmimiyyətlə, istəsəydik girərdik. Lap axıra qədər gedərdik. Cermux şəhəri - bizim keçmiş, əsl adı İstisu olan şəhər gözümüzün qabağında idi. Kim idi bizi saxlayan? Bizim niyyətimiz yox idi. Bizim niyyətimiz sərhədimizi müdafiə etmək idi. Elə təpələr əlimizdə olmalıydı ki, biz ermənilərin planlarını gözümüzlə görək. Bu mövzu ilə bağlı bir qərbli qonağımla söhbət əsnasında mənə dedi ki, axı sizin peykiniz var, siz peykdən də görə bilərsiniz. Deyirəm, mənim peykim mənim gözlərimdir, mən gözlərimlə görməliyəm. Bir dənə də nahaq iş görməmişik, bu, əsasdır, əsas amildir".***

***Müsahibədə diqqət çəkən məqamlardan biri də ermənilərin daşı daş üstə qoymadığı Qarabağın şəhər və kəndlərinin yenidən inşa edilməsi və məcburi köçkünlərin öz doğma yurd-yuvalarına dönməsi idi. Bu il Xocalıya, Xankəndinə, Şuşaya qayıdış başlayacaq, gələn il isə Ağdam şəhərinə. Və iki il müddətinə 140 mindən çox məcburi köçkün öz dədə-baba yurdlarına köçəcəklər. Bizlər üçün, yəni məcburi köçkünlər üçün bundan sevindirici xəbər ola bilməz.***

***Müsahibə üç saata yaxın çəkdi. Hər bir detal haqqında yazmaq istəmirəm, çünki həmin müsahibəni yenidən saytımıza yerləşdirirəm. Buyurun, bir də baxın. Və ürəyinizdən keçən bütün suallara cavab tapacaqsınız.***

# TUT AĞACI BOYUNCA, TUT YEMƏDİ DOYUNCA

**Ölüm -**
**Ən sadiq dost**
**Həmişə arayıb-axtarar səni**
**Elə ki tapdı, basıb bağrına**
**Müqəddəs zülmətə aparar səni.**



**Ölüm çoxdan düşmüşdü Aygün Bəylərin arxasınca, amma tuta bilmirdi. Kim bilir bəlkə Əzrayıln da onun ilahi səsindən, dağa-daşa sığmayan səsindən, çay kimi gurlayan, İsa bulağı kimi qaynayan səsindən xoşu gəlirdi. Nə olar Əzrayıl olanda, o da Allahın bir mələyidi, onun da duyğusu var.**

**İstəyirdi tutu doyunca yesin, xəlvətdə gördüyü yarı ilə doyunca danışsın. Amma nə tutu doyunca yeyə bildi, nə də xəlvətdə gördüyü yarı ilə doyunca danışa bildi. Əzrayıl da qulu olduğu Allahın əmrindən çıxa bilmədi, Allahın qəzəbindən qorxdu. Amma nəyə gücü çatdı? Ona axırıncı bir şans bağışladı, o da son konsertini verdi.Əzrayıl onun canını aldı apardı, amma səsini, oxuduğu mahnıları, muğamları apara bilmədi. Aygün Bəylərdən böyük bir sərvət qaldı bu xalqa, əvəzolunmaz bir sərvət.**

**Kişi paltarı geyindi, elə kişi kimi də yaşadı. Heç kimə əyilmədən, sınmadan.**

**Heyf sənə, Aygün...**

***Tut ağacı boyunca,***
***Tut yemədin doyunca,***
***Ölüm xəlvətdə tutdu,***
***Qoymadı oxuyasan doyunca.***
***Mənim Aygünüm kimə neylər?***
***Körpə Aygünüm kimə neylər?***

**Ay bədbəxtlər, ay bədxahlar...**

## *FRANSA XALQI DAY KEF ELƏMİR*

**Ölkədə iğtişaşlar səngimir, polislə qarşıdurmalar, küçələrin və mağazaların dağıdılması, etirazlar...**

İndi də 34 yaşlı bir homoseksual Qabriel Attalı Makron baş nazir təyin edib. Adamın Allahı var, amma nemes çox simpatiçni oğlandı. Yəqin yeni baş nazir də başına homoseksual nazirləri yığacaq.

Belə getsə, Allah Parisi Sodomun gününə salacaq. İnşallah.

## *PAŞİNYAN NƏ QƏDƏR TÜND OLSA DA ERMƏNİSTANI ÇATLADAR*



**Əslində Fransa kimi, Makron kimi kərtənkələlər olmasa Paşinyan çoxdan Azərbaycanla razılığa gəlib Sülh müqaviləsini imzalayardı. Amma ilana ağ verən kərtənkələlər qoymur. Özü də bilə-bilə ki, bu ilan artıq ilan deyil, koramaldı. Və Paşinyan Azərbaycan atalar sözlərini yaxşı bilir, Bilir ki, sirkə nə qədər tünd olsa, öz qabını çatladar və Paşinyan da nə qədər tünd olsa Ermənistanın dalı açıq qalar.**

## *HANSISA BİR MOLLANIN CƏZALANDIĞINI EŞİTMİSİNİZMİ?*

**Demək olar ki, tez-tez rastımıza gəlir, azyaşlı qızların ərə verilməsi. Nə qədər maarifçilik işi görülsə də, nə qədər mübarizə aparılsa da xeyiri yoxdur. İt ilində, yəni Sovet dövründə dövlət tərəfindən kəbini kəsilməyən heç kimə molla kəbin kəsə bilməzdi, çəkib ciyərini çıxarardılar. İndi də qanunlara görə, 18 yaşdan aşağı olanlara kəbin kəsilmir. Elə isə mollalar necə olur ki, VVAQ-ın kəbin kağızı olmayan kimlərəsə kəbin kəsməyə cəsarət edirlər? Dövlətin müvafiq qurumları niyə bu məsələ ilə maraqlanmır?**

İndiyəcən eşitmisinizmi ki, buna görə bir molla cəzalansın, digər mollalar da gözü çıxan qardaşlarından dərs götürsün.



*Eminquey*

# Uşaqlığımın ilk qadın qəhrəmanı

***Uşaq vaxtı televizorda Xocalı, 20 yanvar, Qarabağ döyüşlərindən kadrlar veriləndə elə bilirdim ki, müharibədə döyüşüb şəhid, qəhrəman olanlar kişilər, günahsız ölənlər isə qadınlar olur.***

***Yaddaşımda ən çox qalan bığlı, saqqallı, uzun saçlı kişi şəhidlər olurdu. Qadınlar isə yerdə donuq halda uzanmış kimi gəlirdi gözlərimin önünə.***

***Elə bilirdim qadınlar müharibədə yalnız zorlana, döşləri kəsilə, qarınlarına süngü sancıla bilər.***

***Elə bilirdim analar, bacılar yalnız oğullarının cəbhədən gələn nəşinə sarılıb ağlaya bilər, saçlarını yola bilər, dizlərinə çırpıb üz-gözünü cıra bilər.***



***Elə bilirdim yalnız qadınlar ərsiz qalır müharibə vaxtı, uşaqlar da atasız.***

***Yalnız bir qadın mənim bu düşüncələrimi alt-üst elədi. O qadının adı Salatın Əsgərovadır. Eşidəndə soyadındakı "Əsgər" də məni biraz düşündürmüşdü. O, mənim uşaqlığımın ilk qadın qəhrəmanı idi, ilk qadın əsgəri idi. Salatın Əsgərova mənim düşüncəmdəki zorlanmış qadınları bəkarətini təmizləmişdi, yerdə donuq vəziyyətdə qalmış qadın cəsədlərinə can vermişdi, qarınlarındakı süngünü çıxarıb düşmənə saplamışdı.***

***Salatın Əsgərova məni başa saldı ki, qadınlar cəbhədən qızlarının da nəşini gözləyə bilər, uşaqlar cəbhədən analarının yolunu da gözləyə bilər.***

***- Atan hardadır?***

***- Cəbhədə!***

***... sual-cavabı***

***- Anan hardadır?***

***- Cəbhədə!***

***... ilə əvəzlənə bilər.***

***Söz ilə, cəbhədən verdiyi xəbərlərlə, yazdığı yazılarla.***

***Onu sözlə öldürə bilməzdilər.***

***Güllə ilə öldürdülər.***

***Əvvəlcə cəbhənin sözünü kor qoydular, sonra isə gözünü, yəni Çingizi...***

***Sözün əsgəri Salatın Əsgərovanın ruhuna sayğı ilə!***

---

# Vətəndaşlarımız vizalarını burdan əldə edəcəklər

**Azərbaycan Respublikasının vətəndaşlarının İraq Respublikasına səyahət edərkən giriş vizalarını artıq bu ölkənin sərhəd-keçid məntəqələrində əldə edə biləcəkləri ilə bağlı İraqın daxili işlər naziri müvafiq əmr imzalayıb.**

Adalet.az xəbər verir ki, bununla bağlı Azərbaycanın İraqdakı səfiri Nəsir Məmmədov paylaşım edib.

"Bununla əlaqədar başda İraq Respublikasının Baş naziri olmaqla, bu ölkənin Daxili İşlər və Xarici İşlər Nazirliklərinə təşəkkürümüzü bildiririk", - paylaşımda deyilir.

---

# BİZİMKİLƏR DEYƏSƏN, DOĞRUDAN QIRILIB QURTARIB



**Futbol üzrə milli komandamıza yenə də əcnəbi məşqçi gətirildi. Yəqin ki, Foqts kimi, De Byazi kimi 3-5 il də bu məşqçi milli komandamızın başına ip salıb oynadar, sonra da pulunu alıb çıxıb gedər.**

Bu kiflənmiş məşqçilərin nəyinə aşiq olub AFFA? Özümüzünkülərə, Rəşad Sadıqova, Tərlan Əhmədova, Samir və Ayxan Abbasovlara it dəyib?

---

# XANIMLIĞI BACARMAQ HƏR XANIMIN İŞİ DEYİL

**Biri görkəmli Xalq artisti, ecazkar səsi ilə hamını heyran edən Flora Kərimova, o biri Əməkdar artist, gözəl bəstəkar, səsi də, özü də gözəl olan xanım Elza Seyidcahan. Bu adam səsi kimi gözəl geyinib-keçinməyi də bacarır, bu onun hobbisidir. Fikri heç də ətrafdakıların diqqətini cəlb etmək deyil, çünki elə özü bəstəkarlığı və səsi kimi cəlbedicidir. O da var ki, heç kim Elza Seyidcahanı açıq-saçıq geyimdə görməyib.**



İkisi də xanım. Amma televiziyadakı qırğınları heç də xanımlıqlarına yaraşmırdı. On milyonun qarşısında bir-birlərinə olmazın sözünü dedilər. Flora xanıma heç yaraşdırmadıq. Deməli, Elza Seyidcahan Oqtay Əliyevin yasına gedərkən başında tac olub, o tacın bir hissəsi də görünür.

Təbii ki, jurnalistlərə də, televizyonçulara da belə bir şey lazımdır. Siz o tacı görmüsünüz, amma Elza xanımın qəlbindəki kədəri, ağrını görə bilməmisiniz axı. Bəlkə həmin an Elzanın barmağını kəssəydilər, görərdilər ki, ordan qıpqırmızı qan yox, qapqara kədər tökülür.

Nə isə. Əsas məsələ odur ki, bu dava sosial şəbəkələrdə, mətbuatda, eləcə də televiziyalarda geniş müzakirələrə səbəb olub və olur, bu da görkəmli xanəndə Aygün Bəylərin də ölümünü yaddan çıxartdı, Doğum evində yanan 4 uşağı da. Hamı fokuslaşdı Flora xanımla Elza Seyidcahanın lazımsız qalmaqalına.

Yaxşı ki, dünən İctimai Televiziyada Saleh Bağırovun musiqimizin professoru, əvəzolunmaz sənətkar Şövkət Ələkbərovaya həsr olunmuş verilişi efirə getdi. Və bu verilişin gözəlliyi bizə Flora xanımın Elza Seyidcahanla qalmaqalını az da olsa unutdurdu.

**Sağ olun, Saleh Bağırov və İctimai Televiziyanın rəhbərliyi. Nə yaxşı varsınız!**

---

# KÜRÜN SUYU NİYƏ AZALIR?

**Televizyonda bir süjetə baxdım. Söhbət Kürün suyunun azalmasından gedirdi. Belə aydın oldu ki, hamı ümidini Allaha və Allahın göndərdiyi yağışa, qara bağlayıb. Əslində isə məsələnin kökündə nə Allah, nə yağış, nə də qar var.**

Məsələ bundadır ki, qardaş Türkiyədə də Kürün qabağında anbar tikiblər, qonşumuz Gürcüstanda da bir neçə anbar tikiblər, hətta Kürün suyunu dənizə axıdırlar.

Ona görə də Nazirlər Kabineti hər iki dövlətlə bu məsələyə aydınlıq gətirməlidir. Yoxsa Kürün də, Arazın da suyu azalır və azalacaq.

Hətta dedilər ki, Arazın suyu o qədər quruyub ki, Suqovuşana gəlib çatmır.

Yadıma bir köhnə anekdot düşdü.

Ağdamlıların yük maşını Qarqarda batır, hamısı tökülür maşını itələyirlər ki, çaydan çıxarsınlar. Hər dəfə də maşına çiyinlərini verəndə deyirlər:

**- Ya Həzrət Abbas.**

Yoldan keçən bir erməni bunu görür və deyir:

**- Qardaşlar, burda Həzrət Abbaslıq iş yoxdu ey, sizə traktor lazımdı.**

**İndi Kürün suyunun azalması nə Allahlıqdı, nə Həzrət Abbaslıq. Kürün qarşısını kəsən qardaş və qonşu dövlətlərlə danışmaq lazımdı.**

---

# ABŞ Dövlət Departamenti ilə professor Hamlet Petrosyanı yandıran "xaçkar "dərdi

**Xəbər verdiyimiz kimi, ABŞ-ın Beynəlxalq Dini Etiqad Azadlığı üzrə Komissiyası (USCİRF) ölkəmizdə dini etiqadın hazırki vəziyyəti ilə bağlı qərəzli hesabat hazırlayıb.Ermənistanın Azərbaycanı ləkələmək üçün həyata keçirdiyi beynəlxalq kampaniya ermənilər son günlərdə ən çox sevindirən hadisə olub.**



Ən çox sevinən isə İrəvan Dövlət Universitetinin mədəniyyətşünaslıq kafedrasının müdiri, tarix elmləri doktoru, professor Hamlet Petrosyan olub.

Bu həmin Petrosyandır ki, Şahbulaq qalasının həndəvərini qazıq-qazıq edərək orada "qədim erməni şəhəri Tiqranakert"i axtarırdı.

Əli qondardıqları "artsax"dan çıxan Petrosyan havalanmış, beyni "tormoz"lanmışlar kimi açıqlamalar verməkdə davam edir:

"Azərbaycan indi bir tərəfdən görünməyənləri dağıtmağa çalışır, digər tərəfdən isə böyük abidələri erməni olmayan kimi təqdim edir.

Amma o, işğalçı rıçaq deyilən üçüncü rıçaqdan da istifadə edir.

Yəni ermənilər Azərbaycan ərazisini işğal edib, orada abidələr ucaldırlar. Onların fikrincə, o abidələr işğaldır və götürülməlidir. Bunu gizlətmirlər. Onlar nümayişkaranə şəkildə artsaxda azadlıq mübarizəsindən sonra tikilmiş abidələri və Xaçkarları dağıdıblar".

Maraqlıdır, uzunqulaq boya professor anlamaq istəmir ki, Qarabağ Azərbaycanın qanuni ərazisidir, orda nəyin qalıb, nəyin silinməsi də məhz Azərbaycan dövlətinin qanuni haqqıdır.

Hamlet Petrosyanın sözlərinə görə, ABŞ Dövlət Departamentinin dini etiqad azadlığı ilə bağlı bəyanatı çox vacibdir, çünki burada təkcə artsaxda maddiləşmiş abidələrə dəymiş ziyan deyil, həm də dini icmalara qarşı siyasət vurğulanır. "Azərbaycan yüz illərdir ermənilərə məxsus ermənidilli abidələri küfr hesab edir və kilsə ritualının nə olduğunu bilməyən udi icmasının kasıb nümayəndələrini gətirirlər. Bu, şübhəsiz ki, erməni dini icmasına ciddi ziyan vurur-deyə o qeyd edib.

Yenə də bu "tarix bilicisi"nə bəzi nüansları anlatmadan keçmək olmur. Əvvəla Qarabağa ermənilərin gəlişi 1828-ci illərdə qaraçı taboru kimi yığılıblar.

Elə yığılan kimi də Qarabağda adını Marağa qoyub məskunlaşdıqları kəndə 150 ildən sonra özlərinə oxşayan bir abidə tikiblər. İrandan ilk 200 erməni ailəsinin köçürülməsinin 150 illiyi münasibətiylə 1978-ci ildə ucaldılmış abidəni də 1988-ci ildə özləri dağıdıblar. Qədim Alban abidələrinin isə tikilməsinin ən yaxın tarixi 12-13-cü əsri əhatə edir. Eləcə də Azərbaycan xalqının qədimliyini təsdiqləyən digər abidələr isə yenə də ermənilərin vandalizminin qurbanı olub. Xaçkarların işğal dövründə gətirilib Azərbaycan ərazisində basdırılması elə işğalçılıq olduğu üçün sökülməsi təqdirəlayiq haldır.

Hamlet Petrosyan həm də qeyd edib ki, sentyabr hadisələrindən sonra ABŞ Azərbaycana qarşı bir qədər sərt mövqe tutub.

"Dünyada heç bir böyük dövlət artsaxdakı mədəniyyət irsimizə(lənət şeytana))) ABŞ qədər diqqət yetirməyib. Nəticəsinin nə olacağını söyləmək çətindir, çünki Türkiyə və Rusiyanın dəstəklədiyi Azərbaycan özünü cəzasız hiss edir və buna səbəb də budur.

ABŞ Dövlət Departamentinin bəyanatına dərhal cavab verdi ki, ABŞ ikili standartlar tətbiq edir, bunların hamısı uydurmadır.

Yeni dünyanın güclü insanlarının artıq Azərbaycanda nizam-intizam yaratmaq rıçaqları yoxdur. Amma biz əlimizdən gələni etməliyik, əlimizdən gələni etməliyik. Mütləq bir nəticə əldə edəcəyik".

**Həyasızlıq üzrə professor olan erməni Hamlet Petrosyan səsini başına atıb qaraçılıq edir. Buna meydanı isə ABŞ Dövlət Departamenti verib. Uzun sözün qısası, əlinizdən gələni ardınıza qoymayın, Qarabağda xaçkar, yaxud da işğal dövründə - 30 illik zamanda torpaqlarımıza nə əkmisinizsə çıxardıb atacağıq sərhəddinizə!Gəlin, yığın, aparın , soxun gözzzünüzə...**

**Əntiqə Rəşid**

# Ermənilər Vazgeni Cermukda "diriltdi"





**Rəşadətli ordumuzun qələbəsindən sonra 1992-ci ildə Şuşanın işğal olunmasına rəhbərlik edən terrorçulardan biri - Ermənistanın sabiq baş naziri Vazgen Sarkisyanın Şuşa şəhər İcra Hakimiyyətinin binası qarşısında qoyulan heykəli söküldü.**

Adalet.az xəbər verir ki, bu ilin ilk günündə terrorçu Vazgen Sarkisyanın Cermuk şəhərində quraşdırılıb.

Bu barədə fotoların dərc olunduğu Sparapet ev-muzeyinin Facebook səhifəsində yazılıb.

Qeyd edək ki, tanınmış yazar İlham Cəmiloğlu Vazgen Sarkisyanı belə xarakterizə edib:" 1959-cu ildə Vedi rayonunda anadan olub.

Orta məktəbi bitirdikdən sonra İrəvan Bədən Tərbiyəsi İnstitutunda ali təhsil alıb. İlk əmək fəaliyyətinə orta məktəbdə idman müəllimi kimi başlayıb. Daha sonra komsomol orqanlarında işləyən Vazgen Sarkisyan həm də bir müddət ədəbi yaradıcılıqla da məşğul olub.

Gənc yaşlarından qatı millətçi kimi tanınan, antiazərbaycan, antitürk təbliğatçı kimi tanınan Vazgen Sarkisyan 1990-cı ildə Ermənistan Ali Sovetinə deputat seçilib. O, Dağlıq Qarabağ hadisələri başlanan gündən erməni hərəkatının ən fəal üzvlərindən biri sayılıb və Dağlıq Qarabağda ilk silahlı dəstələrin yaradıcılarından biri olub.

Vazgen Sarkisyan 1991-ci ildə Ermənistanın ilk müdafiə naziri təyin edilib. O, nazir kimi fəaliyyətini Ermənistanda deyil, Dağlıq Qarabağda icra edib.

(Bu heykəl terrorçunun sayca dördüncü heykəli hesab olunur. İrəvanda, Vaqharşapatda (Eçmiədzin, Üçmüəzzin) və Qafanda ucaldılmışdı).

"Qələbə simvolu" adını qazanan Vazgen Sarkisyan Şuşanın və Laçının işğal edilməsini özünün ən böyük "uğuru" sayıb. Ümumiyyətlə, o, Ağdərədə, Şuşada, Xocalıda, Laçında, Xocavənddə keçirilən əsas hərbi əməliyyatlara rəhbərlik edib.

1992-ci ilin sonlarında Vazgen Sarkisyan Ermənistan prezidentinin müdafiə məsələləri üzrə müşaviri vəzifəsində çalışıb. 1993-cü ildə isə o, dövlət naziri kimi Ermənistanda müdafiə, təhlükəsizlik və daxili işlər orqanlarına başçılıq edib.

Vazgen Sarkisyan Dağlıq Qarabağa qanunsuz silah daşınmalarında və xarici ölkələrdə yaşayan erməni hərbçilərin Qarabağa cəlb edilməsində xüsusi fəallıq göstərib.

Cəllad xislətli Sarkisyan uzun-uzadı müzakirə və mübahisələri xoşlamayıb, o, istənilən vaxt, istənilən məkanda məsələni qısa və konkret öz tabel silahı ilə həll etməyə daha çox üstünlük verib.

(Ermənistanın baş naziri Nikol Paşinyan Şuşaya səfəri zamanı Vazgen Sarkisyanın heykəlini də ziyarət etmişdi.)

Vazgen Sarkisyan 1995-ci ildə ikinci dəfə Ermənistanın müdafiə naziri təyin edilib. Bütövlükdə həm Dağlıq Qarabağda, həm də Ermənistanda silahlı qüvvələri öz nəzarəti altında saxlamağı bacaran Vazgen Sarkisyan erməni siyasi liderləri üçün təhlükəli bir şəxsə çevrilib.

1997-1998-ci illərdə Vazgen Sarkisyan Robert Koçaryan və Serj Sarkisyanla birgə üçlük yaradaraq Levon ter-petrosyanın hakimiyyətdən devrilməsinə nail olub. Məhz Robert Koçaryanın Ermənistan prezidenti seçilməsində Vazgen Sarkisyanın xüsusi rolu olub.

1998-ci ildə Vazgen Sarkisyan Ermənistan Respublikaçılar partiyasına sədr seçilib. Ermənistanın keçmiş birinci katibi Karen Dəmirçyan isə Xalq Partiyasına rəhbərlik edib. Parlament seçkilərində də məhz bu iki partiya daha çox yer alıb. Bununla da, 1999-cu ildə Vazgen Sarkisyan baş nazir, Karen Dəmirçiyan isə parlamentin sədri kürsülərinə sahib olublar.

**Həmin ərəfədə Ermənistanda əsas hakimiyyət də elə bu cütlüyün, Sarkisyan-Dəmirçiyan cütlüyünün əlində olub. Robert Koçaryana isə geniş meydan verilməyib. Həmişə olduğu kimi erməni liderlər öz siyasi konfliktlərini bu dəfə də terrorla həll ediblər. "21-ci əsr bizim əsr olacaq" deyən Vazgen Sarkisyan "arzuladığı" əsrə çata bilməyib. 27 oktyabr 1999-cu ildə Ermənistan parlamentinin binasında terror aktı zamanı Vazgen Sarkisyan qətlə yetirilib".**

**Əntiqə Rəşid**

# Politico: "Makron "inadkar döyüşkən köpəyi" baş nazir postuna gətirdi



**Fransa prezidenti Emanuel Makron, radikal sağçılarla mübarizə aparmaq üçün, Qabriel Attalı baş nazir vəzifəsinə təyin edib. Bu barədə məlumat verən Politico mətbu orqanı qeyd edir ki, Attal qısa siyasi karyerası ərzində, ultra sağçı "Milli birlik" partiyasının sədri Jordan Bardella ilə keçirdiyi debatdan sonra, "inadkar döyüş köpəyi " və yaxud radikal sağçılara qarşı snayper" imici qazanıb.**

"Bu, böyük mətbu çevrilişdir"- deyə, Attalın baş nazir təyin olunmasına şəhr verən adının çəkilməsini istəməyən "Respublikaçılar" partiyasının üzvü bildirib.

Onun sözlərinə görə, "Attal Avropa parlamentinə seçkilər kompaniyasına rəhbərlik edəcək və Bardellaya qarşı yeganə mübarizə apara biləcək siyasətçi olduğu üçün" Makron belə bir seçim edib.

Politiconun materiallarında bildirilir ki, "Attal və Bardella eyni dövrün adamlarıdır. Attal siyasəttədə kulminasiya nöqtəsini hiss etmək qabiliyyətinə məxsusdur, ona görə də o, Millk birliyə qarşı dayana bilər".

**Bununla yanaşı, rəyi dotğulsnsn yalnız 37 fauz fransız hesab edir ki, 34 yaşlı siyasətçi yaxşı baş nazir ola bilər. Sorğularda iştirak edən 55 faiz insanın ona inanmağına baxmayaraq, əksəriyyət onun baş nazir postunda ölkəyə yeniliklər gətirə biləciyinə və reformalar apara biləcəyinə inanmır.**

**Rüstəm Hacıyev**

# HƏBSXANADAN MƏKTUB

**Mən törətdiyim əməlә görə təyin olunmuş 15 il azadlıqdan məhrumetmə cəzasının 10 ilini 9 saylı cəzaçəkmə müəssisəsində çəkmişəm. Ədliyyə general-mayoru Mirsaleh Seyidovun Penitensiar xidmətin rəisi vəzifəsinə təyin olunması ilə bu xidmət keyfiyyətcə yeni və səmərəli fəaliyyət mərhələsinə qədəm qoymuşdur. Hüquqi dövlətin təməlində duran ədliyyə sisteminin möhkəm qurulması əzm, iradə, islahatçılıq tələb edir. Bütün bu xüsusatlar Penitensiar xidmətin yeni rəhbərliyinin gündəlik işində öz əksini tapmışdır. Və artıq biz məhkumların gündəlik həyatında da müsbət nəticələrini göstərməkdədir.**

Belə ki, cəzaçəkmə müəssisəsinin ən önəmli istifadə sahəsi olan məhkumlar üçün nəzərdə tutulmuş yeməkxana tamamilə yenidən qurulmuş, müasir avadanlıqlarla təchiz edilmişdir. Bu addım bilavasitə məhkumların rahatlığının artırılmasında və sanitar-məişət şəraitinin yaxşılaşdırılmasında böyük rol oynamış və sözsüz ki, məhkumların böyük rəğbəti ilə qarşılanmışdır. Bundan əlavə, digər əhəmiyyət kəsb edən vacib sahələrdən biri sayılan cəzaçəkmə müəssisəsinin ərazisindəki ticarət köşkünün fəaliyyəti köklü şəkildə yenilənmişdir. Birinci növbədə məhsulların qiymətləri monitorinq edilmiş və xeyli ucuzlaşma reallaşdırılmışdır. İkincisi isə, satışa çıxarılan məhsulların çeşidi xeyli genişləndirilmiş, azadlıqda piştaxtalarda alıcılara təqdim olunan malların sayına çatdırılmışdır. Artıq məhkumlar uyğun qiymətə istədikləri məhsulları, o cümlədən kənd təsərrüfatı mallarını da rahat əldə edə bilərlər.

Ümumiyyətlə, yeni rəhbərlik məhkumların həyat şəraitinin yaxşılaşdırılmasına və yüksək standartlara cavab verən səviyyəyə çatdırılmasına yönəlmiş islahatlar cəzaçəkmə müəssisəsinin bütün sahələrini əhatə etmişdir. Müəssisəmizdə geniş abadlıq və yeniqənqurma işləri davam etdirilir, artıq bütün yaşayış sahələri (yataqxanalar) təmir edilmiş, yer örtükləri yenilənmiş, xeyli sayda ağaclar əkilmiş və ərazi yaşıllaşdırılmışdır. Peşə məktəbi tam şəkildə müasir standartlara uyğun yaradılmaqla yeni kompüter avadanlıqları ilə təchiz edilmişdir.

9 saylı cəzaçəkmə müəssisəsinin rəhbərliyi məhkumların asudə vaxtının səmərəli keçirməsi məsələsinə xüsusi diqqət ayıraraq bu sahədə şəraiti və imkanları xeyli genişləndirmişdir. Belə ki, stolüstü oyunların keçirilməsi üçün yeni məkan istifadəyə verilməklə yarışlar təşkil olunmuşdur. İdman zalı da yeni avadanlıqlarla təmin edilmişdir.

Mirsaleh Seyidovun Penitensiar xidmətin rəisi vəzifəsinə təyin edilməsindən sonra aparılan islahatlar məhkum ailələrindən də yan keçməmişdir. Onları narahat edən məsələlərin operativ həll edilməsi üçün qaynar xətt (889) yaradılmışdır. Qısa və uzun müddətli görüş otaqları yenidən qurulmaqla sahələri genişləndirilmiş, oradakı şərait səviyyəsi xeyli artırılmışdır ki, bu da məhkum ailələri tərəfindən sevinclə, minnətdarlıqla qarşılanmışdır.



Cəza çəkdiyim 10 il ərzində ilk dəfədir şahidi oluram ki, müəssisələrarası şahmat turniri keçirilməkdədir. Bu nümunəvi addım məhkumların islah stimuluna xeyli təkan vermiş, onlarda böyük maraq doğurmuşdur. Əminəm ki, bu ənənə gələcəkdə də davam etdiriləcəkdir.

**Dövlətimizin başçısının və birinci vitse-prezident Mehriban Əliyevanın böyük diqqət və qayğısının nəticəsi kimi Penitensiar xidmətdə aparılan islahatlar məhkumların və onların ailələri tərəfindən gündəlik həyatlarında hiss olunmaqdadır. Bu yeniliklər məhkumların islah olunması və cəmiyyətə uğurla inteqrasiya edilməsi üçün geniş və hərtərəfli şərait formalaşdırır. Həyat stimullarını sağlamlaşdırır və daha böyük nailiyyətlərə fokslandırır.**

**Hörmətlə:**
**Rəhimov Rauf Rauf oğlu**
**9 saylı cəzaçəkmə müəssisəsinin müəssisə kollektiv şurasının sədri, məhkum**

# Ostinin xəstəliyi niyə gizli saxlanılıb?

**Pentaqonun rəhbərində xərçəng xəstəliyi aşkarlanıb və onun xıstəxanaya yerləşdirilməsi 5-6 gün hamıdan gizli saxlanılıb. ABŞ Konqressi bununla bağlı araşdırmalara başlayıb.**

Aparılan diaqnostik əməliyyatların nəticələrinə görə, 70 yaşlı Lloyd Ostində prostat xərçəngi aşkarlanıb. Bu barədə Uolter Rid Mill hərbi-tibb mərkəzinin nümayəndələri məlumat verib.

Tibb işçiləri, aşkar olunan xəstəliyin hələ ilkin mərhələdə olduğunu bildiriblər. "Xəstəliyin sağalmaq etimalı əladır"-deyə həkimlər bildirib.

Pentaqonun rəhbəri yanvar ayının 1-dən xəstəxanaya yerləşdirilsə də, bununla bağlı məlumat gizli saxlanılıb və hərbi nazirlik yalnız yanvarın 6-da Ostinin xəstəxanaya yerləşdirildiyi barədə məlumat yayıb. Politico bildirir ki, hətta prezident administrasiyası da, yalnız 3 gün sonra hərbi nazirin xəstəliyi ilə bağlı məlumat alıb.

Uolter Rid milli hərbi-tibb müəssisəsindən bildirilib ki, Ostin dekabr ayının sonlarında prostat problemləri ilə bağlı kiçik tibbi əməliyyat keçirib və səhərisi gün xəstəxanadan evə buraxılıb. Lakin sonradan vəziyyəti ağırlaşdığı üçün yenidən xəstəxanaya yerləşdirilib.

Bloomberg agentliyinin məlumatına görə, Lloyd Ostinin xəstəxanaya yerləşdirilməsi ilə bağlı məlumatın hakimiyyətdən gizli saxlanılması ciddi qalmaqala səbəb olub. Qeyd olunur ki, bu epizod ABŞ prezidenti Co Baydenə ciddi çağırış kimi qiymətləndirilə bilər. Bu hərəkət "ABŞ hərbi maşınının yüksək komandanlığında funksiyaların pozulmasına gətirib çıxara bilər".

İnsident Demokratlar partiyasından olan konqressmenlərin də narazılığına səbəb olub. Pentaqonun rəsmi nümayəndəsi Patrik Reyder, müdafiə nazirinin xəstəliyinin "sırf şəxsi" məsələ olduğu üçün gizli saxlanıldığını və bu ərəfədə onun səlahiyyətlərini müavini Ketrin Xiksin apardığını bildirsə də, konqresmenlər bununla razılamır.

Ağ Evin milli təhlükəsizlik strateji kommunikasiyalar üzrə kordinatoru Con Kirbi bildirib ki, Ostinin xıstəxanaya yerləşdirilməsi ilə bağlı prezidentə vaxtında məlumat verilməməsinə baxmayaraq, Co Bayden müdafiə nazirinə inamını saxlamaqdadır.

Bununla yanaşı ABŞ Konqressinin nümayəndələr palatasının hərbi qüvvələr məsələsi üzrə komitəsi, Pentaqon rəhbərinin xəstəxanaya yerləşdirilməsi məlumatının gizli saxlanılması ilə bağlı araşdırmalara başlayıb. Komitə rəhbəri Mayk Rocers Ostindən yaxın günlərdə qospitala yerləşdirilməsi, səlahiyyətlərin müavinə ötürülməsi ilə bağlı verilən əmrlər, 1-9 yanvar ayı ərzində Ağ Ev administrasiyası ilə aparılan yazışmalar barədə məlumat verməsini tələb edib.

**"Pentaqon bizim düşmənlərimizdən qorunmaq üçün etibarlı idarəmiz olmaq fuksiyasını həyata keçirməlidir. Bu idarə nazirin xəstəliyi ilə bağlı vəzifəsini müvəqqəti icra edə bilməməsini gizli saxlamaq üçün deyil"- deyə Mayk Rocers bəyan edib.**

**Rüstəm Hacıyev**



**Faiq QİSMƏTOĞLU**
**faiqqismetoglu@box.az**

# O səslərdən bir də...

**Elə səslər var ki, Allahın dərgahından gəlir və o səslər tək ürəkləri deyil, həm də yeri, göyü titrədir!**

**Və o səslər milyon il əvvəl, milyon il sonra da təravətini, şirinliyini itirmir...**

**Əgər itirsəydi, o səslər milyon il insanların ürəyində iz qoymazdı! O səslərin sahiblərindən bir neçəsinin adını və soyadını xatırlamaq istəyirik: Rəşid Behbudovu xatırlamaq istəyirik... İslam Rzayevi xatırlamaq istəyirik... Flora Kərimovanı xatırlamaq istəyirik... Və ən nəhayət Aygün Bəyləri xatırlamaq istəyirik...**

**Bu dahi sənətkarların səsi adi səs deyil! Bu, ağ səsdi! Və bu ağ səs də milyonlarla insanın ürəyini fəth edib, bundan sonra da fəth edəcək! Çünki o səslərdən bir də olmayacaq!!!**

# Baneri, heykəli, büstü yandırılan Süleymaninin «ruhunun qəzəbi»



**Yanvar əvvəlində İranın Kirman şəhərində general Qasım Süleymaninin öldürülməsinin ildönümünü qeyd etmək üçün yürüş keçirilib.**

Adalet.az xəbər verir ki, mərasim zamanı iki partlayış baş verib. Partlayışlar general Qasım Süleymaninin dördüncü ildönümünü qeyd etmək üçün keçirilən yürüş zamanı - qəbiristanlığa aparan yolda olub.

İran mediasının məlumatına görə, partlayışlarda ölənlərin sayı 103-ə, yaralananların sayı isə 170-ə çatıb.

Bu Qasım Süleymaninin əlləri kimlərin qanına batıbsa, çox ağırlıqla ödəyir. Deməli, 2022-ci ilin 5 yanvarında İranın Kordşəhr bölgəsində hökumət rəsmiləri İraqda öldürülən SEPAH generalı Qasım Suleymaninin heykəlini ucaltdılar. "Azad İran" "Telegram" kanalı xəbər verdi ki, dünən axşam saatlarında şəhərin gənc fəalları heykələ od vuraraq onu yandırıblar. 2022-ci ilin noyabrında Süleymaninin heykəli Tehran şəhər parkında yandırıldı.

2023 -cü il- bu ilin martında Məşhəd şəhərinin Şahnamə bulvarında Qasım Süleymaninin banerinə azadlıqsevərlər tərəfindən od vuruldu, oktyabrında isə onun Kərəc şəhərində quraşdırılmış başqa bir bannerinə etirazçı gənclər tərəfindən od vuruldu. Ümumiyyətlə, İran mediasının verdiyi məlumatlara görə Qasım Süleymaniyə aid olan onlarla xatirə lövhəsi, heykəl, büst və bu tip quraşdırılmış məlumat lövhələri yandırılıb.

***P.S.** Deyəsən, Süleymaninin ruhu özündən qəzəblidir. O da, əlinə keçən fürsətdən istifadə edib, anım gününə gələn 103 nəfərə qəbir qazıb, 170 nəfəri də xəstəxanalıq edib.*

**Əntiqə Rəşid**

# Peskov Putinin seçki proqramından danışdı



**Rusiya prezidenti Vladimir Putinin seçki proqramı vaxtında dərc olunacaq.**

Adalet.az xəbər verir ki, bu barədə dövlət başçısının mətbuat katibi Dmitri Peskov bildirib. Kreml sözçüsü seçki proqramının tezliklə hazır olub-olmayacağı və bunun vahid sənəd olub-olmayacağı sualına belə cavab verib: "O, qanunla müəyyən edilmiş müddət ərzində dərc edilməlidir. Bu, Putinin seçki qərargahının mövzusudur". Rusiyada prezident seçkiləri 2024-cü il martın 15-17-də keçiriləcək.

# Yeraltı və yerüstü keçidlər kimin üçündür?



**Aydındır ki, böyük şəhərlərdə piyadaların təhlükəsizliyini təmin etmək üçün yeraltı və yerüstü keçidlər fəaliyyət göstərir.**

Bu mənada da Bakıda çoxlu sayda yeraltı və yerüstü piyada keçidləri istifadəyə verilib. Bəs bu keçidlərdən piyadalar necə istifadə edirlər? Təbii ki, bu suala birmənalı cavab vermək mümkün deyildir.

Təsadüfi deyil ki, Bakıda baş vermiş ölümlə nəticələnin qəzaların 50 faizindən çoxu piyadavurma halları ilə bağlıdır. Hadisələrin çoxluğu istər-istəməz yol polisini də narahat edir. Bircə narahat olmayan piyadalardır.

Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis kapitanı Toğrul Nəsirli bildirir ki, piyadavurma hadisələrinin çoxalması elə öncə yol polisini narahat edir. Bunu görə də idarəmiz tərəfindən bu məqsədlə qabaqlayıcı tədbirlər həyata keçirilir. Mütəmadi olaraq əməkdaşlarımız hadisələrin baş verə biləcəyi yerlərdə xidmət aparır, piyadalarla maarifləndirici söhbətlər edirlər.

Profilaktik tədbirlər zamanı təyin olunmamış yerdən keçən piyadalar 20 manat məbləğində cərimə olunurlar. Xəstə, əlillik dərəcəsi olan piyadalar yol polisi tərəfindən şərait yaradılır ki, onlar yolu təhlükəsiz keçsinlər. Hər bir piyada yol hərəkəti qaydalarına əməl etməli, yol polisinin tövsiyələrini dinləməlidir.

Bax onda piyadavurma halları da artmaz! Bir daha piyadalardan xahiş edirik ki, günün qaranlıq və yağışlı vaxtında diqqətli olsunlar, yolu təyin edilmiş yerlərdən keçsinlər!

# Almaları alan yoxdur

**Bu gün bazar dükanlarda nə qədər desən alma var, amma çox baha qiymətə.**

Çünki bu məhsulu satanların çoxu o meyvəni becərməyən və əziyyətini çəkməyənlərdir. Elə ən çox da xeyir onlar görürlər. Burada ataların bir deyimi yada d?şür:"Nə yoğurdu, nə bişirdi, amma hazırca kökə tapdı. Almanı becərən, yetişdirən adamlar qalır kölkəxə, ancaq bir başqaları qaz vurub, qazan doldurur. Bu da istər-istəməz haqlı narazılıq yaradır, bazarlarda bahalığa təkan verir.



Çünki əsl fermer öz məhsulunu bazara çıxara bilmir, çıxarsa da alverçilər onu elə günə qoyur ki, həmin adam almanı qəpik-quruşa satır. Bu pul da onun heç yanacağına çatmır. Və evinə çörəkpulu apara bilmir.

Qubadan olan Əjdər qardaşımız deyir ki, neçə ton meyvəsi evdə qalıb alan yoxdur. Kiloqramına heç 30 qəpik də verən yoxdur. Bax elə olanda bazarda bu almaları 1 manat, 1 manat 50 qəpiyə satırlar. Amma gəlib həyətimizdən 50 qəpiyə almırlar.Ona görə də mənim kimi adamların çoxu meyvə bağlarını məhv edirlər. Çünki onun xeyirini biz yox, alverçilər görürlər. Bax belə vəziyyətdə əziyyət çəkən qalırkənarda, kefi başqaları görür!

# Yol kimindir?



**Bir çox sürücülər var yol hərəkəti qaydalarına əməl etmir, digər nəqliyyat vasitələri üçün təhlükə törədirlər.**

Məsələn bu gün, yanvarın 7-də Yeni Günəşlidə "şir" heykəlinin yanındakı dairədə " Nissan" markalı avtomobilin sürücüsü 50 nömrəli marşrutda işləyən avtobusa yola vermədi.

Hansı ki, həmin yolda üstünlük avtobusda idi. Və bir anlıq qəza vəziyyəti yarandı. Bundansa ən çox avtobusdakı sərnişinlər narahat oldular. Sadəcə olaraq sürücünün peşəkarlığı nəticəsində təhlükə sovuşdu.

Çox təəssüf ki, bəzi sürücülər ya bilərəkdən ,ya da bilməyərəkdən yol hərəkəti qaydalarını pozursa, bu, bütün hərəkət iştirakçıları üçün həyəcanlı anlar yaşadır. Ona görə də üstünlük kimdədirsə, ona da bütün sürücülər yol verməlidirlər!

# Hamı yerli mal alsın...



**Bir vaxtlar belə bir deviz vardı:" Hamı yerli mal alsın, xeyir Vətənə qalsın!" Belə baxanda lap yaxşı devizdir, bunun nəyi pisdir?**

Sadəcə olaraq biz bazar- dükana gedəndə ilk baxısdan gözümüz iri, diqqəti cəlb edən meyvələrə sataşır. Amma bu iri, gözəl və diqqəti cəlb edən meyvələr bir o qədər də dadlı və keyfiyyətli deyil .

Mütəxəssislər də dəfələrlə deyiblər ki, yerli meyvələrimiz xaricdən gətirilənlərdən qat-qat dadlıdır.

Onun görə də çoxlarımız Gədəbəyin kartofunu, Goyçayın narını, Xaçmazın pomoidorunu, Lənkəran-Astara bölkəsinin limonunu, portağalını, naringisini axtarırıq. Bizim çürük heyvamız, almamız, armudumuz xaricdən gətirilib satılan meyvələrdən min dəfə dadlı və ucuzdur! Elə buna görə də gəlin öz yeri meyvələrimiz alaq və onu satanları sevindirək!

# Bayram günlərində...



**Bayram günləri heç də ölkəmizdə qəzasız ötüşmədi.**

Belə ki, bu müddətdə pespublikamızın avtomobil yollarında ağır qəzalar baş verib.Və yol-nəqliyyat hadisələri zamanı 8 nəfər ölüb, 20 nəfər isə müxtəlif dərəcəli bədən xəsarətləri alıb.

Hansı ki, hələ bayram günlərindən öncə yol polisi sürücüləri xəbərdar etmişdi ki, qaydalar əməl etsinlər, sürət həddini aşmasınlar. Görünür, bu xəbərdarlıqlara əməl etməyənlər də olub, yoxsa, belə ağır qəzalar olmazdı.

Baş Dövlət Yol Polisi İdarəsinin ictimaiyyətlə əlaqələr şöbəsinin əməkdaşı, polis leytenantı Elvin Hacıyev baş vermiş qəzalarla bağlı yol polisinin çox narahat olduğunu bildirdi.

O dedi ki, biz həmişə bayramqabağı sür?cülərə xəbərdarlıq edir, öz tövsiyələrimizi bildiririk.

Təbii ki, əsgər sürücülər dediklərimizə əməl edirlər, amma tövsiyələrimizi qulaqardına vuranlar, görünür, bu ölümlə nəticələnən qəzaları törədirlər. Davamlı olaraq yol polisi maarifləndirmə işləri aparır və qabaqlayıcı profilaktik tədbirlər görür. Bax bunlar baş verə biləcək qəzalaın böyük bir hissəsinin qarşısını alır!

# Avtobuslar ləngiyir

**Dünəndən ölkə ərazisində havalar soyuyub.**

Yanvarın 10- dansa Bakıya qar yağır. İlk qarın yağması uşaqları sevindirsə də , amma böyüklərin qanını qaraldır. Ona görə ki, işıqlar, tez-tez sönür, qaz zəif gəlir, avtobuslar dayanacağa gec çatır.

Yeni Günəşli sakini Həsən Məmmədov deyir ki, bu istiqamətdə sərnişin dasıyan 50 nömrəli marşrutdakı avtobuslar dayanacağa vaxtında çatmır. Adı günlər də dayanacağa beş dəqiqədə çatan avtobus qar yağanda 15 dəqiqədən sonra çatdı. Avtobusa minəndə gördük ki, salon çox



soyuqdu. Bax biz həmişə soyuq havalarda belə çətinliklərlə üzləşirik.

**Bu marşrutdan şikayət edirik, amma mövcud problemləri nə sahibkar, nə də əlaqədar qurumlar həll etmir ki, bizim canımız dincəlsin!**

**EMİL FAİQOĞLU**

# Səhiyyə Nazirliyi qızılca ilə bağlı növbəti dəfə əhaliyə çağırış edib

**2023-cü ilin sonlarından başlayan və hazırda davam edən qızılca xəstəliyinin yerli yayılması ilə əlaqədar ölkə ərazisində əks-epidemik və profilaktik tədbirlərin aparılması davam etdirilir.**

Adalet.az xəbər verir ki, bununla bağlı Səhiyyə Nazirliyi əhaliyə çağırış ünvanlayıb.

Nazirlik qeyd edib ki, yaranmış epidemioloji vəziyyətin təhlilinə əsasən, azyaşlı uşaqlarla yanaşı, həmçinin 10 yaşından yuxarı uşaqlar və böyüklər arasında da yoluxma halları baş verir. Bunu da qeyd etmək lazımdır ki, yoluxanların, demək olar ki, hamısı qızılcaya qarşı heç vaxt peyvənd olunmayan və xəstəliyi keçirməyən şəxslərdir. İnfeksiyanın yerli yayılmasının, xəstəlikdən ağırlaşma və ölüm hallarının qarşısının alınması üçün 10 yaşa qədər uşaqların ölkədə qüvvədə olan Profilaktik peyvəndlər təqviminə əsasən vaksinasiyası ilə yanaşı, qızılcaya həssas 11-40 yaşlı əhali qruplarının da peyvənd olunmasının vacibliyini nəzərə alaraq, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi vaksin preparatlarının alınıb ölkəyə gətirilməsini təşkil edib.

Yüksək yoluxuculuq qabiliyyətinə malik qızılca infeksiyasından qorunmağın ən effektiv yolunun vaksinasiya olduğunu nəzərə alaraq, Səhiyyə Nazirliyi əhaliyə bir daha müraciət edir və qeyd olunan həssas əhali qruplarını qızılca infeksiyasına qarşı peyvənd olunmağa çağırır.

**Vaksinasiya üçün yaşayış yerləri üzrə uşaq və böyük əhalisinə ambulator-poliklinik xidmət göstərən tibb müəssisələrinə müraciət oluna bilər.**

# Müstəqilliyimizin memarı

**Müstəqil Azərbaycanın qurucusu, dahi rəhbər, xalqımızı ən ağır sınaqlardan siyasi müdrüklük əzm və iradə, dühə və idrakının yenilməz gücü ilə çıxarmış Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə bütün respublikada olduğu kimi Cəbrayıl rayon Milli Qəhrəman Kazım Məmmədov adına Böyük Mərcanlı kənd tam orta məktəbdə Ümummilli Liderin anadan olmasının 100 illiyinə həsr olunmuş Müstəqilliyimizin Memarı” adlı tədbir keçirilib.**

Tədbir Dövlət Himnin səsləndirilməsi və Ulu Öndərin əziz xatirəsinin 1 dəqiqəlik sükutla yad edilməsi ilə başladı. Aparıcılar sözü məktəbin direktoruna verdilər. Nuriyyə xanım Ağayeva iştirakçıları salamlayaraq Ulu Öndərin xatirəsinin nəsillərin yaddaşında hər zaman yaşadığını, Ümummilli Liderin zəngin irsinin şagirdlər arasında təbliğinin mühüm əhəmiyyət daşıdığını diqqətə çatdırdı. N. Ağayeva bildirdi ki, rəhbəri olduğu məktəbdə ölkənin ictimai- siyasi, mədəni həyatında baş verən hadisələrə həsr olunan tədbirlər mütəmadi olaraq keçirilir. Ulu öndər Heydər Əliyevin 100 illk yubuleyinə həsr olunan tədbirlər də yüksək səviyyədə təşkil olunub.



Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə 2023-cü il ”Heydər Əliyev ili” elan edilmişdir. Və bu il çərçivəsində biz mütəmadi olaraq il ərzində müxtəlif tədbirlər, müsabiqələr, yarışlar keçirmişik. Və bu gün həmin tədbirlər silsiləsinin yekunudur. Bizim bugünkü tədbirimizdə əziz qonaqlarımızdanMilli Qəhrəman Kazım Məmmədovun anası Dursun Balakişiyeva, bacısı Şamama Məmmədova, tarixçi alim Vaqif Rüstəmov, Tarix Diyarşünaslıq muzeyinin elmi-kütləvi şöbənin müdiri Bətura Şirinli, Cəbrayıl rayon Təhsil sektorunun müdiri Zamiq Qurbanov, sektorun əməkdaşları Alim Babayev, Habil Əliyev, məktəbimizin fəxri müəllimi Məhəmmədəli Şükrəliyev iştirak edir. Direktor çıxış üçün ilk sözü şəhidin anası Dursun xanıma verdi. Dursun xanım övladı Kazımın təhsil aldığı məktəbi doğma evi hesab etdiyini, Nuriyyə xanımın böyük diqqət göstərərək, məktəbdə keçirilən bütün tədbirlərə onu dəvət etdiyini bildirdi və əlavə etdi ki, oğlu üçün düzəltdirdiyi heykəli doğma yurdu Cəbrayıla aparacaq. Direktor növbəti qonağı təqdim edərək bildirdi ki, tarixçi alim Vaqif Rüstəmov tariximiz haqqında müxtəlif tədqiqatları ilə yadda qalan əsərlər yaradıb. Vaqif müəllim çıxışında qeyd etdi ki, Ümummilli lider H.Əliyev həmişə xalqımızın tarixi, milli-mənəvi dəyərlərin qorunmasına milli mədəniyyətimizin inki-



şafına çalışıb. Ulu Öndər Prezident olduğu dövrdə tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun xalqa mənəvi bağlılığının parlaq nümunəsidir. Tarixçi alimin çıxışından sonra söz məktəbin fəxri müəllimi Məhəmmədəli Şükrəliyevə verdi.

Məhəmmədəli müəllim qeyd etdi ki, ölkəmizdə H.Əliyev ili elan olunması dahi rəhbərə olan ümumxalq sevgisinin təcəssümü, xalqımız və dövlətçiliyimiz qarşısındakı misilsiz xidmətləri ilə çoxəsirlik tariximizin ən parlaq səhifələrini yazan Ulu Öndərə böyük ehtiramının göstəricisidir. Tədbirin təşkilatçısı Səidə xanım Quliyevanın ssenarisi əsasında hazırlanmış bədii hissənin nümayişi başlandı. Aparıcılar-Pünhan və Züleyxa Heydər Əliyevin öz xalqına, vətəninə, sonsuz sədaqəti, məhəbbəti, uzaqgörənliyi, xeyirxahlığı, düşünülmüş və gərgin fəaliyyəti ilə Azərbaycanın 20-ci əsr ictimai- siyasi, iqtisadi, mədəni, mənəvi həyatında yeni bir tarix yaratdığını qeyd etdilər.

Ulu Öndərin anadan olmasının 100 illiyi münasibətilə keçirilən bədii tədbirin iştirakçılarını səhnəyə dəvət etdilər.

Çinarə, Əntiqə, Züleyxa, Cəvahir, Aynur, Pünhan, Səlim, Fatimə Sara, Elmira, Ömər, Fidan, Aysel, Sevinc, Fatimə, Rüqəyya, Məhruzə, Elmin, İlkin, Hüseyn, Mehrab ”Xudayar təsnifini”, ”Azərbaycan oğluyam”, ”Xalq Heydər”, ”Qarabağ”, şeirlər, rəqslər səhnəciklər Şagirdlərin hazırladıqları bədii kompazisiya Azərbaycanın dövlətçilik tarixində rol oynamış qədim dövlətləri, onların hökmdarları və dövlət atributlarını əks etdirən nümayişi məni çox duyğulandırdı. Leyla Bayramovanın yetirmələri, ”Xarı Bülbül”ün libasına bürünmüş balaca rəqqasələrin isə möhtəşəm çıxışları sürəkli alqışlarla qarşılandı”.

Aparıcılar bildirdi ki, İntibah və milli şüurun oyanışı Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksəlib: -Onun şəxsi həyatı, uşaqlıq və gənclik illəri, ömrünün bütün dövrləri gərgin zəhmətlə keçib. Əlbəttə, Heydər Əliyev öz xalqına, vətəninə sonsuz sədaqəti, məhəbbəti, düşünülmüş və gərgin fəaliyyəti ilə AzərbaycanınXX əsr ictimai- siyasi, iqtisadi, mədəni, mənəvi həyatında yeni bir tarix yaratmışdır.

Əgər Ulu Öndərin əsrin 70-80-ci illərində qurub- yaratdığı, inkişaf etdirdıyi Azərbaycan olmasaydı, bu günümüzün mühüm nailiyyətlərindən danışmaq çətin olardı.

***Yurdumuzun üstündən,***
***Qovdun qara kölgəni.***
***Məhv olmaqdan qorudun***
***Xilas etdin ölkəni***
***Bir işıq doğdu yurda,***
***O vətənə gələndə,***
***Səs verdi millətinə,***
***Söz verdi millətinə.***

Aparıcılar Heydər Əliyevin özünün də qeyd etdiyi kimi, həmişə müstəqil Azərbaycanımızın əbədiyaşar lideri olaraq qalacağını, 31dekabr Dünya Azərbaycanlılarının Həmrəylik gününün təsis edilməsinin məhz Ulu Öndərin adı ilə bağlı olduğunu deyərək hamını bayram münasibətilə təbrik etdilər. Çıxış üçün son söz Cəbrayıl rayon Təhsil sektorunun müdiri Zamiq Qurbanova verildi:

”Əziz balalar, bu günün qəhrəmanları, çox hörmətli pedaqoji kollektiv, müqəddəs şəhid anamız və bütün qonaqlar, hər birinizi salamlayıram. Şagirdlərin böyük ürəklə, sevgi ilə etdikləri təqdimatları, tədbirə hazırlıqları, onların həyəcanları, kövrək addımları məni qürurlandırdı. Onların qəlbində sonsuz Vətən, torpaq, millət eşqi, sevgisi var.

Dünya durduqca Azərbaycanımız günü gündən çiçəklənəcək, zirvələrə, zəfərlərə daha böyük naliyyətlərə imza atacaq. Ümummilli Lider Azərbaycan xalqının böyük oğlu Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşüb. Müstəsna xidmətləri ilə əbədilik qazanan H.Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi hər birimiz, xüsusilə gənc nəsl üçün tükənməz ibrət məktəbidir”.

**Sonda Zamiq Qurbanov və Nuriyyə Ağayeva müsabiqə qalibləri olan Züleyxa, Cəvahir, Aynur, Pünhan, Səlim, Fatimə, Sara, Elmira, Ömər, Fidan və Ayseli Fəxri Fərmanla təltif etdilər.**

**Hüsniyyə Əlizadə**

**Sübhan Mahmudov**



# Qarabağa qayıdan ailənin Bakıdakı son günü

**Dostumun evindəyəm. Onlar yır-yığış eləyirlər. Bu gün, ya sabah Qarabağa, Füzuliyə, öz evlərinə qayıdacaqlar. Anası xudmani bir süfrə açıb. Gedən-gələnin ardı-arası kəsilmir. Həyətdə it hürür. Külək pəncərələri silkələyir. Qapı açılır. Kimsə, olsun ki, onların qohumlarından biri əllərini açıb dostumun atası ilə görüşür. Atası kövrəkdir, arada bir gözləri yaşla dolur. Gizlətməyə çalışır, üzünü biz olmayan tərəfə tutur. Ancaq göz yaşlarını gizlədə bilmir. Yanaqlarına axan göz yaşlarının izi görünür.**

**Dostumun bacısı da nişan kəsib. Bu gün, ya da sabah köçəsidir. Ev əhli bir yandan da bu xoşbəxt günün qayğısını çəkir. Toy gününə hazırlaşırlar. Dəvətnamə yazırlar. Biz dostumla həyətdə durub siqaret çəkirik. Qıraq, kənar yerdə. Dostum öz kəndlərini görməyib. O, anasının bətnində olanda kəndə hücum olub. Qaça-qaçda anası ilə kamazda gediblər. Dostumun yadında ancaq səslər qalıb. Gülə-gülə danışır. Deyir, kamazın iri daşlara dəydiyini eşidirdim. İnanıram ona. Yalan demir. Doğrudan da, o facİə gününün səslərini eşitdiyinə sidq-ürəkdən inanıram. Siqaretlərimizi atırıq. Həyətdəki it özünü yırtır. Yenə gələn var.**



**- Bıyy bacı, xoş gəldiniz!**

**- Ay dayı, keçin də! İçəriyə keçin! Soyuqdur.**

**- Ayaqqabılı girin elə. Onsuz gedirik də.**

**Ayaqqabılara baxıram. Bəlkə də, bu evdə heç vaxt bu qədər ayaqqabı olmayıb. Dostumla uşaqlıqdan tanışıq. Bir yerdə oxumuşuq. Hamını iş-güc, uzaq şəhərlər ayırdı. Amma biz dostumla eyni səmtdə yaşadığımız üçün heç vaxt ayrı düşmədik. O, elə mənim sinif yoldaşım kimi qalıb. Hələ də eyni zarafatları edir. Ciddi olanda da məktəb vaxtındakı ciddiliyi yadıma düşür. Sanki ciddilik ona yad bir xüsusiyyətdir. Özünü gülməmək üçün məcbur tutub saxlayanlar kimi o da ciddiyyətini güc-bəla üzünə yerləşdirir. Evin babası Füzulidən danışır. Dağlardan, dərələrdən, çaylardan. Qaçaqaçda inəkləri tövlədə qalıbmış. Baba o inəyi orada qoyduqları üçün peşman olduğunu deyir. Dostum zarafat edir:**

**- Baba, inək gedən deyil. Narahat olma.**

**- Bəsdi görək, ə. - baba ona çəmkirir.**

**Həqiqətən, o inəyə nə oldu, görəsən? İnəyi erməni əsgərləri aparıb kəsdilərmi? Ya aparıb saxladılarmı?**

**- Baba, evimizi tapa biləcəksən? - dostum soruşur.**

**- Ə, niyə tapmıram? - baba əsəbiləşir - Uşaqlıqdan o evdə böyüməmişəm? Elə o saat da tapacam.**

**Nəvəsi ona irişir:**

**- Baba, sən buradakı evimizi gücnən tapırsan. Onu necə tapacaqsan?**

**Baba heç nə demir, əlindəki əsanın iti yerini nəvəsinə vurur. Yaxşı ki dostum tez tərpənir, qaçır zərbədən. Həyətdə yenə it hürür. İçəri külək dolur. Çoxlu uşaq girir evə. Hərəsi bir tərəfdə mısıb durur. Dostumun atası bu uşaqları bir-bir öpür, ovuclarına konfet qoyur. Uşaqlar əllərindəki konfetlərə baxıb susurlar. Bayırdakı it yenə hürür. Dostumun anası gələnlərə çay süzür. Çayın ətri evə dolur. Televizorda müharibə filmi göstərirlər. Baba elə bil içəridə heç kim yoxmuş kimi televizora baxır.**

**Dostumun evindəyəm. Onlar Füzulidəndilər. Bu günə, ya sabaha qayıdacaqlar. Evin əşyaları yığılıb bir qıraqda gözləyir. Güldanlar, kitablar, pal-paltarlar, televizor, tozsoran... Köç başlayacaq. İllər əvvəl kamazda getmişdilər. Dedim axı, dostum onda anasının bətnində idi. O biri uşaqlar isə hələ doğulmamışdı. Evin içərisində yaman adam var. Qonşudan stul gətirir dostumun qardaşı. O da Füzulini görməyib. İki stulu qoluna keçirib gətirir. Üzü gülür. İçəridəkilərin hamısı səs-küylə gülürlər. Çöldəki it hürür. Yenə kimlərsə gəlir. Əllərində mer-meyvə var. Baba müharibədən bəhs edən filmə baxır. Yox, indi fikir verdim, baxmır, yuxulayır.**

**- Baba, baba - nəvəsi onu dümsükləyir.**

**- Dur, dur.**

**- Nə oldu? Çatdıq? - baba soruşur. - Füzulidəyik?**

**Hamı gülür. Hətta bu gülüş o qədər uzanır ki, mənə elə gəlir, Füzulidəki dağlar da gülüş səslərini eşidiblər.**

**Onlar qayıdırlar. Öz torpaqlarına, doğulduqları yerə qayıdırlar. Qayıtmaqların ən gözəlini yaşayırlar. Evdə qayıdış söhbəti gedir. Hərə edəcəyi işi götür-qoy edir. Gələcək planlarından danışır. Evləri düzəltməkdən, iş qurmaqdan və s. O ağac qalıbmı? O çayxana necədir? O dağlar? Dağlar durur. Evlər yoxdur. Ancaq evlər də olacaq. Hər şey təzədən sehrli çubuqla öz əvvəlki nağıl dünyasına qayıdacaq. Dostum babasını təzədən dümsükləyir. Sən demə, baba yenə yuxuya gedibmiş. Hamı bu mənzərəyə baxır.**

**- Baba, dur, baba!**

**- Nolub, ə?**

**- Füzulidəyik.**

**Hamı gülür yenə. Bu dəfə elə bil qapıda hürən it də gülür. İçəri onları Füzuliyə aparan taksi şoferi girir. O da qohumdur. Hamını salamlayır. Sabah gedirlər, ya o biri gün. Nə fərqi var. Taksi şoferi hər vaxt qulluğunuzda hazıram deyir. Onsuz, o da gedəcək. Bu dəfə vita maşınla gedəcəklər. Dostum pəncərə yanında oturmaq istəyir. Hamı pəncərə yanında oturmaq istəyir, əslində. Mübahisə düşür. Sonra gülüşürlər. Hamı birinci görmək istəyir Füzulini, kəndini. Babanın səsi gəlir bu vaxt:**

**- Noldu, ə? Niyə dümsükləmirsiniz? Bayaqdan elə hey gedirik, oyadan yoxdur? Çatmadıq evimizə?**

**Çatdıq, baba. Evdəyik. Düzdü, ermənilər bu evi tanınmaz hala gətiriblər. Ancaq sən tanıyacaqsan. Evin həndəvərindəki daşlardan, ağaclardan, otlardan tanıyacaqsan. Mütləq tanıyacaqsan. Çünki evi dağıtmaq olar. Ancaq evi öldürmək olmur. Ev həmişə oradadır. Dağıntı kimi də olsa, dəbdəbəli vəziyyətdə olsa da. Ev həmişə öz yerindədir.**

**Onlar qayıdırlar. 30 ildir görmədikləri evlərinə. Evlərinin həyətinə. Məhəllələrinə. Küçələrinə. Rayonlarına. Qarabağa. Əvvəl bunu desəydin, heç kim inanmazdı. Gülərdi. Romanlarda yazılırdı. İnanmırdılar. Filmdə çəkildi. İnanmadılar. Axırı düz çıxdı. Nağıl gerçək oldu.**

**Mən onların sevincinə qoşulmaq, onlarla bir yerdə getmək istəyirəm. Çünki mən də oraları görməmişəm. Bunu deyəndə hamı kövrəlir bu vaxt. Qadınlar şallarının ucu ilə göz yaşlarını silirlər. Dostumun atası da ağlayır. İndi isə göz yaşlarını gizlətmir. Çünki o göz yaşlarının arxasında gülüş də var. Gülə-gülə ağlayır. Bəlkə, elə qayıtmaq da budur? Gülə-gülə ağlamaq...**



Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

# PƏRƏN DÜŞƏN FİKİRLƏRİN KÖLGƏSİNDƏ...

## Ürəyimdəkiləri kağıza köçürmək cəhdi

İllərin axarında əlimi günlük edib baxıram. Və baxa-baxa da düşünürəm. Arxada qalan bu illər mənə, çevrəmə nələr verdi və məndən, çevrəmdən nələr aldı. Əslində həm də mənim özümlə etdiyim sorğu-sualdı. Bu sorğu-sualın ikinci iştirakçısı da illər, yəni zamandı.

Bax, bu zamanın məhəng daşı o qədər ağır, həm də dürüstdür ki, onu sallaşıb, çəkib nə əymək mümkündü, nə də nizamını pozmaq. Deməli, elə mizan-tərəzi anlayışı da heç təsadüfi deyilmiş. Onun da canında-qanında bax elə həmin o zaman daşının hökmü varıymış. Mən də həmin o hökmün qarşısında susmağa çalışıram. Çünki başqa bir addımı atmağa, müqavimət göstərməyə nə gücüm yoxdu, nə də o güc olsa belə axına qarşı üzmək divara baş vurmaqdı. Bunu bir az da çılpaqlasam, deyə bilərəm ki, lap iynə ucu boyda ağlı olan kəs də başını divara vurmaz. Təbii ki, dəlidən və intihar etmək istəyəndən başqa...

Hə, söhbət dəlilikdən düşmüşkən... Bununla bağlı mənim dünya görüşüm Məcnun sayaqdı. Ona görə də hərdən özümü lap Məcnundan da Məcnun sayıram. Şair demişkən, özümü yeni əsrin Məcnunu kimi hiss edirəm.

Və bu məcnunluğu da vurğulamaqda məqsədim odur ki, dəliliklə məcnunluğun kökündəki eyniliklə fərqliliyin barəsində imkan olduqca birlikdə düşünək. Məncə düşünmək heç vaxt gec də deyil, ziyanlı da deyil.

Əksinə, düşündükcə, qarşında yeni çalarlar, yeni mənzərələr açılır. Həmin mənzərələrin də özünün ifadəsi, özünün təqdimatı adamın ruhunu da çəkir, ürəyini də çəkir. Bir də görürsən ki, nə qədər yeniliklə üz-üzəsən, baş-başasan. Və...

Bəli, bütün bu dediklərim təbii ki, zamanın içərisində əriyən ömrün özünün daxilində baş verir. Bunu bir sən bilirsən, bir Allahın bir də səni dəli edən, Məcnuna çevirən. Doğrudur, belə bir fikir var ki, iki adamın bildiyi heç vaxt sirr olmur. Ona görə də Allahın sənin və ikinci şəxsin bildiyi təbii ki, sirr donundan çıxıb sevgi donuna bələnir. Və yaxud da nifrətə bürünür.

Deməli, bütün bu prosesin başvermə proseduru, cərəyan etmə anları da zaman məsələsidi. Bu da yenə zamana, əriyən ömrə hopur. Yekun olaraq belə bir məntiq ortaya çıxır: baş vermişlər, olanlar və olacaqlar zamanla ömrü, yəni insanı gah paralelləşdirir, gah qarşı-qarşıya qoyur, gah da yollarını ayırır.

Hə, mən də ömrün elə nöqtəsindəyəm ki, bu daha çox yol ayrıcına yaxındı. Kəsişən yollardan ayrılan yollara olan məsafə də həmin o illərin yaddaşındakı ömür payımdı. Adətən payın azlığı, çoxluğu önəmli olmur.

Normal insan üçün adının anılması, qapısının döyülməsi, varlığının xatırlanması bütövlükdə diqqət göstərilməsi özü-özlüyündə artıq ən böyük paydı, ən böyük mükafatdı. Bu mükafat da anlayışlı olana kifayət edir. Ona görə də:

*Sən bir ümid, bir güvən*
*Əllərindən tutmuşam...*
*Sənə sığınan andan -*
*Dünyanı unutmuşam...*

*Gözümün göz gəzməsi*
*Bəbəkdə közərməsi...*
*Dolaraq gözləməsi -*
*Deyir ki, buludmuşam!..*

*Ruhum odda, həm buzda*
*Oda da ərimir buz da...*
*Kipriklərimi duzda -*
*Isladıb qurutmuşam...*

*Haqdan halal olanı*
*Sevdim, qəlbə dolanı!..*
*Ömür adlı solanı -*
*Xərcləyib qurtarmışam...*

***

Heç vaxt kiminsə haqqına göz qoymadım, müdaxilə etmədim, əl uzatmadım. Heç vaxt da Allahımı və Allahım qədər sevdiyimi yadımdan çıxarmamışam. Ona görə də gördüyüm saygısızlıq, etinasızlıq, qarşılaşdığım haqsızlıq və ən vacibi diqqətsizlik mənə ən ağır yara, ən kəskin xəncər kimi sancılıb həmişə. Onun ağrısını sinirə bilməmişəm, həzm etməyi bacarmamışam. Nə qədər unutmaq istəsəm də, meymun kimi həmişə gözümün önündə olubdu.

Və anlamışam ki, yaşadığım bu illərin, doğranan kəsilib üst-üstə yığılan bütün ağrılı hissəsi məhz mənim öz günahlarımdı, mənim hamı kimi ola bilməməyimdi. Təklənmək, təkliyə çəkilmək, özün, Allahın və sediyinlə birgə olmaq sən demə bu cəmiyyətin, bu zamanın yemi deyilmiş, ona uyğun gəlmirmiş. Uyğun gəlməyənlər də həmişə sıxılır və zaman ləpəsi onu sahilə qovur. Mənim üçün indi həmin o uzaq sahillər addım-addım yaxınlaşır. Bəlkə də ləpə-ləpə. Qoy bir az poetik olsun. Bu yerdə mən o ləpələrin pıçıltısına qoşulmaq, o pıçıltının ruhuna uyğun olaraq mən də ruhumun səsinə qulaq asıram. Ruhum deyir ki:

*Ruhum elə göynəyir*
*Elə bil dağ basılıb...*
*Isa kimi çarmıxdan -*
*Dipdiri sağ asılıb...*

*Gözlərim də qıyılır*
*Əhvalım da sıyılır...*
*Nəsə, nəsə duyulur -*
*Od üstdən yağ asılır...*

*Qəfil tutuldum doldum*
*Sən gəlib-gedən yoldum...*
*Bəylə bostançı oldum -*
*Çiynimdən tağ asılıb...*

*Ümid bitir içimdən*
*Allandım bu biçimdən...*
*Yatağımın küncündən -*
*Üç arşın ağ asılıb...*

Bu şeir ruhun pıçıltısı idi. Onu necə ifadə etdim, necə araya-ərsəyə gətirdim, heç xəbərim olmadı. Amma bir balaca nəfəsim genəldi. Ona görə ki, "üç arşın ağ" söhbəti həyat gerçəkliyidi. Doğrudur, o bəzən hamıya nəsib olmur. Amma bütün hallarda nəticə eynidi, istəyir zəlzələdən, istəyir vəlvələdən olsun...

... Yazının bu məqamında ovqatıma soğan doğrayan bir hal yaşadım. Onu yaddaşın bir küncünə atıram. Qoy qalsın orda... Həyatdı, onsuz da soğansızsarımsaqsız da keçinmək olmur. Özü də indiki pandemiya şəratində. Axı bu virus söhbəti çıxanda marketlərdə sarımsağın, zəncəfilin qiyməti kəllə-çarxa qalxmışdı. İndi bir az özünə qayıdıb.

Bu "özünəqayıdış" böyüklük deyil. Sadəcə, öz yerinə dönməkdi. Bu mənada düşünürəm ki, mənim kimi düşünənlərin özündən çıxıb getməsi yoxdur, biz elə öz yerimizdəyik. Öz yerində olanlar da özünü sevdiyindən artıq Allahını sevir. Çünki onun yerində qayim-qədim edən elə Allahıdır!..

Və bir də unutmaq lazım deyil ki, hər şeyin başlanğıcı, sonu olduğu kimi, qaranlığın da aydınlığı, gecənin də səhəri var. Çalışıb hər ikisinin havasına öz havanı qata biləsən. Öz simində, öz sazında çalasan havanı. Özgə havasına oynayanın qollarının göydə qaldığını o qədər görmüşəm ki.

Təbii ki, siz də görmüsünüz. Deməli, hansı bucaq altından baxırsan bax, ağ ağdı, qara qara. Sənin gözündəki eynək burda aldadıcıdı... Unutma! Bəli, mən bütün bu dediklərimi içimdə yüz dəfəælədim. Və yalnız yüz birinci dəfə qərar verdim ki, olduğun kimi olmaq, olduğun kimi də görünmək ən böyük dürüstlükdü, doğruluqdu, gerçəklikdi. Ona görə də üzümü Allaha tutub bu misraları pıçıldadım:

*Səndən dilənmək deyil*
*İlahi, əl açmağım...*
*Mənə möhkəm ol, deyir -*
*Qarşında dayanmağım...*

*Yaradan da, yazan da*
*Yazdığını pozan da...*
*Bilib yuxu yozan da -*
*Nədəndi qocalmağım...*

*Qaldır, ya da vur yerə*
*Qaranlıq, ya gur yerə...*
*Birdəfəlik bir yerə -*
*Deyilsin, bac almağım...*

*Duam, sözüm, ümidim*
*Bilmirsən mən kim idim?*
*O ürəyi - kiridim -*
*Keçdi tay ucalmağım...*

Bax, bu misraların özü də mənim yerimdə dayanmağımın müəyyən mənada təsdiqi, təqdimatıdı. Bu təsdiq, bu təqdimat da nə sənin üçündü, nə də sənin düşüncədə olanlar üçün. Gerçəyin bir şeir formasında Allahıma və ona söyləməyimdi...

***

Mən bu yazını bilgisayara diqtə etdikcə içimdə yazdığımla dediyimin arasında müəyyən xətlər yarandığını, müəyyən redaktələrin olduğunu etiraf etməliyəm. Ona görə ki, bu yazı tamam nostalji duyğular üzərində yazılmışdı ürəyimə. Bu nostaljinin içərisində həyatyımdakı, ömrümdəki, düşüncəmdəki, eləcə də aid olduğum kollektivdəki adamlar da var idi. Onlarla bağlı düşündüklərimi, yaşadıqlarımı kağıza köçürmək niyyətindəydim. Bir az da dəqiq ifadə etsəm, ürəyimdəkinin surətni çıxaracaqdım. Amma alınmadı. Bəlkə də belə daha yaxşıdı. Çünki hərənin öz arşını, öz həqiqəti var. Kimsə mənim yazdığımı yanlış da anlaya bilərdi, yaltaqlıq kimi də, qısqanclıq kimi də, ittiham kimi də görənlər olacaqdı.

O ki, qaldı bundan sonra nəyi necə yazacağıma, onu zaman göstərəcək. Hər şeyin zamana ehtiyacı olduğunu isə yəqin ki, heç birimiz unutmamışıq...

## Erməni lobbisinin gücü: "Təhlükəsiz Şəhərlər" siyahısında İrəvan var, Bakı yox...



GeoPolia Safety Index - "Təhlükəsiz Şəhərlər İndeksi"i 2023-cü il buraxılışını təqdim edib. Postsovet məkanının şəhərləri böyük hərflərlə vurğulansa da, maraqlı məqam odur ki, dünyanın ən təhlükəsiz şəhərləri sırasında Bakı şəhərinin adı yoxdu

*Əbu-Dabi / BƏƏ - 88,8*
*Doha / Qətər - 85,5*
*Taypey / Tayvan - 84,9*
*Ajman / BƏƏ - 84,5*
*Şarja / BƏƏ - 84,1*
*Kvebek/Kanada - 83,9*
*Dubay / BƏƏ - 83,6*
*San Sebastyan / İspaniya - 83,1*
*Bern / İsveçrə - 82,3*
*Eskişehir / Türkiyə - 81.9*
*Sürix / İsveçrə - 81,7*
*Münhen / Almaniya - 81,2*
*Trondheim / Norveç - 80,9*
*Muskat / Oman - 79,9*
*TARTU / Estoniya - 79,0*
*Haaqa / Hollandiya - 78,8*
*Honq Konq - 78,5*
*Bazel / İsveçrə - 78,4*
*Lyublyana / Sloveniya - 78,2*
*YEREVAN / Ermənistan - 78,1*
*Qroningen / Hollandiya - 77,9*
*Tampere / Finlandiya - 77,7*
*İrvine - Kaliforniya, ABŞ - 77,7*
*Zaqreb / Xorvatiya - 77,6*
*Kluj-Napoka / Rumıniya - 77,5*
*Eindhoven / Hollandiya - 77,2*
*Kanberra/Avstraliya - 76,8*
*Coquitlam / Kanada - 76,7*
*Stavanger / Norveç - 76,7*
*Reykyavik / İslandiya - 76,2*
*Timişoara / Rumıniya - 75,6*
*Chiang Mai / Tayland - 75,5*
*Tokio / Yaponiya - 75,4*
*Seul / Cənubi Koreya - 75,3*
*Praqa / Çexiya - 75,3*
*TALLİN / Estoniya - 75,3*
*Helsinki / Finlandiya - 75,2*
*Olborq/Danimarka - 75,2*
*Riyeka / Xorvatiya - 74,8*
*Bergen / Norveç - 74,3*
*Oakville / Kanada - 74,2*
*Krakov/Polşa - 74,2*
*TBİLİSİ/ Gürcüstan - 74,1*
*Brno / Çexiya - 73,9*
*Merida / Meksika - 73,9*
*Varşava / Polşa - 73,9*
*Manqalor / Hindistan - 73,9*
*Lozanna/İsveçrə - 73,8*
*Qraz / Avstriya - 73,7*
*Vrotslav / Polşa - 73*

Qeyd edək ki, "The Economist Intelligence Unit" analitik mərkəzi ilə "The Economist" jurnalının birgə hazırladığı hesabatda Bakı şəhəri "Təhlükəsiz şəhərlər indeksi 2019" (Safe Cities Index) reytinqinə görə dünyanın 60 ən təhlükəsiz şəhəri sırasındadır.

**P.S.** Bir neçə gün əvvəl Britaniyanın ən böyük səyahət jurnalı olan "Wanderlust" un 2016 -cı ildə Azərbaycanı tərtib etdiyi "Dünyanın ən çətin viza alınan on ölkəsi" siyahısına saldı. 2023-cü ildə isə , ümumiyyətlə, Bakını heç bir siyahıya salmadı. Əvəzində jurnalda Ermənistan yeni inkişaf etməkdə olan, ən arzu olunan turizm istiqamətlərinin ilk onluğuna daxil edildi.

Erməni diasporasının, təbliğatının gücü budur.

Əntiqə Rəşid

## Vətən müharibəsi qazilərinin kredit borcları silinəcək

"Son antiterror əməliyyatları zamanı və onda öncə Vətən müharibəsində həlak olan şəxslərin və ailə üzvlərinin banklara olan borcları tamamilə silinib".

Adalet.az xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında "Azərbaycan Banklar Assosiasiyası"nın sədri Zakir Nuriyev deyib.

O bildirib ki, qazilərin kredit borclarına hesablanmış faizlər dayandırılıb: "Bundan başqa bir sıra əlavə müraciətlər əsasında mövcud borcların silinməsi həyata keçiriləcək. Qarşıdakı dövrdə də Azərbaycanın bank və sığorta sistemləri qarşılıqlı şəkildə mövcud olan, meydana çıxan biləcək problemlərin həllinə yaxından dəstək verəcək".

# Bəhmən Mirzənin 17- ci oğlu: Çar ordusunun general-mayoru,AXC hərbçisi Əmənulla Mirzə Qacar

**Azərbaycan tarixinin şanlı bir hissəsində mühüm yer tutan Qacarlar nəslinin nümayəndələrinin xidmətləri hələ də xalqımıza hərtərəfli şəkildə təbliğ olunmayıb.**

Bu gün sizə Çar ordusunun və Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunun general-mayoru, İran Milli Məclisinin üzvü, İran-Sovet İttifaqı Dostluq Cəmiyyətinin rəhbəri Əmənulla Mirzə Qovanlı-Qacar haqqında məlumat verəcəyik. Bu məlumatların arxivlərdən toplanmasında, yazılmasında böyük əməyi olanmərhum araşdırmaçı -jurnalist Ənvər Çingizoğlunu hörmətlə anırıq və onun qiymətli materiallardan ibarət araşdırmasından seçmələri nəzərinizə çatdırırıq.

Əmənulla mirzə Qovanlı-Qacar haqqında söhbətimizə başlamaşdan əvvəl Qacarların kim olduğuna bir nəzər yetirək. Deməli, Qacar Xanədanının banisi Ağa Məhəmməd şah olub. Onun qardaşı Hüseynqulu Xan Cihansızın oğlu isə Fətəli şah Qovanlı-Qacar olub. Fətəli şahın oğlu Abbas Mirzə, Abbas Mirzənin oğlu Bəhmən Mirzə Qovanlı-Qacar, Bəhmən Mirzə Qovanlı-Qacarın oğlu isə Əmənulla mirzə Qovanlı-Qacardır.









Ə. Çingizoğlunun araşdırmasına görə, Əmənulla mirzə Bəhmən mirzə oğlu 8 yanvar 1862-ci ilin yelizavetpol quberniyasının Şuşa şəhərində anadan olub. O, Cənubi Azərbaycanın hakimi olan Abbas Mirzə oğlu Bəhmən Mirzə ilə Çiçək xanımın evliliyindən dünyaya gəlib və ailənin on yeddinci oğlan övladı olub.

### Döyüşə və hərb sənətinə həsr edilən ömür

Ruhu , canı, iliyi döyüşdən yoğrulmuş Qacarların nümayəndələri də hər zaman meydanlara, döyüş və müharibələrə can atıb. Beləki, Sankt-Peterburqdakı hərbi kadet korpusunu bitirən bu on yeddi yaşlı gənc poruçik rütbəsi alır.



Bununlada ömrünü hərbiyə həsr edir. Əmənulla Mirzə 1879-cu il iyulun 19-da Zaqatalada yerləşən 164-cü piyada alayında xidmətə başladıqdan cəmi 4 il sonra - 1883-cü ildə baş leytenant rütbəsinə yüksəlir.

20 noyabr 1886-cı ildə o, Kuban Kazaklarının II taboruna transfer edilir və sonradan həmin taborun komandiri olur. Yəqin ki, Əmənulla Mirzənin çar ordusunda necə bir böyük çətinliklərlə üzləşdiyini təsəvvür edirsiniz... Axı, bütün dövrlərdə Rusiya təbələrinə, xüsusən türk millərinə məxsus təbələrinə qarşı hədsiz dərəcədə qısqanc olub və onları ali məqamlara yaxın buraxmamağa çalışıb. Amma yuxarıda qeyd etdiyim kimi qanı-canı, ruhu, iliyi ilə anadan döyüşçü doğulan Qacarlar nəslinin nümayəndəsi o qədər peşəkar, mübariz olur ki, çar ordusunun bütün əngəllərini aşmağı bacarır.

1900-cü il mayın 6-da nizami kazak batalyonundakı nümunəvi xidmətinə görə Əmənulla Mirzə yesaul (mayor) rütbəsi verilir. 1909-cu ildə isə IX Kuban plastun taborunda ordu yesaulu rütbəsinə yüksəlir. 1915-ci ildə üçüncü Kuban kazak-piyada diviziononuna komandirlik edən Əmənulla Mirzəyə həmin il aprelin 25-də polkovnik rütbəsi verilir. Birinci Dünya müharibəsi başlayır. Bu zaman Əmənulla xan Avstriya-Macarıstana qarşı olan cənub-qərb cəbhəsində döyüşür. Güclü döyüşlər zamanı ayağından ağır yaralanan Əmənulla mirzə arxa cəbhəyə göndərilsə də hərbi fəaliyyətini dayandırmır.

1916-cı ildə bu yaralardan sağalmış və yenidən cəbhəyə geri dönmüşdür. Özünün komandanlıq etdiyi taboru ilə birlikdə Avstriya-Macarıstan ordusu ilə savaşarkən Marhonovka kəndi yaxınlığında düşmən səngərlərini ələ keçirir və düşmən ordusunun atəş gücünə ağır zərbələr vurur. 1916-cı ilin 5 noyabr əməliyyatı zamanı göstərdiyi igidliyə görə Müqəddəs Georgi Qılıncı ilə mükafatlandırılır. Kuban kazak nizami hissələrindəki nümunəvi xidmətlərinə görə Əmənulla Mirzə Qacar 1917-ci ildə general-mayor rütbəsi alır. III dərəcəli ”Müqəddəs Anna” ordeni, III dərəcəli ”Müqəddəs Vladimir” ordeni, III dərəcəli ”Müqəddəs Stanislav” ordeni, İgidliyə görə Georgi Qılıncı.

1917-ci il fevral inqilabından sonra vətəninə geri dönür, Tiflis və Şuşada yaşamına davam edir.

Ə. Çingizoğlu qeyd edir ki, Azərbaycan Xalq Cümhuriyyəti Milli Ordusunda 1918-ci ilin 28 may tarixində Azərbaycan Xalq Cümhuriyyətinin yaradıldığı elan edildi. Bu zaman Şuşada yaşayan Əmənulla xan 1 dekabr 1918-ci ildə yeni yaradılan dövlətin müdafiə nazirliyinə rəsmi şəkildə müraciət edərək onun ordu sıralarına qəbul edilməsini istədi. Ordu sıralarında xidmətdən başqa, AXC ondan diplomatik məqsədlər üçün də istifadə edir. Beləki Əmənullah xan İsmayıl xan Ziyadxanovun rəhbərliyində Qacar imperiyasına göndərilən rəsmi nümayəndəliyin bir parçası olur.

O, bu diplomatik nümayəndə heyətində hərbi qrupun rəhbəri hesab edilirdi. Azərbaycana geri döndükdən sonra o, Azərbaycan Xalq Cüumhuriyyətinin Milli Ordusunun I Piyada Diviziyasının komandanının müavini təyin edildi. Bu diviziyanın qərərgahı Xankəndi və Şuşada yerləşirdi. O, 22 - 23 mart tarixlərində erməni silahlı dəstələrinin Azərbaycan ordusuna qarşı təşkil etdiyi hücuma qarşı vuruşub və erməni üsyanının yatırılmasında iştirak edib.

1920-ci ilin 28 aprelində Azərbaycan Xalq Cümhuriyyəti bolşevik qüvvələri tərəfindən işğal edildi. Bolşevik təzyiqinə dözməyən və bolşevik təhlükəsini əvvəlcədən hiss edən Əmənulla Mirzə 1929-cu ildə İrana mühacirət edir. Tehranda yerləşən general-mayor Əmənulla Mirzə Qacar Pəhləvi İranının ordusunda hərbi məktəbdə işləyir, İran nizami ordusunun yaradılmasında yaxından iştirak edir. Bundan başqa, siyasi fəaliyyətlə də məşğul olan Əmənulla xan İran parlamentində vəkil də olur. Bu çərçivədə İran-Sovet dostluq cəmiyyətinin rəhbəri vəzifəsində çalışır.

Əmənulla mirzə Nəvvab bəyim Hacı Hüseynəli bəy qızı ilə yaşam qurmuşdu. Səyavuş mirzə, Xosrov Mirzə adlı oğulları, Səfiyyə xanım adlı qızı vardı.

General-mayor Əmənulla Mirzə Qacar 1937-ci ildə - 80 yaşında Tehranda vəfat edir.

***P.S.** Tariximizi bilmək, yaxın keçmişimizi öyrənmək hər bir soydaşımızın borcudur! Təəssüf ki, Azərbaycanın paytaxtında Qacarlar nəslinin igid oğlunun adını əbədiləşdirəcək nəinki bir barelyef, heç dəftər vərəqi boyda bir lövhə də yoxdur.*

**Əntiqə Rəşid**

**VAQİF YUSİFLİ**

# UŞAQLAR ÜÇÜN YAZANDA



**Böyük rus tənqidçisi V.Belinski məqalələrinin birində yazırdı ki: ”Uşaq şairi olmaq yox, uşaq şairi kimi doğulmaq lazımdır”. Bu fikri patoloji mənada anlamayın, yəni mənası budur ki, uşaq şairi olmaq çox çətindir, bunun üçün xüsusi istedadın olmalıdır. Sən ilk növbədə, uşaqların dünyasına -onların maraq doğuran aləminə yaxşı bələd olmalıdır, amma bu bələdlik də azdır, gərək özün də o uşaqlar kimi saf olasan (amma özünü uşaq yerinə qoymayasan, hər şey təbii olsun). Bundan başqa onların maraq dairəsinin genişliyini də nəzərə almaq lazımdır.**

Astarada yaşayan İlham İlhami (İlham Sabir oğlu Haqverdiyev) mənə uşaqlar üçün yazdığı dörd şeir kitabını təqdim etdi (”Mədinənin gülləri”, ”Nilufərin nağılı”, ”Lalənin meyvələri”, ”Uşaqların xətrinə, gəl!..) və bir neçə günə bu kitablardakı şeirləri oxuyub bitirdim. Ümumi təəssüratım budur ki, İlham İlhami müasir uşaq şeirinin tələbləri ilə səsləşən şeirlər yazır.. Doğrudur, bu dörd kitabda onun yaxşı şeirləri ilə müqayisədə zəifləri də nəzərə çarpır.Amma ümumi ansanbl yaxşıların xeyrinədir.

İlham İlhaminin şeirləri barədə iki şair-Ağamir Cavad və Qəşəm Nəcəfzadə fikir söyləyiblər. Ağamir Cavid ”Şeirləri ilə birgə böyüyən uşaq şairi” məqaləsində yazır ki: ”İlhami gözəl uşaq şairidir. Onun uşaq dünyasını dərk etməsi həyatı güclü müşahidə edə bilmək qabiliyyətindən irəli gəlir. O, həmçinin təbiəti gözəl bilir. Şeirlərində uşaq dünyagörüşü ilə təbiət arasında sanki körpü fikir, yol çəkir”. Qəşəm Nəcəfzadə isə yazır: ”Onun uşaq şeirlərində göz qamaşdıran, şişirdilmiş, saxta, yalançı uşaq obrazları yoxdur. Onun obrazları həyatsevər, dünyaya heyrətlə baxan, daim öyrənməyə can atan, vətəni, təbiəti, heyvanları sevən və qoruyan təmiz qəlbli uşaqlardır”. Mən buf fikirlərə tamamilə haqq qazandırıram, amma İlhaminin uşaq şeirləri barədə öz fikirlərimi söyləmək istəyirəm.

1.İlk növbədə, onu qeyd edim ki, İlham İlhaminin uşaq şeirlərinin əksəriyyəti öyrədici xarakter daşıyır. O, bu tipli şeirlərində şairliklə müəllimlik missiyalarını birləşdirir. Qəşəm Nəcəfzadə də bunu xüsusi qeyd edir ki,İlham İlhaminin uşaq şeirləri əsl təqdris kitabıdır.Təbii ki, uşağa məsləhət də vermək lazımdır, onu nədənsə çəkindirmək lazımdır, amma həyatda və xüsusilə təbiətdə olan əşyaları, predmetləri, nəsnələri -onların mahiyyətini, hansı funksiya daşımalarını başa salmaq lazımdır. ”Mədinənin gülləri” kitabında Dəmirağac, Palıdağac, Qaya, Su, Sərv ağacı, Qurbağa, İlan, Bülbül Tülkü, Fil, Canavar, Pələng, Zürafə və s. haqqında öyrədici şeirlər var. Uşaq bu şeiri oxuyur və demək olar ki, müeyyən əşya haqqında bilgi alır. Məsələn: QAYA haqqında.

***Heç nəyi Qaya,***
***Salmayır saya.***
***O məğrur durur***
***Dağ yamacında.***
***Düzdə, dərədə***
***Olsa harada.***
***Meydan oxuyur***
***Küləyə sanki,***
***Odur, deyərlər:***
***”Külək qayadan***
***Nə aparar ki!”***

2. İlham İlhami uşaq şeirinin müxtəlif formalarına müraciət edir: yanıltmaclar, nağıllar, ”hesablanmalı” şeirlər, təmsillər, təmsil-nağıllar,, poema, olmuş əhvalat, monoloqlu şeirlər və adi şeirlər. Bu şeir formalarının hər birini uşaqların anlaya və dərk edə biləcəyi şəkildə təqdim etmək lazımdır və İ.İlhami çox şeirlərində buna nail ola bilir. Məlumdur ki, yanıltmaclar ayrı-ayrı sözlərin və səslərin təkrarlanması üzərində qurulur. Bu cür şeirləri oxumaq və yadda saxlamaq uşaqlar üçün mənimsəmək mənasında heç də asan olmaz, amma maraq doğurur .Həm də səslər və sözlər üzərində qurulsa da, şeirdə məna və məzmun qorunmalıdır. İ.İlhami yanıltmacın bir neçə növünü təqdim edir: suallı, hesablı, tapmacalı yanıltmaclar. Bunlar uşaq şeirlərində ilk dəfədir işlənir. Hər birinin də öz funksiyası var- tapmacalı yanıltmaclarda adından göründüyü kimi uşaqların zehnini inkişaf etdirməyə yönələn bir sual qoyulur. Hesablı yanıltmacda isə uşaqlara rəqəmlə (iki, üç, beşlə) işləmək, daha doğrusu, tapmacalı yanaltmacda olduğu kimi sonu sualla bitir. Elə suallı yanıltmaclarda da məzmun fərqli olsa da, yenə müəyyən suala cavab vermək tələb olunur. Təfərrüata varsayaq, yalnız bir yanıltmac-hesablama ilə fikrimizə son verək:

***Bağdan iki iri nar,***
***Dərdi balaca Elnar.***
***Narı görüb Elnara***
***Yaxın gəldi uşaqlar.***
***”Babam deyib ay Vüqar,***
***Vüqara dedi Elnar,***
***Hər bir narın içində***
***Minə qədər gilə var.***
***İndi mənim əlimdə,***
***İki qırmızı nar var.***
***Beş nar olsa, gilələr***
***Neçə olar, uşaqlar?***

Hiss olunur ki, İlham İlhami həm uşaqların maraq dünyasına daxil olur, onları düşünməyə vadar edir, həm də özü maraqlı situasiyalar yaratmağa çalışır. Buna görə də o, yanaltmaclardan başqa digər şeir formalarına müraciət edir. Bu baxımdan onun təmsilləri də, nağılları da uşaqlara xoş gəlir. Eşitmişəm ki, İlham İlhami Astarada, müxtəlif məktəblərdə aşağı sinif şagirdləri qarşısında öz şeirlərini oxuyur və sevinclə qarşılanır.Onun ”Fantastik gəzinti” adlı poeması da bu müəllifin daha geniş, epik lövhələrə meyl etdiyini, balaca oxucuları ayrı-ayrı əhvalatlar üzərində düşünməyi (və daha çox dinləməyi!) təşviq edir.

3.Bəs balaca uşaqların öz dünyası, onların birbirilə və valideynləri ilə qarşılıqlı münasibətləri necə?

-İlhaminin şeirlərində bunu izləyə bilirikmi? Çünki uşaqlar üçün yazılan şeirlərdə təkcə öyrədicilik missiyasına qədər əhəmiyyətli olsa da, onların öz aləmini izləmək, nə düşündüklərini bilmək də başlıca şərtlərdən biridir. İlhaminin üç kitabının adı üç uşağın adıyla bağlıdır- Mədinə, Lilufər, Lalə.Təsadüfi deyil bu adlar. ”Mədinənin gülləri”ndə ”İnci və Əli”, ”Üç nəvə”, ”Nənə və Həsən”, ”Bizim Yağmur”, ”Nilufərin nağılı”nda ”Balaca Elin”, ”5” alacağam”, ”Lalənin meyvələri”ndə ”Baba”, ”Bəşir”, ”Kitab ucaldar səni” şeirləri göstərir ki, İlham İlhami balacaların dünyasına yaxşı bələddir. Məsələn, ”Nənə və Həsən” şeirində adi bir əhvalat nəql edilir-balaca Həsən hər axşam nənəsindən ona nağıl danışmağı xahiş edir .

***Nağıl qurtarır,***
***Dayanır nənə.***
***Həsən əl çəkmir;***
***-Nağıl de yenə!***
***Axırda yuxu***
***Basır nənəni,***
***Həsənə hər gün***
***Nağıl deyəni..***
***Nənə və Həsən***
***Bir yerdə yatır,***
***Şirin yuxuda***
***Nağıla batır.***

Kaş bütün balacalar təkcə İlhaminin şeirlərində yox, həqiqətdə nağıllara beləcə meyl edəydilər, nə gözəl olardı..

İlham İlhaminin bu dörd şeirlər kitabında bədii səviyyəsi nisbətən zəif olan şeirlər də var (öncə buna işarə etdik). Yaxşı olavr ki, gələcək şeir kitablarında müəllif çox adi, o qədər də əhəmiyyət daşımayan yazılarından imtina etsin.

**Beləcə, İlham İlhaminin bu dörd kitabını uşaqlar üçün yazılan maraqlı kitablar kimi təqdir edirik. Hər halda,zənn edirəm ki, uşaqlar onun simasında özlərinin arzu etdikləri bir müəllifi tapa bildilər.**

# Natiqin silahdaşları: Ermənilərə əsir düşməmək üçün özünü vuran "Saqqallı" Yusif kimdir?

**2019-cu ilə qədər bayraqdan, cəsur döyüşçü Natiq Qasımov haqqında çox cüzi tanınan bir igid kimi Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının siyahısında idi.**

Mövzuya girməmişdən əvvəl oxucularımıza bildirim ki, Qasımov Natiq 1971-ci il yanvarın 2-də Gədəbəy rayonunun Kiçik Qaramurad kəndində anadan olub. 1975-ci ildən ailəlikcə Mingəçevirə köçüblər. Natiq burada səkkizillik məktəbi bitirdikdən sonra qaynaqçı ixtisası üzrə peşə məktəbində təhsil almışdır. Rusiyanın Krasnoyarsk vilayətində Daxili Qoşun hissələrində xidməti başa vurduqdan sonra 1991-ci ildə vətənə qayıtmışdır, elə həmin il də könüllü olaraq cəbhəyə getmişdir.

### 31 illik müəmma Natiq Qasımov sağdırmı?

Bir çoxunuz xatırlayırsınız: 2019-cu ildə, Türkiyədə azərbaycanlılar tərəfindən erməni lobbisinə qarşı informasiya mübarizəsi aparmaq məqsədilə yaradılan "ASASmedya", Natiq Qasımovun sağ olması və Ermənistandakı kimya zavodlarının birində işlədilməsi barədə məlumat yaydı. Bununla yanaşı, Natiq Qasımov barədə məlumat verən şəxsə 1000 dollar, onu Rusiya, İran, Gürcüstan və Türkiyədən təhvil verəcək şəxsə isə 10 000 dollar pul mükafatı təqdim ediləcəyi barədə vəd verdi. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının məlumatına əsasən, ermənilər tərəfindən əsir və girov götürülmə faktı danılan şəxslərin siyahısında Natiq Qasımovun da adı vardır. Dövlət Komissiyasının dəfələrlə etdiyi müraciətlərə baxmayaraq, erməni tərəfi indiyədək Natiqin sonrakı taleyini Azərbaycandan və beynəlxalq təşkilatlardan gizlətməkdədi.

Bundan sonra Azərbaycan Dövlət Televiziyası üç il ərzində ərsəyə gətirilən "Oğul" sənədli filmini təqdim etdi. "Oğul" filmi Birinci Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən əsir götürülən azərbaycanlı hərbçi Natiq Qasımov haqqındaydı və Böyük Britaniyanın "Broken Pot Media" şirkətinin istehsalıydı.

Bəli, film riyakar erməni xislətini bir daha aşkara çıxarmış olur. Bununla yanaşı, filmin rejissoru ekran əsərində müharibələrin insanların taleyində oynadığı dəhşətli roldan bəhs edir, ailələrin öz əzizlərinin itkisindən və naməlum taleyindən çəkdikləri iztirabları ön plana gətirir. Beləliklə, Natiq Qasımovun şücaətini parlaq şəkildə əks etdirilən "Oğul" sənədli filmi Azərbaycan Ordusunun 2023-cü ilin sentyabr ayında apardığı uğurlu antiterror tədbirlərindən sonra yenidən ictimaiyyətin gündəminə gəldi.

### Kilsədə postda olan 7 oğul dastanı - Şahid danışır

26 fevral 1992-ci il tarixdə Xocalı soyqırımı zamanı əsir düşmüş Cəfər müəllim Natiqi ən son görənlərdən biridir. Cəfər müəllimin xatirələrindən: "Mənə dedilər ki, sizin türklər bizim kilsəni tutublar, çoxlu sayda adamlarımızı qırıblar. İstəmirik ki, itki verək. Sonra ermənilər məni özləri ilə bir meşəyə gətirdilər. Sağ tərəfdə uçuq bir xarabalıq görünürdü, üzərində də üçrəngli bayraq dalğalanırdı. Mənə dedilər, get sizinkilərə de ki, mühasirədədirlər, heç yana çıxa bilməzlər. Onları dilə tutub razı sala bilsən həm səni, həm də qalan 20 əsiri buraxacağıq. Əgər türklər təslim olmasalar, kilsəni partladacağıq, əsirləri isə güllələyəcəyik.

Ermənilər təxminən 100 metr aralıdakı kolların, qayaların arasında gizlənib məni sürünə-sürünə irəli getməyə məcbur etdilər. Xarabalığa çatıb başımı qaldırıb baxanda gözümə 3-4 meyit dəydi. Bildim ki, bizimkilərdir. Kilsədən tüstü çıxırdı. Nəfəsimi dərib soyuq divara söykəndim, yuxarı baxdım. Gecədən islanmış üçrəngli bayraq ağır-ağır yellənirdi. Bayrağa baxa-baxa ağladım. Kilsəyə çatıb ana dilində "içəridə kim var, mən Xocalıdan əsir düşənlərdənəm, məni sizin yanınıza göndəriblər" dedim. Az sonra içəridən öskürək və hənirti səsi gəldi. Diksindim, həm də sevindim ki, burada bizimkilər var. Güclə eşidilən bir səs məni içəri çağırırdı. Əlimi divara sürtə-sürtə səs gələn tərəfə getdim. Bacadan düşən işığın altında bir avtomat, bir əl pulemyotu, çoxlu patron gördüm. O, üzü üstə yıxılmışdı. Yaxınlaşıb yaralı olub-olmadığını soruşdum. Güclə cavab verdi ki, yaralı deyil. Su istədi. Su olmadığından ona bir neçə parça quru çörək verdim. Könülsüz də olsa, çörəyi yedi. Yoldaşlarını soruşdum.

Dedi ki, komandirim məni 6 nəfərlə bura göndərib. Yoldaşlarımdan üçünü ermənilər öldürdü, üçündən isə xəbərim yoxdu. Beş gündür ki, tək qalmışam. Niyə qaçmadığını soruşdum. Dedi ki, komandirə söz vermişəm, bayrağı və postu qoyub gedə bilmərəm. Kömək gözlədim, lakin gəlmədilər.




Natiqə ermənilərin tələbini çatdırdım. Eşitdiklərinin ürəyincə olmadığını hiss etdim. Dedi ki, iki gülləsi qalıb, axıradək vuruşacaq. Xahiş etdim ki, məni vur, qoy, heç olmasa özümüzünkülərin gülləsindən ölüm. Bir anlığa xəyala daldı.

Tutaq ki, sizi vurdum, bəs mənə görə 20 nəfər əsirin güllələnməsinə necə razı olum. Bunu deyib havaya güllə atdı, ermənilərə tərəf bağırıb onları yanına çağırdı. Ermənilər əvvəlcə gəlməyə tərəddüd etsələr də, məni görüb tökülüşdülər. Natiqin üst-başını axtardılar. Onun bir neçə gün burada təkbaşına vuruşmasına heç cür inana bilmirdilər. Kilsəni aramsız avtomat atəşinə tutdular. Heç kimin olmadığını görəndə pərtliklərindən daha da qəzəbləndilər. Natiq əlində üçrəngli bayrağımız erməni yaraqlılarının arasında irəliləyərkən orada olan xarici jurnalistlər sözügedən məşhur fotonu çəkdilər. Sonralar bildim ki, həmin şəkil "Oqonyok" jurnalında dərc edilib. Ermənilər hər ikimizi BTR-ə qoyub Əsgəran qalasına gətirdilər. Milis şöbəsinin təcridxanasında məni kameraya salıb, Natiqi isə hərbi komendant olan mənzilə apardılar. Bundan sonra bir daha Natiqi görə bilmədim. 14 mart 1992-ci ildə 21 nəfər əsiri, o cümlədən məni Ağdam yaxınlığındakı qəbirstanlıqda dəyişdilər".

İndi isə keçid alırıq yazının 2-ci hissəsinə:

### Natiq və onun silahdaşları: Saqqallı Yusif kim idi?

Qeyd etdiyimiz kimi, Natiq Ağdamda Yaqub Rzayevin başçılığı altında "Qarabağ şahinləri" dəstəsində ermənilərə qarşı döyüşüb və onu döyüş dostları yaxından tanıyıblar. Hadisənin gerisini isə Yaqub Rzayevin batalyonunda ilk gündən son günə qədər döyüşmüş, Qarabağda Abdal Qəhrəman, şair Qəhrəman kimi tanınan Qəhrəman Hüseynov o vaxt qərargah rəisi olub. Qəhrəman müəllim deyir ki, bütün silahlandırmanı mən aparmışam, əsgərlərimizin bir çoxu ilə tanış idim və bütün şəhidlərimizi rəhmətlə anıram: "Xocalının Pirlər kəndindəki kilsəni 21 nəfər döyüşçü ilə aldıq. Amma postda - yəni adıgedən kilsədə Natiqlə birgə Vilayət Cəfərov (Beyləqan rayonu), Etibar Babayev (Bakı şəhəri, Xətai rayonu), Nüşirəvan Məhərrəmov (Bərdə rayonu), Yusif İsmayılov (Bakı şəhəri, Yasamal rayonu), Əli Məmmədov (Beyləqan rayonu), Elman Rəhmanlı (Bakı şəhəri) postda olublar. Onlar postda olarkən həmin ərazidə yenidən döyüş başladı və kilsəyə növbəti dəfə kömək göndərə, postu dəyişə bilmədik. Ermənilər Natiqi əsir götürdükdən sonra Natiqlə postda duran əsgərlərimizin meyitlərini Milli Qəhrəman Allahverdi Bağırovun köməkliyi ilə geri aldıq. Həmin vaxt Bağırov meyitləri təhvil verən erməni komandir Vitali Balasanyana deyir ki, niyə məhz hamının "saqqallı" dediyi Yusifin meyiti digər əsgərlərin meyidindən daha pis gündədir?Onu niyə xüsusi amansızlıqla öldürmüsünüz? Balasanyan cavab verir ki, əslində mən istəyirdim ki, o Yusifi diri tutum, çünki o mənim 15 döyüşçümü öldürüb 4 nəfərimi yaralayıb. O bizə diri lazım idi. Amma Yusif öz plyamotunu çənəsinin altına qoyub , ayaq barmaqları ilə özünə atəş açıb. Onun başını öz plamyotu aparıb. Bəli, Yusif bizim ermənilərə can verməyən qəhrəmanımızdı. Eləcə də kilsədə şəhid olan digər oğullar.

Yusif İsmayılovun cənazəsini Bakıya - Alatava, 11-ci Xreptovi küçəsinə mən gətirdim. "Gecəqondu" deyilən bir ev idi. Onda dedilər ki, iki azyaşlı qız övladı yadigar qalıb. Vallah, Yusif elə-belə oğul deyildi. O hələ şəhid olmamışdan mənim üçün əsl qəhrəman idi".

Şəhid Yusif İsmayılovun əmisi oğlu, Birinci Qarabağ müharibəsinin döyüşçüsü, "Boz qurd" batalyonunun üzvü Nürəddin İsmayılov (Nurəddin Xoca) ilə söhbətləşirik. O bildirir ki, Yusif (anası rus olduğu üçün hamı ona Yura deyirdi) 1962-ci ildə Ukraynanın Nikolayev şəhərində anadan olub, sonradan Bakıya köçüblər. Müharibə başlayanda onu öz batalyonumuza dəvət etdim, gəlmədi, Getdi Ağdama! Orda döyüşdü. Deyirlər ki, Natiq Qasımov 5 gün tək döyüşüb. Mən düşünürəm ki, o 5 gün tək döyüşməyib. Oradakı silahdaşları da onunla birgə sona qədər döyüşüb. Ermənilər postakı döyüşçülərə təslim olmaq təklifi verərkən Yusif buna razı olmayaraq ermənilərin əlinə keçməmək üçün özünü faciəli şəkildə öldürüb. Xocalıdan olan müəllim də şahid olaraq deyir ki, ermənilər kilsəyə atəş aça -aça giriblər. Kilsədəkilər isə son güllələrini özlərinə çaxaraq şəhadətə ucalıblar.

Ermənilər 1992-ci ildə Xocalının Pirlər kəndindəki kilsədə sağ qalmış yeganə əsgər Natiq Qasımovu əsir ala bildilər. Mən keçmiş döyüşçüyəm. Gözümün qarşısında çox şeylər baş verib, çox qəhrəmanlıqlara şahid olmuşam. Hətta bir igidin əməyini başqa igidlərə şamil olunduğunu da görmüşük. Natiq Qasıov bizim igidimizdir, qəhrəmanımızddır. Amma digər qəhrəmanların əməyini də əziyyətini də, qəhrəmanlığını da kölgədə qoymaq olmaz! Natiq də, Yusif də digər o, 5 nəfər də elə Natiq Qasımov qədər igid və qəhrəmandırlar ".

Nürəddin bəy onu da əlavə etdi ki, Yusifin məzarı şəhidlər xiyabanındadır.

Şəhidimizin bacısı Nərgiz İsmayılova Səngər - internetTV-yə zəng edib bu sözləri söylədi:" Qardaşımın əsl adı Yuridir. O vaxt onun adını ana- nənəm qoymuşdu... Həmin illərdə Yuri Qaqarin ilk insan olaraq kosmosa uçduğu üçün Yuri adı çox məşhur idi. Ailəmiz Bakıya gələndən sonra ata nənəm dedi ki, gərək uşağın adı dəyişdirilsin Yusif qoyulsun.

Bakı da hamı onu məhz bu adla tanıyırdı. Yusif Yasamalda 158 saylı məktəbdə oxuyub. İdmançı olan Yusif elə bir sovet şəhəri yoxdu ki, orda medala layiq görülməsin, tərifnamələr almasın. 1990-cı ilin 20 yanvarında səhərə qədər xəstəxanalar yaralı və meyit daşıyıb. Səhərə yaxın üstü -başı qan içində evə gəldi. Sonralar Milli Qəhrəman Çingiz Mustafayev Azərbaycan oğullarını müharibəyə, Qarabağa gəlməsinə çağrış edəndə, ora ilk gedənlərdən biri də Yusif oldu. Yusif təbiətcə igid idi, deyirdi ki, mən ölərəm amma razı olmaram ki, erməni məni xalqıma zülm eləsin.

O vaxt - qardaşım şəhid olmamışdan bir neçə gün əvvəl gəlinimiz yuxu görmüşdü. Səhər durub danışdı ki, yuxumda gördüm ki ermənilər Yusifin başını əzib" .

Atam dedi ki, mənim oğlum başını erməni əlinə verən oğullardan deyil! O özü -özünü öldürər amma erməniyə sağ can verməz! Qardaşımın meyidi gələndən sonra bildik ki, doğrudanda Yusif özü öz əlləri ilə özünü başından vurub ki, ermənilər onu sağ tapa bilməsin. Onun ölümündən sonra atamda çox yaşamadı. 53 yaşında vəfat etdi. Dözmədi!"

***P.S.** Bəli, bütün şəhid, igid oğullarımızın müfəssəl və qəhrəmanlıq dolu bir həyat hekayəsi vardır, çalışmaq lazımdır ki, igidin birini həddindən çox təbliğ edərkən o birisini unutmayaq. Axı onlar ölməyib, vətənin göylərinə çəkilərək bizi seyr edir, onları xatırlamağımızı gözləyirlər. Cəmi 30 il ömür yaşayan Yusif İsmayılov kimi igidlərimiz o qədər çoxdur ki, onları bir-bir araşdırıb yazmaq, ruhlarını şad etmək lazımdır!*

**Əntiqə Rəşid**

### Ekspert: "Yeni metro xətləri istifadəyə veriləcək"

**Ən çox istifadə edilən nəqliyyat vasitələrindən biri də metrodur. Nə qədər sürətli işləsədə sıxlığı hər zaman sərnişinlər arasında narazılığa səbəb olur. Bir neçə metro stansiyaların açılması xəbəri metro sərnişinlərini əlbəttə, sevindirir.**

Məsələ ilə bağlı Adalet.az-a açıqlama verən nəqliyyat eksperti Aslan Əsədov yaxın iki il ərzində bir neçə stansiyanın açılışının gözlənildiyini qeyd edib:

"2025-2039-cu illər ərzində yeni metro xətlərinin istifadəyə verilməsi, stansiyaların açılışının anonslarının edilməsi Baş planda göstərilmişdir. Məlumdur ki, 2025-ci ilə qədər təxminən 2 il var. Bu 2 il ərzində bir neçə stansiyanın açılışı gözlənilir."

2025-2039-cu illər ərzində Baş planda qeyd olunan 21 metro stansiyanın istifadəyə verilməsi məsələsi reallıqla səsləşir. Çünki, Azərbaycan Respublikası işğaldan azad olunmuş ərazilərdə müvafiq nəqliyyat infrastrukturlarını sıfırdan yığıb. Sözügedən ərazilərə böyük maliyyə ehtiyatları birləşib. Artıq həmin yerlərdə görülən işlərin təxminən 90%-i yekunlaşmaq üzrədir. Yerdə qalan işlər isə tikinti, quruculuq, abadlıq işləri olduğu üçün artıq əldə olunan gəlirlər və ora qoyulan investisiyaların qayıtması paytaxtda və digər ərazilərdə işlərin görülməsinə dəstək olacaq. Qarabağ ərazisinə qoyulmuş investisiya geri qayıdacaq.

Buna görə də hər hansısa işləri görmək dövlət üçün əlavə yük olmayacaq. Bu səbəbdən də digər stansiyaların tikilməsi və istifadəyə verilməsi daha çox reallığı əks etdirir.

### Elman Cəfərli: "İranla ideoloji savaşı nadanların əlindən almaq lazımdır"

**Azərbaycan qonşu ölkələrindən biri İranla münasibətləri sabit etmək istədiyi halda İran bu "sülh"ə gəlmək istəmir. Münasibətlərin yaxşılaşdığı deyilsə də İran KİV-lərinin addımları deyilənləri təsdiqləmir.**

Mövzu ilə bağlı Elman Cəfərli Adalet.az-a açıqlama verib. Jurnalistin sözlərinə görə, Rəsmi Tehranla münasibətlər yumşalsa da, İran KİV-lərinin, özəlliklə SEPAH tv və teleqram kanallarının Azərbaycana düşmənçiliyi davam edir:

"Azərbaycandakı ən kiçik sosial problemi belə böyüdüb filə çevirir, yerli irançı cameədə dövlətə qarşı nifrət yaradırlar. Çox təəssüf ki, bizim onlara cavab verməli olan TV-lərimiz işini yarıtmır. Bir dəfə demişəm, təkrarda fayda var. İranla ideoloji savaşı it boğuşduran nadanların əlindən almaq lazımdır. Nadirin, Əlirzanın yolaverdi prinsipi ilə işləyən TV-də eyni məzmunlu 3-4 veriliş var, hamısında da hər şeydən danışırlar, güneydən başqa. Çin-Hindistan, İsrail-Həmas gərginlikləri ölkənin bütün telekanallarında müzakirə olunur də."

**Əntiqə KƏRİMZADƏ**

# "Balabəyli sözü özünü "gözü qıpıq", "boynu bükük", ürəyi sınıq, ayağı buxovlu hiss etmədi 60 ildə"

**Əbülfət Mədətoğlu:** *- Bu günlərdə 60 yaşı tamam olan tanınmış SÖZ və GƏMİ kapitanı, dostum Faiq Balabəyli ilə nöqtə-vergülünə toxunmadığım onlayn söhbəti oxucularımıza da təqdim edirəm. Düşünürəm ki, söhbətimiz sizlər üçün də maraqlı olacaq.*

**- Mən Səni tanıyanda yaşıdım Faiq Balabəylinin əlini sıxdım... Yəni hansı ailədən, hansı eldən olmağını soruşmaq heç ağlıma da gəlmədi... Sən necə? Faiq Balabəyli kimi söz meydanına gələndə özünü necə hiss etdin...və nələrdən könüllü uzaqlaşdın?**



- Uzaqlaşdığım şeylər çox oldu, əlbəttə ki, könüllü yox. Sənin əlini sıxdığın yaşıdın Faiq arxada, elə o günlərdə qaldı, irəli addım atdım, yaşımın üstünə yaş gəldi, qaşımın üstünə qırış, ürəyimdən çox şeylər keçirtdim, keçdiyini zənn etdiyim, lakin daima ürəyimdə qalanlar da oldu. Həm insanlar, həm də olaylar. Ətrafımda və ürəyimdə qalanlardan biri də sənsən ki, yaşımızın bu vədəsində sənin hardan, hansı eldən, elatdan, hansı ocaqdan olmanı bildim. Yəni mən də sənin kimi, əllərini sıxdıqlarımın ürəyimə keçidini gördükdə özümün, sözümün simsarı, yaxını kimi bildim. Bax, özümü belə hiss etdim və bəzi xırda məqamları yada salmadan, deyirəm ki, elə o cür də hiss etməkdəyəm.

**-Sözlə işləmək də elə bir növü əkinçilikdi... Orada növbəli əkindən tutmiş arat, budama, yəni sahəyə aid hər işi əkinci müəyyən səviyyədə görə bilir... Sözlə işləyən də, nəsr, nəzm, dramaturgiya, publisistika... və sairə... Sən bunların bir çoxunda imzanı tanıtmısan... Bəs hansında daha çox Faiq Balabəylisən?**

- Şair ömrü, yazıçı ömrü elə əkinçi ömrüdür, - bunu çox düz deyirsən. Əkdiyinin, torpağa səpdiyinin bəhrəsini görən torpaq adamı kimidir yaradıcı adam da!. Məhsul olarsa, sevinər, rahat nəfəs alar. Sadaladıqlarının hamısı sözlə işləyən insanların yaradıcılıq fəaliyyətində əksini tapır. Torpağın arata qoyulmasından, budamaya, yığıma, yəni məhsulun sevincini yaşamağa qədər. Dramaturgiyadan başqa bütün "sahələrdə" "Əkinçi ömrü, xış əziyyəti" çəkmişəm. Amma sevərək, zövq alaraq, yazmaya bilmədən, "yazmasam öləm" halında, ovqatında olanda. Bunların hansında daha çox Faiq Balabəyliyəm, soruşursan. Deyim, hər birində o ədəbi-publisistik yazıların nümunələrinin altına imzamı çəkinmədən, qürurla qoymuşam. Amma daha çox insani münasibətlərdə, dostluqda, vətəndaş mövqeyimdə Faiq Balabəyliyəm ki, bütün yaradıcılığımda da bu hallar var.

**-Turalla bir meydanda olmaq və sözü ustad-şəyird, ata - oğul, müəllim - tələbə, yaxud da həmkar kimi bölüşmək, çözmək kimi hallar olurmu?..**

- Turalla fikir ayrılıqları daha çoxdur və əgər daha çox insafsızlıq etsəm, çəkinmədən deyərdim ki, yola getdiyimiz anlar demək olar ki, yoxdur. Baxmayaraq ki, bütün hallarda ardımca gəldi, keçdiyim yolların süvarisi oldu və bu hal davam etməkdədir. Şeir, esse yazıram, jurnalistika ilə məşğulam, o da iki kitab müəllifidir, AYB-nin üzvüdür, jurnalistlik fəaliyyəti ilə məşğuldur və sair. Mən dənizçiyəm, gəmi sürücüsü, naviqasiya mühəndisi ixtisasına sahib olmuşam, gəmi kapitanıyam, o da sonradan ikinci Ali təhsil olaraq Azərbaycan Dövlət Dəniz Akademiyasının eyni fakültəsini bitirdi, gəmidə işləyir və vəzifə yüksəlişi imtahanına hazırlaşır. Bununla yanaşı, bu qədər doğmalığın, yaxınlığın fövqündə "dost" ola bilmirik. Ata kimi qürurluyam, müəllim-tələbə kimi də görüntülər qənaətbəxşdir, həmkar kimi də məsləhətləşmələr, təcrübənin paylaşılması, əxz edilməsi də kənardan müşahidə olunacaq qədər var Amma onun öz dünyası, öz aləmi var ki, bu da mənim qane olacağım həddə deyil. Təbii ki, onun da mənimlə razılaşmadığı məqamlar yetərincədir.

**-Belə məqamda SÖZ qalib gəlir, yoxsa Sizlərdən biri:**

- Sənin dediyin, nəzərdə tutduğun məqamda, əlbəttə ki, SÖZ qalib gəlir. Onun şeirlərində elə misralar, elə bənzətmələr, elə fikirlər var ki, poeziyamızda həmişə diqqətdə, yaddaşda qalacaq. Təəssüf edirəm ki, onun ədəbi taleyi də elə mənim ədəbi taleyimə bənzədi. Qruplaşmadan, ədəbi cameədə sən məni, mən səni təbliğ et, deyən dəstənin üzvü və sairinsə yanında ola bilmədi. Mənim ədəbi cameədəki dostlarım əsasən "köhnə qvardiyanın" döyüşçüləridir ki, sən də daxil olmaqla meyar olaraq ədəbi nümunələrin keyfiyyətinə dəyər verdilər. Sözün dəyərini bildilər, yaş, mövqe, umma halları olmadı.

**-Ümumiyyətlə bu günümüzün Sözü rəng, boy-buxun, çəki və arzu olunmaq baxımından sənə nə deyir, səndən nə umur?**

-Bu gün Sözün rəngi, boy-buxunu, çəkisi və nəyi arzuladım, deyə nə varsa məni qane edir. Ona görə ki, ədəbiyyatımız qısır deyil, sanballı əsərlər yazılır, yazılacaq da. Ad çəkməyəcəm, amma heç də az deyil, nəzərimdə tutduqlarım, məni oxucusu edən əsərlərin hər biri çox rahatlıqla ölkədən kənarda yayınlana bilər. Əlbəttə, ədəbiyyat həm də zövq məsələsidir, mən öz zövqümə uyğun olanları deyirəm. Mənim özümdən isə İlahi Söz nə umur? Əlbəttə ki, onu ucuz tutmamaq, yerində işlətmək, uzunçuluq etməmək, demək istədiklərimi Sözün vasitəsi ilə sevdirə bilmək.

**-Nəhayət, Faiq adlı xeyli söz adamı var... Onların arasında Balabəyli SÖZÜ səncə özünü necə hiss edir? Axı onun da yaşı 60-dır?**

-Bizim tərəflərdə deyirlər, ad bostandır. Bu "bostan"da söz adamları olan adaşlarım var, əlbəttə. Balabəyli sözü kimi, elə Balabəylinin özü də fərqlidir, başqadır. Yəni adımız oxşar olsa da, dadımız- məhsulumuz fərqlidir. Mən özümü heç kəsə bənzətmədim, necə doğuldumsa, hansı dərinin içində dünyaya gəldimsə elə o dərinin də içində yaşadım, qabıq vermədim, dəyişmədim. Sözüm də elə oldu. Bütün mənalarda. Nə həyatda, mübarizədə, söz və meydan savaşında, nə də ədəbi mühitdə sözümü, özümü, fikrimi dəyişdim.

Nə düşündüm, nəyi gördüm, nə tərəfimdən yazılmalıdırsa, yazılmalıydısa onu yazdım, onu dedim. Bu baxımdan əminliklə deyirəm ki, Balabəyli sözü özünü "gözü qıpıq", "boynu bükük", ürəyi sınıq, ayağı buxovlu hiss etmədi. Düz 60 ildir bu belədir və nə qədər yaşayacamsa belə də olacaq, əziz Dost!

...Bəli, söhbətimiz gözlədiyim kimi də alındı. Belə də olmalı idi. Çünki biz nəsil söz adamı olaraq eyni şineldən çıxmışıq və sözdən başqa, özü də namuslu sözdən başqa heç nəyin davasını etmirik. Qələmimiz, sözümüz dəyərli sözün qulluğundadır. Bax, bu işin başında olan Faiq Balabəyliyə də 60 yaşın mübarək, Dost - deyərək sağollaşdım.

# Atamın məktəbi

**Məktəb! Hələ lap uşaq ikən valideynlər övladlarının totuq əllərindən tutub, bu təhsil ocağına gətirir, hardasa yeniyetməlik illərinin sonunadək onların talelərini bu unudulmaz məkana etibar edirlər. Valideynlər yaxşı bilirər ki, onlar nə qədər çalışsalar da məktəbin gələcəyimiz olan uşaqların həyatında oynadığı əvəzsiz rolu icra edə bilməzlər. Çünki məktəb kitab kimi, bilik mənbəyi olduğu zaman, həmdə bugünkü uşaqları sabahın qaynar həyatında büdrəməmələri üçün əlindən gələni edəcəkdir. Yəni dərs deyən müəllimlər, eyni zamanda şagirdləri gələcək həyat üçün hazırlayırlar. Əbəs yerə deyildir ki, qədim yunan filosofu valideynin övladı göydən yerə endirdiyini, müəllimin isə onu yerdən göyə qaldırdığını vurğulamışdır.**

Müharibə! Milyonların həyatını tamamilə dəyişən, pulu yeyib üstündə qan içən, insanlar tərəfindən "kəşf" edilən, eləcə də insanların özlərini dəyişən faciəvi bir üsul, ya da qırğın törədən, adamları qanına qəltan edən amansız bir cəllad. Müharibənin harda və necə baş verdiyindən asılı olmayaraq, ölümcül silahların meydan oxuduğu bir zaman, bu məkanda sağ qalmaq heç də hamıya nəsib olmur.



...1920-ci ildə anadan olan atam 1936-1939-cu illərdə Ağdam Pedoqoji Texnikumunu bitirib. Buranı əla qiymətlərlə bitirən atam elə həmin il Qusara təkmilləşdirmə kursunu da fərqlənmə ilə başa vurur və dərhal pedoqoji fəaliyyətə başlayır.

1941-1945-ci illər müharibəsinə rus dilini yaxşı bildiyi üçün müharibəyə yollanır. Atam qanlı müharibənin canlı iştirakçısı olur. Müharibədə yaralanır, arxa cəbhədə müalicə olunub yenidən cəbhəyə qayıdır. Moskva ətrafında gedən qızğın döyüşlərdə ağır yaralanıb müharibə ilə vidalaşır, arxa cəbhəyə qayıdır. Yenidən pedaqoji fəaliyyəti ilə seçilir. Göyçə mahalında gələcək nəslin təlim-tərbiyəsi ilə məşğul olur. 1944-1945-ci illərdə Martuni rayonunun Muğanlı kəndində rus dili və təbiətşünaslıq fənnlərini tədris edir. Yaşlı nəsil muğanlılar onun orada necə fəal və qabaqcıl müəllim olduğunu yaxşı xatırlayır, yeri gəldikcə bizə bu barədə ətraflı danışırdılar. Atam sonra ömrünün sonundadək məskunlaşdığımız Ağcabədi rayonunun Salmanbəyli kəndində rus dili müəllimi kimi çalışdı. Ağlımız kəsəndən bizə həmişə Muğanlıda müharibə illərində necə müəllim işlədiyindən həvəslə danışırdı.



...Bu günlərdə böyük qardaşım Eldarla həmin şirin xatirəli günlərə birdə qayıtdıq. Atamızın o qanlı-qadalı illərdə işlədiyi məktəbin izini axtardıq. Sən taleyin bir işinə bax, həmin məktəb hazırda bizim Ağcabədidə 556 saylı qəsəbədə fəaliyyət göstərir. Qəsəbədə, məktəbdə olduq. Direktor vəzifəsini icra edən Sevinc Yaşasın qizi Həsənova bizi gülərüz qarşıladı. Onunla xeylı söhbətləşib dərdləşdik. Sevinc xanım bildirdi ki, qəsəbədə yerləşən, müasir tələblərə cavab verən məktəbdə Xocavənd rayon 1 saylı tam orta məktəb , Ağdam 45 saylı və Xocavəndin Muğanlı kənd məktəbləri yerləşir. Məktəb 1912-ci ildən fəaliyyət göstərir. Məktəbin bir çox məzunu ölkə səviyyəsində tanınan şəxslər kimi məktəbin adını hər yerdə yüksək səviyyədə daşımışlar. Xocavəndlilərin vətənimizin bir çox güşələrində məskunlaşdığına görə məktəbdə şagirdlərin sayı cəmi 145 nəfərdir. Onların təlim-tərbiyəsi ilə 27 müəllim və 13 texniki işçi məşğul olur. Bir çox xocəvəndli kimi Ağcabədiyə pənah gətirən və burada sığınacaq tapan məktəbin kollektivi işlərini günün tələbləri səviyyəsində qürur və gələcək vətənpərvər nəslin bu gün məktəbdə müstəqil yetişmələri üçün əllərindən gələni əsirgəmirlər. Sevinc xanım vurğuladı ki, məktəb Regional Təhsil İdarəsindən məsafə etibarı ilə xeyli uzaqda yerləşməsinə baxmayaraq bu idarənin və Xocavənd rayon İcra Hakimiyyətinin başçısı Eyvaz Hüseynovun daim diqqət və qayğılarını yaxından hiss edir, onların köməkliyi sayəsində fəaliyyətlərini uğurla davam etdirirlər. Məktəbin qabaqcıl müəllimləri "Əməkdar müəllim" Süreyya Məmmədova, riyaziyyat müəllimi Gülbuta Tahirova, texnologiya müəllimi Münəvvər İbrahimova və başqaları şagirdlərə elmin sirrlərini dərindən öyrədir, onların savadlı, dünyagörüşlü olmaları üçün ürəkdən çalışırlar...

Ağcabədi xocavəndlilər üçün heç də özgə, yad yer deyildir. Onlar vətənin bu torpağında özlərinin evlərindəki kimi hiss edir, heç bir çəkmirlər.Ancaq doğulub boya-başa çatib, suyunu içib, havasını udduqları Xocavənd torpağı səbirsizliklə onların yolunu gözləyir. Ana uzun ayrılıqdan sonra övladını gözləyən kimi.

**Bizi küçəyə qədər yola salan Sevinc xanımla baxışlarımız qarşılaşanda qeyri-ixtiyari gülümsədik, çöhrəmizə xəfif təbəssüm qoydu. Və özümüzdən asılı olmayaraq sağa, Xocavəndə tərəf boylandıq. Başı qarlı dağların üstündə six ağ duman dövrə vururdu. Anladıq ki, tezliklə duman bu dağlardan gedəcək, Ağcabədidə müvəqqəti məskunlaşan xocavəndlilər doğma torpağa üz tutacaq, 30 illik həsrətə son qoyulacaqdır. Xocavəndlilərin ağ günləri yenidən başlayacaq və sözsüz onlar Ağcabədini, ağcabədililəri də unutmayacaqlar...**

**Adil Misirl**
**Qarabağ üzrə bölgə müxbiri**

# Penitensiar xidmətdə keçirilmiş bir görüşdən REPORTAJ

**Ədalət keşikçisi olan ƏN-nin, Penitensiar xidmət əməkdaşlarının doğma qəzeti olan "Ədalət" qəzetinin yayımını nəzərə almaqla, Reportajın gecikmiş olduğunu yəqin ki, üzürlü hesab edər, anlayışla qarşılayarsınız.**

Təvazökarlıqdan uzaq olsa da, qeyd edim ki, mənim söz ehtiyatım kifayət qədərdir və heç vaxt necə deyərlər, söz üçün cibə girmirəm. Amma və lakin barəsində yazacağım bir görüş o qədər xoş və dərin təəssürat yaradıb ki, hələ uzun müddət bu təəssürat məni izləyib düşüncəmi məşğul edəcək . Ona görə də mən reportaj formasına müraciət etmək,elə lap əvvəldən başlayıb hadisələri ardıcıllıqla yazmaq qərarına gəldim.

Beləliklə, bir neçə gün əvvəl mənə PX-dən zəng gəldi ki, dekabrın 30-da səhər saat 11-00-da PX-nin təqaüddə olan keçmiş əməkdaşları ilə PX rəhbərliyinin görüşü keçiriləcək və mən də bu görüşə dəvətliyəm.

Bu yerdə bir haşiyə çıxmaq istərdim. Mənim rəhmətlik əmim də, hazırda səksəndən yuxarı yaşı olan dayım da PX-də xidmət etmiş, Cəzaçəkmə Müəssisəsinin rəisi olmuşlar. Buna görə də, mən həm onların söhbətlərindən, həm də özüm qırx ildən artıq PX-də qulluq etdiyimdənbilirəm ki, belə görüşlər heç vaxt keçirilməyib. Uzun müddət PX-də xidmət etmiş bizlər təqaüdə çıxdıqdan sonra həmişə özümüzə qarşı bu xidmət tərəfindən biganəlik, ögeylik hiss etmişik. Birdəfəlik unudulmuşuq. Heç vaxt qayğılarımızla, problemlərimizlə maraqlanan olmayıb. Uzun illərimizi həsr etdiyimiz, zəhmət çəkdiyimiz, çətinliklərini daşıdığımız, bölüşdüyümüz bir idarə tərəfindən gördüyümüz biganəliyə, unutqanlığa görə vallah dost-tanış, ailə-uşaq yanında da adamın dili gödək olurdu, qınanırdıq.Buna görə də, görüşə dəvət olunan təqaüdçü həmkarlarımızlazəngləşir və görüşün təşkilini təqdir edir, alqışlayırdıq. Biz camaatın arasındayıq və buna görə də cəmiyyətdən, mətbuatdan, son vaxtlar PX haqqında gedən söhbətlərdən, mətbuatda dərc olunan məqalələrdən bu qurumda aparılan müsbət islahatların, CM-lərdə yaradılan şəraitin təqdir olunduğundan xəbərdar idik. Buna görə də, görüşün xoş keçəcəyini, sürpriz bir görüş olacağını təxmin edirdik.

Təyin olunan gün və saatda PX-nin inzibati binasının qarşısında kiçik dəstələrlə toplaşıb həyətə daxil olmağa başladıq. Təəssüratlar, təəccüblər, təqdirlər də elə kandardan başladı. İnzibati binanın inanılmaz dərəcədə necə gözəl və zövqlə təmir olunduğu, üstəlik də əlavə, ayrıca bir geniş, zövqlə tərtib olunmuş, müasir avadanlıqlarla təchiz edilmiş iclas zalının tikildiyivə bütün bunların yeni PX rəisinin təyin olunduğu çox qısa müddət ərzində həyata keçirildiyihəqiqətən təəccüb doğurdu.

Həyətin təmizliyi, səliqə-sahmanı, bizi təbəssümlə qarşılayan əməkdaşların şux duruşu, hərbi salamla bizi qarşılayıb müşayiət etmələri, geyimlərinin, üst-başlarının nizamı çox xoş təsir bağışladı. Yeni tikilmiş iclas zalı yerləşən binanın qarşısında PX-nin-yeni təyin olunmuş rəisi, Ədliyyə Nazirinin müavini general-mayor Mir Saleh Seyidov hamını şəxsən qarşılayıb görüşür, hal-əhval tutub içəri dəvət edirdi.

Təxminən hamı toplaşdıqdan sonra M.Seyidov dəhlizə daxil olub hər kəsi ayrıca otaqda hazırlanmış çay süfrəsinə dəvət etdi. Süfrə arxasında cənab general hər kəsə yaxınlaşıb söhbət edir, bir daha səhhəti, işləri ilə maraqlanırdı. Dəvət olunan, uzun müddət bir yerdə xidmət etmiş, artıq on səkkiz, iyirmi, daha artıq müddətdir ki, bir-birini görməyən keçmiş həmkarların necə görüşdüklərini, necə kövrəldiklərini, təsirləndiklərini, doluxsunduqlarını sözlə ifadə etmək mümkün deyil...

Çaydan sonra ümummilli liderimiz H.Əliyev guşəsində şəkillər çəkdirdik. Mir Saleh müəllim heç kəsə etiraz etmir, hər kəslə şəkil çəkdirir, özünü o qədər sadə və səmimi aparır, elə bir şərait yaradırdı ki, kimsə çəkinmir, hamı özünü rahat, öz yerində hiss edirdi. Heç bir gərginlik yox idi.

Daha sonra hamı zala dəvət olundu və... Burada daha bir xoş sürprizlə qarşılaşdıq. Zalın yarı hissəsində şıq forma geyinmişgənc əməkdaşlar əyləşmişdi. Sonra, iclas zamanı Mir Saleh müəllimin məruzəsindən həmin əməkdaşların xidmətə yenicə qəbul olunmuş orta və kiçik rəis heyəti olduğunu, bir gündən sonra - 01 yanvar 2024-cü ildən əmək fəaliyyətinə başlayacaqlarını öyrəndik. Yeri gəlmişkən deyim ki, bildiyim qədəriylə, PX tarixində bu gənc, enerji dolu gənclər ilk dəfə olaraq şəffaf, aşkar, demokratik şəraitdə keçirilmiş müsabiqə yolu ilə xidmətə qəbul olunmuş əməkdaşlar idi. Bunu mətbuatdan bilirdik və mənim də bu barədə qəzetdə məqaləm dərc olunmuşdu. Sürpriz təkcə onda deyildi ki, biz təqaüdçülərlə, PX veteranları ilə gənc əməkdaşlar canlı təmasda olub bizim tövsiyələrimizi dinləsin. Biz zala daxil olan kimi onlar hamısı ayağa qalxıb alqışlarlabizi qarşıladı.Bəlkə də, "burda nə var ki", "bunun harası sürprizdir" və s. deyənlər olacaq. Ancaq inanın ki, bu alqışlar çox gözlənilməz olduğu qədər, doğurduğu hisslər də çox xoş idi.



Görüşü giriş sözü ilə PX-nin rəisi general-mayor M.Seyidov açdı. Şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad etdikdən sonra hamını salamlayan, Yeni İl və Dünya Azərbaycanlılarının həmrəylik günü münasibəti ilə təbrik edən Mir Saleh müəllimin lakonik, mötədil olduğu qədər də dolğun olan çıxışını dinlədikdən sonra bir çoxumuz onu fikirlərini çox səlis, aydın, sərbəst, savadlı ifadə edən natiq kimi yenidən tanıdıq. 44 günlük müharibədə və 24 saatlıq antiterror əməliyyatında misli görünməmiş qələbəmizdən, ölkə başçısı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin əksər dünya dövlətlərinin, supergüclərin təzyiqlərinə necə sinə gərdiyindən, onlarla təkbaşına döyüşdüyündən, dünya miqyasında tanınmış xarici jurnalistlərə verdiyi müsahiblərdə onları necə susdurduğundanbəhs edən Mir Saleh Seyidovqarşıda duran Prezident seçkilərindən, bu istiqamətdə PX-nin üzərinə düşən vəzifələrdən danışaraq bu vəzifələrin öhdəsindən layiqincə gəlinəcəyinə,biz təqaüdçülərin və çoxsaylı PX kollektivinin seçkilərdə fəal iştirakına əminliyini ifadə edərəköz müavinlərinə və PX-nin şöbə rəislərinə müraciət etdi:

- Bu gündən etibarən bir nəfər belə PX təqaüdçüsü özünü bu idarəyə yad hiss etməməli, heç birinizdən ögey münasibət görməməlidir. Mən başda olmaqla, hər kəsin xidməti otağının qapısı hər zaman hər birinin üzünə açıq olmalıdır. Bunu mən xahiş, tələb və əmr edirəm. Yadınızda saxlayın ki, bu gün bizim PX üçün gördüyümüz və bundan sonra görəcəyimiz işlər, qarşınızdakı veteranların gördüyü işlərin cüzi bir hissəsidir. Onlar bizdən daha ağır, daha çətin şəraitdə xidmət aparıblar. O zamanlar CM-lərdə bugünkü, beynəlxalq səviyyəli şərait yox idi. Unutmayaq ki, zaman gələcək, biz də təqaüdə çıxacağıq və əgər biz uzun müddət PX-də xidmət etmiş bu gördüyünüz veteranların əməyinə qiymət verib qayğıları ilə maraqlanmasaq, bir vaxt bizi də yada salıb maraqlanan olmayacaq.

Hörmətli veteranlar, həmkarlar, bundan sonra belə görüşlərin tez-tez keçiriləcək. Hər biriniz istədiyiniz vaxt ərklə bu idarənin qapısını aça bilərsiniz. Hər birinizin qayğı və problemləri ilə maraqlanılacaq. Bütün bu işlərin daha keyfiyyətli, daha operativ həyata keçirilməsi, əlaqələndirilməsiüçün Veteranlar Şurası yaratmağı qərara almışıq və hazırda PX rəhbərliyində bu istiqamətdə məsləhətləşmələr aparılır. Mir Saleh müəllimin çıxışı alqışlarla qarşılandı və inanın ki, bu alqışlar bir vaxtlar Kommunist Partiyasının qurultaylarındakı məcburi, süni, "boğazdan yuxarı" alqışlardan fərqli, səmimi, ürəkdən gələn alqışlar idi.

Daha sonra təqaüdçülərə söz verildi. Hər kəsin ürəyi minnətdarlıq hissi və sözlə dolu idi, hər kəsin ürəyindən çıxış etmək, təşəkkürlərini çatdırmaq keçirdi və çıxış edənlər də ilk öncə belə görüşün, həm də yüksək səviyyədə təşkili üçün təşəkkürünü ifadə edir, təqaüdə çıxdıqdan sonra ilk dəfə olaraq PX-də özlərini öz evində olduğu kimi hiss etdiklərinibildirir, zaldakı gənc əməkdaşlara tövsiyə və məsləhətlərini verirdilər.

Çıxışlardan sonra isə daha bir sürprizlə qarşılaşdıq. Bizə bir videoçarxnümayiş olundu. General Mir Saleh müəllim nümayişdən əvvəlbu çarxın hazırlanmasınınçətinliklərindənbəhs etsə də, biz özümüz də bunun necə ərsəyə gətirildiyinə həqiqi mənada çox təəccübləndik. Belə ki, görüşdə iştirak edənlərin hər birinin leytenant vaxtından tutmuş son vaxtlara qədər ardıcıllıqla tək və müxtəlif CM-lərdə birlikdə xidmət etdikləri əməkdaşlarla fotoşəkilləri bu video çarxda toplanmışdı. Onu hazırlamağın çətinliyi isə onda idi ki, sürpriz olsun deyə, hazırlıq prosesi məxfi olduğundan iştirakçılardan fotoşəkil istənilməmişdi. Bu qədər fotonu axtarmaq, seçmək, əldə edib sıralamaq mən deyərdim ki, bəlkə də fədakarlıq idi. Biz təqaüdçülərə bir neçə dəqiqəlik sevinc, nostalji hisslər yaşatmaq naminə olan fədakarlıq.

Bir çoxumuzun etiraf etdiyi kimi, bəzi şəkillərimizinmöcudluğunu, nə zaman, hansı şəraitdəçəkildiyini özümüz belə unutmuşduq. PX isə onları üzə çıxarmış, əldə etmişdi. Əvvəldə qeyd etdiyim kimi, görüşdə yaradılmışsərbəstlik, təbiilik mühitində videoçarxın nümayişi müddətində hər kəs emosiyalarını, hisslərini büruzə verirdi. Yanaşı oturanların bir-biri ilə bəzən təbəssümlə, bəzən sevinclə, heyrətlə, həyəcanla, bəzən köks ötürməklə, bəzən kövrəkliklə, titrək səsləetdikləri: "bax, bu mənəm", "ona bax, ona bax, filankəsdir", "bu şəkli filan CM-də işləyəndə çəkdirmişdik", "ortadakı rəhmətlik filankəsdir, sağdan ikinci mənəm" və s. bu kimi pıçıltıları, nidaları eşidilirdi. Hər kəs çox təsirlənmişdi, hər kəs vəcdə gəlmişdi, hər kəs görüşün yüksək səviyyədə təşkilinə heyran idi.

Videoçarxın nümayişi bitdikdən, zalın işıqları yandıqdansonra da hələ bir neçə dəqiqə hamı onun təsiri altında idi və minnətdarlıq, məmnunluq əlaməti olaraq əl çalırdı.

Bu məqamda general M.Seyidov-bizlər üçün hədiyyələrin hazırlandığını elan edərək onların paylanmasına göstəriş verdi. Hər kəs çoxdan arzuladığı oyuncağı əldə etmiş uşaq kimi idi. Yox, məsələ təkcə hədiyyədə deyildi, zira bağlamada nə olduğundan hamı xəbərsiz idi. Məsələ bizə göstərilən diqqətdə, uzun illər sonra xatırlanmağımızda, yeni və gözəl bir ənənənin təməlinin qoyulmasında idi. Son olaraq cənab nazir müavini bir daha hər kəsə həyatda uğurlar arzulayıb daha bir sadəlik, səmimilik nümayiş etdirərək hamını birlikdə, kollektiv şəkil çəkdirməyə dəvət etdi. Bəli, xoş, yekunlaşmasınıistəmədiyimiz, uzun müddət xatrələrdə qalacaq görüş başa çatdı. General M.Seyidov hər kəslə əl verib görüşərək sağollaşdı...



Bax, budur məmurun öz yerində olmağı. Bax buna görəM.Seyidiov PX rəisi təyin olunanda nəinki hazırkı və keçmiş əməkdaşlar, hətta məhkumlar belə bu təyinatı alqışlayır, ona uğurlar arzulayırdı.

Bax buna görə, PX-nin yetirməsi olduğundan problemlərə "içəridən" bələd olduğuna görə M.Seyidovunrəhbərliyi altında PX-nindaha böyük uğurlara imza atacağına, daha böyük nailiyyətlər əldə edəcəyinə hər kəs inanırdı.Çox-çox sevindirici haldır ki, gümanımızda yanılmamışıq.

Cənab generalın, tətbiq etməyi düşündüyü daha bir layihəni - Veteranlar şurasının yaradılmasını alqışlayır, onun uğuruna indidən inanırıq. CM-lərdə qanunların aliliyinin gözlənilməsində, Cəza-İcra qanununun,daxili normativ sənədlərin tələblərinin dəqiq yerinə yetirilməsi, gənc əməkdaşların hazırlanması istiqamətində başladığınız işləri təqdir edir və bildirmək istəyirik ki, bu sahədəki zəngin təcrübəmizlə əlimizdən gələn, gücümüz çatan köməyi etmək üçün hər an əmrinizə müntəzirik.

Bildiyiniz kimi, təqaüdçülər arasında sağlam düşüncəli, savadlı, zəngin təcrübəsi olan və bu təcrübəni gənc əməkdaşlarla həvəslə bölüşməyə hazır olan kifayət qədər, yetərincə şəxslər var və belə şəxslərdən formalaşmış heyəti, üzvləri olan bir şura bir çox məsələlərin həllini tənzimləyə bilər - gənc əməkdaşlarla təcrübəli veteranların görüşlərini və müəyyən mövzularda sırf təcrübəyə söykənməklə, praktikada rast gəlinmiş qeyri standart situasiyalara istinad etməklə söhbətlərin aparılmasını təşkil edə bilər.

Məlumdur ki, CM-lərdə əməliyyat fəaliyyəti yeni cinayətlərin törədilməsinin və qanun pozuntularının qarşısının alınmasında, bağlı qalmış cinayətlərin açılmasında və s. bu kimi bir çox vacib məsələlərin həllində mühüm rol oynayır. O da məlumdur ki, bu fəaliyyət gərəkli olduğu qədər də çətindir, mürəkkəbdir və incə, özünəməxsus, məsuliyyətli yanaşma tələb edir. Təqaüdçülərin sırasında əməliyyat fəaliyyətinin incəliklərinə dərindən bələd olan, vaxtı ilə həyata keçirdikləri müxtəlif əməliyyat kombinasiyaları barədə indi də danışılan əməliyyatçılar var. Onların potensialından niyə də istifadə olunmasın? Mən dəqiq bilirəm ki, hazırda PX-də gənc əməkdaşların yetişdirlməsinə, qanunvericikdə olan yenikilərinöyrənilməsinə, peşəkarlıqlarınınartırılmasına xüsusi diqqət ayrılır, seminarlar keçirilir, kurslar təşkil olunur. Amma, nəzəriyyə başqa, praktika başqa. Bir də ki, keçmiş əməkdaşlarla ünsiyyətdə olmaq özü bir məktəbdir, nəzəri biliklərin praktikada tətbiqini, özü də əyani nümunələr çəkməklə onların dilindən eşitmək daha maraqlı olmaqla, həm də zənnimcə,daha tez və rahat qavranılar. Bəli, hörmətli həmkarlar, PX-nin idarəçiliyi əmin əllərdədir. General M.Seyidovunölkə başçı, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin öhdəsindən layiqincə gələcəyinə, ona göstərilən etimadı tam doğruldacağınaheç bir şübhə ola bilməz.

Hər şeyə görə çox sağ olun, cənab general. Bizi yada saldığınıza, uzun illər xidmət etdiyimiz PX-ninyadlaşmadığına, hələ də bizə doğma olduğuna bizi inandırdığınız üçün, uzun illərdir ki, görüşməyən sabiq həmkarları görüşdürdüyünüz üçün, bizə nostalji hisslər yaşatdığınız üçün, yüksək şəkildə təşkil olunmuş görüş üçün, qayğı və diqqətiniz üçün, heç vaxt unudulmayacaq xoş təəssürat üçün, işlərinizin çoxluğuna baxmayaraq bizə vaxt ayırdığınız üçün, çox gərəkli, çox lazımlı bir ənənəyə imza atdığınız, bünövrəsini, təməlini qoyduğunuz üçün, uzun illərimizi həsr etdiyimiz PX-nin nüfuzunu yüksəltdiyiniz üçün biz təqaüdçülərin sizə sonsuz təşəkkür və minnətdarlığını bildirirəm.

Ömrünün yarıdan çoxunu paqongəzdirmiş şəxslər kimi dövlətimizin, dövlətçiliyimizin, vətənimiizin, müstəqilliyimizin, azadlığımızın, möhtəşəm qələbəmizin qorunub saxlanmasında, keşiyində daima möhtərəm Prezidentimizin əsgərləri kimi hazır olduğumuzaəmin ola, bizə güvənə bilərsiniz.

**Cənab general! Hörmətli PX-nin çoxsaylı kollektivi, bir daha bayramınız mübarək! Bir daha çətin və gərginolduğundan da artıq gərəkli və şərəfli fəaliyyətinizdə yeni-yeni uğurlar arzusu ilə,**

**Adəm Əkbərov**
**Təqaüddə olan ədliyyə polkovniki - leytenantı**

## Mustafa Çəmənlinin "ÖLÜM MƏLƏYİ" tarixi romanı təkrar çap olundu




**Yeni ilin ilk günlərində "Təhsil", öz sadiq oxucularını sevindirib.**

Belə ki, naşiri Tural Axundov, redaktoru Sevinc Nuruqızı və Rəssamı Yaşar Səmədov olan "Ölüm mələyi" romanı təkrar çap olunmuşdu.

Xatırlatmaq istərdik ki, tanınmış yazıçı,"Xallı gürzə","Səs qərib olmur", "Fred Asif","Ruhların üsyanı", "Üç yaşlı əsr" və başqa dəyərli bədii əsərlərin müəllifi Mustafa Çəmənlinin"Ölü mələyi tari romanında Azərbaycan tarixinin çox mürəkkəb və ziddiyyətli bir dövrü təsvir olunur. Romanda I Şah Təhmasibin ömrünün son günləri,onun ondoqqu il alt a iyirmibir gün Qəhqəh qalasında dustaq etdiyi oğlu İsmayıl Mirzənin hakimiyyətə gəlməsi və fəaliyyəti öz əksini tapmışdır.

"Ölüm mələyi" romanının süjet xətti tarixi romanlara xas ənənəvi döyüş səhnələri ilə deyil, saraydaxili ziddiyyətlər, insan münasibətləri, hakimiyyəti əldə etmək və onu qorumaq uğrunda mübarizə yolları ilə səciyyəvidir.

Səfəvilər xanədanının böyük bir dövrünü əhatə edən bu romanda I Şah Təhmasib, II Şah İsmayıl, Pərixan bəyim, Gövhər bəyim, İbrahim mirzə, Hüseynqulu Xüləfa və başqa tarixi şəxsiyyətlərin dolğun bədii obrazları yaradılmışdır.

Roman 2012-ci ildə "Azərbaycan" jurnalının 4,5,6-cı nömrələrində, elə həmin ildə də kitab halında çap edilmişdir.

Roman 2013-cü ildə Mədəniyyət və Turizm Nazirliyinin "Qızıl Kəlmə" ədəbi mükafatına layiq görülmüşdür.

## "Yazıçını marketdə Koka-Kola alan görsə, başını bulayır ki, ayıb olsun"



**"Bizim bioqrafiya ədəbiyyatımızda, az qala, bircə nəfər də səhv edən, peşman olan, yemək yeyən, sevişən, nəfəs alan insan yoxdur; sanki hamı eləcə öz missiyasını yerinə yetirmək üçün proqramlaşdırılmış android-dir".**

Adalet.az xəbər verir ki, bu sözləri şair, esseist Qismət Rüstəmov deyib. O, oxucuların yaddaşında daşlaşmış şair, yazıçı obrazı barədə danışıb.

"Bu ağlasığmaz ideallaşdırma kultuna, əndazəsiz romantikləşdirmə meylinə görə "sosrealizmə" immuniteti indi-indi formalaşan oxucu, tutalım, yazıçını marketdə Koka-Kola alan görsə, başını bulayır ki, ayıb olsun, sənin yaşında Süleyman Rüstəmin Təbriz dərdinə görə boğazından su keçmirdi.

Bu cür mistifikasiyalar təkcə bizdə olmayıb, məsələn, Kafkanın obrazı da uzun müddət qaşqabaqlı, cinsi baxımdan infantil sənət şəhidi olub.

Ancaq Ceyms Housun "Həyatınızı məhv etməmişdən qabaq niyə Kafka oxumalısınız?" kitabı həqiqi arxiv materialları və dürüst üslubla göstərdi ki, Kafka tez-tez pritona gedir, porno jurnallara abunə olur, yeyib-içir, gündə cəmi 6 saat işləyib yaxşı maaş alırdı, atası yüksək dairələrdə yaxşı əlaqələri olan milyoner idi. Əsərləri də ölümdən sonra yox, elə sağlığında çap olunmuşdu, intellektual çevrədə rəğbət görürdü. Və bütün bunlar onun unudulmaz, dərin sənət əsərləri yaratmasına əngəl olmamışdı".

**Emin**

---

**Zakir Bayramlı,**
**Şair-publisist, AYB və AJB-nin üzvü**



# DÜNYA "AĞ ÖLÜM"LƏ ÜZ-ÜZƏ

**Dünyada nümunəvi davranışı və normal fiziki, əqli və əxlaqı keyfiyyətləri ilə seçilən milyardlarla insan yaşayır. Həmin insanlar arasında şəxsi iradə gücünün köməyi ilə özünü sərbəst halda idarə etməyi bacaran, gecə-gündüz arzu və istəyinə çatmağa çalışan, tamah adlı namərd, ən təhlükəli və qorxunc düşməni cilovlamağa hünəri çatan yüz milyonlarla gənc var. Bu gənclərin bir hissəsi orta və ali məktəblərdə, eləcə də təhsilin daha yuxarı pillələrində öz biliklərini artırırlar. Gənclərin qalan hissəsi isə mədəniyyət, təhsil və səhiyyə müəssisələrində, eləcə də sənaye, kənd təsərrüfatı, nəqliyyat, tikinti və digər sahələrdə çalışırlar. Həmin gənc insanların məqsədi özlərinin qüvvə və bacarığı ,yüksək fərdi keyfiyyətləri ilə cəmiyyətdə mövcud olan çoxsaylı problemlərin həllində yaxından iştirak etmək və bu sahəyə öz töhfələrini verməkdir.**

Lakin dünyadakı sürətli inkişafa, artan texniki tərəqqiyə, yer üzünün daha gözəl olmasına biganə yanaşan, onun nailiyyətlərinə xələl gətirən, nəfsinin və tamahının qulu olan bəzi iradəsiz gənclər öz pis hərəkətləri ilə cəmiyyətin ad-sanına və nüfuzuna ciddi xələl gətirirlər. Bugünkü söhbətimizdə dünyada ən təhlükəli və zərərli vərdiş sayılan narkomaniyanın qurbanı olan və cəmiyyətimizin adına qara ləkə gətirən bəzi insanların, xüsusilə gənclərin qurşandığı bu pis vərdiş barədə sizə qısa söhbət açacağıq.

Narkomaniya- sözü yunan dilindən Azərbaycan dilinə tərcümədə bihuşluq, yuxu, cəzb etmə, ağılsızlıq,donub qalmaq,quruma vəziyyətinə gətirmə və s. kimi mənaları verir. Dünyada ilk dəfə narkotik vasitələrdən tibbdə istifadə olunub. Bu maddə insanın hisslərini, əhvalını, düşüncəsini dəyişdirmək və s. gücünə malikdir.

Narkomaniya özü insanda fiziki və psixi asılılıq yaradan bir xəstəlikdir.Narkotik vasitələr insanın mərkəzi sinir sisteminə spesifik formada mənfi təsir edərək qısa bir zamanda onda asılılıq yaradan maddədir. İnsanların maraq göstərdiyi zərərli vərdiğlərin içərisində ən təhlükəlisi hesab olunur.Çünki narkotik vasitə satanlar daim yeni müştəri axtarışında olurlar. Onların tora saldığı müştərilər içərisində daim həm maddi imkanı aşağı olan nadan gənclər, həm də imkanlı ailələrin ərköyün övladları olur. Narkotik vasitəyə alışmış insan özünün ağrı hissini azaltmaq və ondan tam azad olmaq, eləcə də bu bəladan yaxasını qurtarmaq üçün yenə də əlavə narkotik maddəyə ehtiyac duyur. Bu zaman maddi imkanı olmadığı halda həmin istifadəçi müxtəlif yalana, dələduzluğa, oğurluğa, qarətçiliyə, hətta adam öldürməyə və b. cinayət hərəkətlərini etməyə belə məcbur olur. Respublikamız müstəqillik dövrünə qədəm qoyduqdan sonra narkomanlığa və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə daha da gücələnmişdir. Bu mübarizəni ümumdövlət vəzifəsi kimi qəbul edən və dəfələrlə onun vacibliyini vurqulayan Ümummilli liderimiz Heydər Əliyev bu barədə belə demişdi: " Narkomaniya və narkobizneslə mübarizə hər bir ölkənin, xalqın, millətin, fiziki və əqli sağlamlığı uğrunda apardığı mübarizədir".

1992-ci ildə Azərbaycan Respublikası BMT-yə üzv olandan sonra respublikamız " Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə haqqında" BMT-nın 1988-ci il Konvensiyasına qoşulmuşdur. Ulu Öndəriniz 1996-cı ilin 26 avqustunda imzaladığı fərmanla ölkəmizdə 2000-ci ilədək narkomanlığın yayılmasına, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə üzrə Ümummilli Proqram təsdiq etmişdir.

Dahi liderin rəhbərliyi ilə həmin vaxtda ölkəmizdə Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyası yaradılmışdır.

Ulu öndərimiz Heydər Əliyev siyasətinin davamçısı Azərbaycan Respublika Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyev narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizəyə dair 2007-2012, 2013-2018 və 2019-2024-cü illərə dair Dövlət Proqramını təsdiq etmiş və bu proqramların ölkəmizdə vaxtında icrasının təmin olunması üçün müvafiq tapşırıqlar vermişdir.

Cəmiyyətin və ailənin hərtərəfli imkişafı yolunda böyük maneyəyə çevirilən narkomaniya barədə cənab Prezidentimiz İlham Əliyev belə demişdir: "Coğrafi mövqeyindən, ictimaisiyasi qu-ruluşundan, inkişaf səviyyəsindən, mədəni və tarixi əlaqələrindən asılı olmayaraq, elə bir ölkə yoxdur ki, dövrümüzün qlobal problemlərindən biri olan narkotiklərin qanunsuz dövriyyəsi ilə qarşılasmasın. Məlumdur ki, narkomaniya və narkobiznes insan cəmiyyətinin mənəvi və əxlaqi dəyərlərinə böyük zərbə vuran, sosial-iqtisadi inkişafa mənfi təsir göstərən, insanların həyat və sağlamlığına ciddi təhlükə yaradan, cinayətkarlığın artmasına səbəb olan amildir". Cənab Prezidentimizin yüksək təşkilatçılığı və rəhbərliyi sayəsində həyata keçirilən bu strategiya Azərbaycanda gənc nəsilin tərbiyəsinin daha da inkişaf etməsi, sağlamlığının qorunması sahəsində böyük uğurların qazanılması deməkdir.

Respublika üzrə rəsmi statistikaya əsasən son 5 ildə narkomanların sayı 10 dəfəyədək artıb. Son məlumata görə ölkəmizdə onların ümumi sayı 30 mindən çoxdur.

Turan İnformasiya Agentliyi Azərbaycanda narkomanların sayı haqqında açıqladığı məlumatda deyilir ki, 2019-cu ildə qeydiyyatda olan narkotik istifadəçilərinin sayı 32921 nəfər, 2020-ci ildə 33738 nəfər ( keçən illə müqayisədə artım 817 nəfər) , 2021-ci ildə 34602 nəfər ( əvvəlki ilə nisbətən artım 864 nəfər) olmuşdur. Respublikamızda qadın və uşaqlar arasında narkomaniya xəstəliyinə tutulanlar kişilərə nisbətən bir neçə dəfə azdır. Belə ki, 2019-cu ildə 641 nəfər, 2020-ci ildə 618 nəfər, 2021-ci ildə isə 566 nəfər qadın yeni qeydiyyata alınmışdır.

Agentliyin verdiyi məlumata əsasən Azərbaycanda qeydiyyatda olan narkotik istifadəçiləri arasında opioid tərkibli preparat istifadəçisi 24850 nəfər, kannabinoid istifadəçisi 9752 nəfər, fzixostimulyator istifadəçisi isə 3107 nəfər olmuşdur.

Respublikamızda "ağ ölüm" ün qorxunc statistikası olduqca faciəvi və dəhşətlidir. 2021-ci ildə Azərbaycanda olan 21012 nəfər məhbusun 5108 nəfəri ( və ya 24,3 %-i) narkotik vasitə ilə bağlı cinayətlərə görə həbs olunanlardır. Təkcə 2021-ci ilin son 2 ayında hüquq mühafizə orqanları tərəfindən qanunsuz yolla əldə edilən 38 milyon manatlıq narkotik vasitəni dövriyyədən çıxarılmışdır.Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin məlumatına əsasən 2022-ci ildə Azərbaycanda qeydə alınmış 36494 cinayət hadisəsi olmuşdur. Həmin cinayətlərin 10665-i və ya 29,2%-i narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlıdır. Bu rəqəm 2021-ci ilin göstəricisindən 24,4% çoxdur. 2022-ci ildə narkotik vasitələr və psixotrop maddələrlə bağlı 8587 nəfər şəxs cinayət törədib. Bu şəxslərin 34.4%-i əvvələr cinayət törətmiş insanlardır. Cinayət törədən şəxslərin 72,8%-i heç yerdə işləməyən və oxumayan şəxslərdir. Zərif cinsin nümayəndəsi sayılan qadınlar cinayət törədənlərin 2,7%-ni, 14-17 yaşlı uşaqlar 0,2 %-ni, gənclər isə 23.7%-ni təşkil edir. Hüquq mühafizə işçiləri tərəfindən 2022-ci ildə 50348 kiloqram narkotik maddə müsadirə edilərək dövriyyədən çıxardılmışdır.

Azərbaycan Respublikası Narkomaniya və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə qarşı Mübarizə üzrə Dövlət Komissiyasının İşçi Qrupunun yaydığı məlumata əsasən təkcə 2023-cü ilin yanvar-iyul ayları ərzində respublika hüquq mühafizə orqanlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində 6696 cinayət faktı aşkarlanmışdır.

BMT-nın Baş Assambleyasının 26 iyun 1987-ci il tarixli qərarı ilə hər il dünyada 26 iyunu-Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü kimi qeyd edilməsini elan etmişdir. Narkomaniya ilə bağlı Beynəlxalq Mübarizə Gününü qeyd etməkdə əsas məqsəd dünya ictimaiyyətinin diqqətini narkomaniya ilə əlaqəli olan problemlərə yönəltməkdən ibarətdir. Hər il dünya ictimaiyyəti ilə bərabər bütün aidiyyatı nazirliklər,komitələr və digər baş idarələr, QHT, həmçinin mədəniyyət, təhsi və səhiyyə təşkilatlarının çoxsaylı kollektivləri hüquq mühafizə orqanları ilə birlikdə Narkomaniya ilə bağlı Beynəlxalq Mübarizə Gününü yüksək təşkilatçılıqla qeyd edirlər. Həmin gün təbliğat-təşviqat işləri ilə yanaşı kitab və rəsm sərgiləri, sənədli filmlər nümayiş etdirilir. Narkomaniyanın cəmiyyətə və ailəyə vurduğu maddi və mənəvi-psixoloji zərər haqqında əhali geniş məlumatlandırılır. Keçirilən bütün tədbirlərin hamısı gənc nəsilin psixoloji və fiziki sağlamlığının artırılmasında müsbət nəticə verir. BMT-nın Narkotiklərlə Cinayətkarlığa qarşı Mübarizə İdarəsinin 2019-cu ildə verdiyi açıqlama ilə həyəcan təbili çalaraq dünya ictimaiyyətini məlumatlandırmaq üçün bildirib ki, dünyada 35 milyon narkotikdən asılı insanların əksər hissəsini 18-25 yaş arası gənclər təşkil edir.

15 aprel 2019-cu ildə respublikamızın paytaxtı Bakı şəhərində Narkotiklərlə Mübarizə üzrə XXXVI Beynəlxalq Konfrans keçirildi. Konfransda 115 ölkədən 432 nümayəndə iştirak edirdi. Konfrans xüsusi olaraq qeyd etdi ki, Azərbaycanda Narkotiklərlə Mübarizə sahəsində bir sıra mühüm işlər həyata keçirilib. Ən əsası Narkotiklərlə Mübarizəyə aid möhkəm hüquqi baza yaradılıb. Son 15 ildə, yəni 2003-2019-cu illərdə narkotiklərə qarşı 13 fərman, 56 sərəncam imzalanıb. Respublikanın Milli Məclisində 38 qanun qəbul olunub. Bir neçə dövlət proqramı hazırlanıb təsdiq olunaraq uğurla həyata keçirilmişdir. Son 5 ildə 8 ton 354 kiloqram qanunsuz əldə edilmiş narkotik vasitənin dövriyyədən çıxarıldığı həmin konfransda xüsusi olaraq vurğulanıb. Narkomaniya qarşı Mübarizə üzrə Dövlət Proqramı əsasında ictimaiyyət arasında, xüsusilə orta və ali məktətəblərdə yeniyetmələr və gənclər arasında, eləcə də Azərbaycan Ordusunda mütamadi olaraq geniş maarifləndirmə və təbliğat-təşviqat işləri ildən-ilə gücləndirimişdir.

Azərbaycan Respublikasının Prezidenti , Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə 2020-ci ildə şanlı ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı böyük qələbə fiziki və psixoloji cəhətdən sağlam olan gənclərimizin qəhrəmanlığı sayəsində əldə edildiyinin canlı nümunəsidir.

Narkomaniya bu gün də yenə bəşəriyyət üçün qorxunc bəla, ən böyük təhlükə mənbəi olaraq qalır.

O insanların sağlamlığını və mənəviyyatlarını məhv edərək onları canlı ölüyə çevirir. Bəzi narkotika istifadəçilərinin bir hissəsinin cinsi yolla hepatit C infeksiyasına yoluxması nəticəsində gənc ikən dünyalarını dəyişirlər.

**Dünyada "ağ ölüm" adı ilə məşhur olan narkomaniya sərhəd tanımır.İstənilən ölkədə öz atını çapır. Lakin ailə cəmiyyətin özəyi və mənəvi sərvəti, dünyanın gələcəyidir. Bəşəriyyət kiçik dövlətlər hesab olunan ailələri göz-bəbək kimi qorumağa borcludur. Ailələrin pis və zərərli vərdişlər səbəbindən dağılıb, məhv olmasına yol verilməməlidir. Tək-tək ölkələr ayrı-ayrılıqda deyil, bütün dünya birlikdə narkomaniyaya qarşı mübarizə aparmalıdır. Gənclərimizi bu cür qaniçən zərərli vərdişin təhlükəsindən qorumağa çalışaq! Ümumiyyətlə, gəlin hamılıqla həyatı zəhərləyən bütün zərərli vərdişlərə, o cümlədən, narkotiklərə "yox" deyək!**



# BAYAT



№ 1 (861)



*Əbülfət Mədətoğlu - 65*

## *Uzaq illərin ŞEİRİ*

Sən əkən gülləri mən sulayıram,
Gözümün nurunu sərib üstünə...
Təklikdən Boz qurd tək mən ulayıram -
Ağrılı sinəmi gərib üstünə...

İynəm tikiş tutmur,ruhum ilinmir
Qərarsız adam tək vaxtı ölçürəm...
Kipriyin ucunun nəmi silinmir -
Artıq hiss edirəm necə köçürəm...

Mənə ögey baxır. hərdən güllərin
Sanki günahkaram harda, nədəsə...
Sənsiz ötən ilin, ayın, günlərin -
Payıma düşübdü qəmi nədisə...

Bəlkə ya gələsən, ya göndərəsən
Bu incik güllərə öz təmasından...
Üzümü ümüdə sən döndərəsən -
Çəkilsin həsrətin göz səmasından...

...Əkdiyin güllərə həsrət yaşadıb,
Könlümə toxudun qəm naxışları...
Gəlib ötənləri başdan başlayıb -
Sən özün qurula nəm baxışları!..

## *Küləklər şəhəri*

Yenə ulayır külək
Şəhər küçələrində...
Biləcək nələr uçub
səhər, küçələrində -
Bakı...

Bir qaydasz döyüşün
Olub geniş meydanı...
İdarə edə bilmir -
külək donlu ”şeytanı” -
Bakı!

Pəncərələr az qalır -
küsüb getsin yerindən...
Bir təhər nəfəs alır
boğularaq , dərindən -
Bakı...

Əl uzadır adamın
gözünün dibinəcən...
Külək nəsə axtarır
adamın cibinəcən -
Bakı!..

Şikəst olur ağaclar
Aparır neçə damı...
Küləklər şəhərisən
sirrini bilir hamı-
Bakı!..

## *Bir havasızlıq anı*

Ağrı yükü çəkisizdi bu anın
Nə daş deyil, nə duz deyil, nə dəmir...
Kəsərini hiss etmirəm duanın -
Ürəyimə bu ağırlıq hey damır!..

Çiyinlərim qollarımın hayında,
Dizlərimin gücünə də şərikdi...
Allahımın mənə sevgi payında -
Sevən bilir , yer iki nəfərlikdi!

Ölçməsəm də qucağımın tutumun
Bilirəm ki, sığar onun dünyası...
Bircə anlıq ” Eşq havası” udumun -
İstəyəndə olmaz məni qınyası!..

Bir istəklə kökləndiyim bu ömür,
Əsirinə çevrilibdi bir anın!
Gözlərimə bulud gəlir , bəxt çönür -
Düşmür mənə tay havası buranın!..

***

Gah yuxuda, gah xəyalda, gah sözdə
Dayanıram mən üz-üzə özümlə....
Gah dağdayam, gah dərədə, gah düzdə -
Ovunuram oxuduğun sözümlə!..

Sağda da sən, solda da sən, öndə sən
İşığına büdrəmədən gəlirəm...
Vallah məni hansı səmtə döndərsən -
Qibləm harda olduğunu bilirəm!..

Zaman ölçüm üzündəki təbəssüm,
Məkan ölçüm görüş yeri uzunu...
Bu ölçülər içərsində tələsdim -
Görmək üçün hər anımda üzünü!..

İnancımı inamımla tənlədim
Yuxuda da, xəyalda da, sözdə də...
Ümüd dənin bircə bircə dənlədim-
Göyərtməkçün ürəyimdə, sözdə də!

## *Göz yaşları...*

Çöküb üzümə çən kimi,
Bitib ovcumda dən kimi!..
Məni görürsən, mən kimi -
Günahkar göz yaşlarında?!.

Sevgim olmayıb heç sir ki,
Dərd bizi niyə seçir ki?!,
Ağlımdan gəlib keçir ki -
Günah var, göz yaşlarında...

Dolan didədən duyulur,
Gözün dibində yuyulur!..
İçin-için də suyulur -
Gün, ahlar göz yaşlarında!

Boş deyilmiş yazı, qədər
Sevgi heç vaxt üzmür hədər!..
Məni elə mənim qədər -
Gün anlar, göz yaşlarında!..

## *Gücüm çatmır...*

Buludları sıxmağa,
damcıları yığmağa...
damcı, damcı çıxmağa -
göyə, gücüm çatmır ki...

Ulduzları dərməyə,
dərib telə sərməyə...
bu boşuna cərməyə -
heyə, gücüm çatmır ki!..

Ayın üzündən xalı,
günün çiyninden şalı...
almağa, keçid balı -
meyə, gücüm çatmır ki!..

Düşüb məndə ”do” ” si”-yə
əlim qalıbdı tiyə...
dönüb sormadın niyə -
nəyə gücüm çatmır ki?..

## *Gəlmir...*

Çəkilməz bir ”ah” borcum var,
Edilməz günah borcum var...
Qəlb deşən silah borcum var -
Ödəməyə əlim gəlmir...

Mən dinləyən nağıl hanı?!
Məndə həmən ağıl hanı?!
Əvvəl hanı, axır hanı -
Çoxdan deyib ”gəlim?” - gəlmir...

Hər anıma yetən özü,
Məni qoyub gedən, özü!..
Məni dəli edən özü -
Olub dəli,- dəlim gəlmir!..

Bu yaşamın tamı, dadı
İtib. qalıb quru adı!
65-im qapıdadı -
Dönüb geri, əllim gəlmir...

## *Bir şəkilə etirafım*

Gecikmiş məktub kimiyəm -
Oxunmuram...
Qəm didib yeyir içimi -
Toxunmuram...
Yorulmuş atın tərkin
Buraxmır, ömür sərgin!
Mən ,istədiyin hər gün -
Doğulmuram!
Bu sirr yad deyil dilə,
Deyim bil, bilə -bilə
Asırsan saçın ilə -
Boğulmuram...
Sınasan da hər necə,
Qoşulmuram hər köçə!
Kölgə deyiləm , gecə -
Yox olmuram!..

## *Duyğular*

Gözüm yola sancaqlı,
Qulağımsa bir səsə...
Ən əziz adam olur -
Müjdə!- verən hər kəsə.

Fikrin qərarsız anı,
Canı üzür, an, canı!
Arayıram dörd yanı -
Tapmaq üçün hər nəsə!..

Məni məndə ”mat” edən,
Duyub olur ”mat” yetən !..
Görüş yerinə gedən -
Yolu salsam da kəsə!..

Ağrılarım kükrədi,
Qalan ömrüm fitrədi!..
Zildə səsim titrədi -
Son ümüd qaldı pəsə...

## *Bir az da...*

Elə istəyirəm söhbətə çəkib,
Ürəklə aranı açım bir az da...
Görəndə gözümü bir yerə tikib -
Kövrəlib üstünə qaçım...bir az da...

Hələ ki , işləkdi ”Ah”-ın körpüsü,
Başımı ”get-gəl”-lə qatım bir az da...
Hələ ki, açıqdı ”Şahın körpüsü” -
Özümü oradan atım bir az da...

Cəhd etdim açmağa göyün yaxasın -
Birinci mən olum burda bir az da...
Məni dəli edən öyün yıxılsın -
Qaldır qoy dolaşım orda bir az da...

Həyat nəzərimdə guya nağıldı -
Bunu uydurmuşam özüm bir az da...
Sonda mənə qalan guya ağıldı -
Elə bu ağılla dözüm bir az da...

## *Kirpiklərimin*

Tənhalıq tökülür, bax, üz-gözümdən
Dibi də qırışıb kirpiklərimin...
Gözümdən süzülən yaşın üzündən -
Dibi də sıxlaşıb , kirpiklərimin...

Ovcumun içiylə ovub baxıram,
Ələyib baxıram, sovub baxıram...
Guya tənhalığı qovub baxıram -
Sırası qarışıb kirpiklərimin...

Ayağı büdrəkmiş atdığım sözün,
İlğıma aldanıb satdığım sözün!..
Hər gün marığına yatdığım sözüm -
Bəxtiylə barışıb, kirpiklərimin!

## *Hələ də...*

Vərəqləri saralmış
Bir köhnə dəftərim var...
Dəftərdən aşıb -daşan
O qədər səflərim var -
Hələ də davam edir!..

Zamanın xəlbirində
Ələndiyim vaxt olub...
Anların hər biri də
Sonda mənə bəxt olub -
Hələ də davam edir!..

Canda qəm kirkirəsi
Ruhda sevgi fırlanıb...
Ürəyimdə hərəsi -
Öz kefinə tırlanıb -
Hələ də davam edir...

Üz sürtdüyüm divar da,
Öpdüyüm daş dadında...
Su umduğum cuvar da ,
Bilir, kim var yadımda -
hələ də davam edir...

## *65...*

Döyür ağır-ağır, döyür aramla
Həm addım səsiylə, həm nəfəsiylə...
Əlimi sıxmağa qərar veribdi -
Daha açıq-aşkar bəy həvəsiylə -
65...

Yolun düzdən salıb, dağdan yenibdi
Duman da bürünüb, arada çən də...
Yerimi görəsən hardan bilibdi -
Durub görüşümə gəlibdi kəndə -
65.

Ağır taxtalıdı baxanda belə
Dillənib söyləmir bir kəlmə ”yox, hə”!
Maraqdan girincəm özüm də elə -
Məndə bəyənməli nə görübdü, nə -
65?

Gəlibdi, qoy olsun Allah qonağı
Durram qulluğunda bir il də onun!
Var mənim ömrümdə qonaq otağı -
Orda qarşılayar özünün sonun -
65!

## *Xankəndidə sancılan bayrağıma səcdələrlə*

Bu payız ömrümün baharı oldu,
Gözü aydın olsun torpağın, daşın!..
QƏLƏBƏ əbədi vüqarı oldu -
Sildi Qarabağım, gözünün yaşın!..

Səksəndi bu yurdun kövrək ürəyi,
Açdıq müjdə ilə nurlu sabahı!
Çıxardıb əynindən işğal köynəyin -
Xanın kəndi oldu İLHAM şəhəri!

Axır ki, duruldu yurdun səması -
Dualar selləndi şəhid adına!
Əsgər oğulların Vətən anası -
Təbəssüm sarıdı yaralarına!

Qürura bələndi Vətən büsbütün,
Ürəyim fərəhdən dalğa yarırdı...
Bayraq da yerinə qayıtdığıyçün -
Sonsuz fəxarətlə dalğalanırdı!!!

# İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

№ 1 (2375) 12 yanvar 2023-cü il


# YURD YERİ ŞİRİN OLUR



**Deyirlər ki, dünyada Vətəndən və anadan şirin heç nə yoxdur. Təbii ki, bu fikrin səmimiliyinə heç kəs şübhə eləyə bilməz. Ən azından ona görə ki, kimsə elindən-obasından, evindən-eşiyindən çox yox, bir ay, iki ay uzaq düşəndə darıxır və el dilində demiş olsaq, evi üçün burnunun ucu göynəyir. Yəqin ki, bu hissləri çoxlarınız yaşamısınız və keçirmisiniz.**

Baxanda görürük ki, 30 il ev-eşiyindən, kəndindən ayrı düşmüş insanlar hansı müsibətləri və çətinlikləri yaşayıblar. Bu müsibətlər və çətinliklər heç də həmin insanlar üçün asanlıqla keçməyib. Çünki Vətən dərdindən, yurd yeri həsrətindən çoxlarının ürəyi tab gətirməyib və partlayıb.



Bir milyondan çox qaçqın və məcburi köçkün aydındır ki, hamıdan çox Vətən və yurd yerinin həsrətini çəkiblər. Əlbəttə, bütün bunlar bayaq dediyimiz kimi heç də təsirsiz və izsiz ötüşməyib. Başqa sözlə emiş olsaq, qaçqınlıq hər bir məcburi köçkünün həyatında ağrılı-acılı və sağalması çətin olan yaralar qoyub.

Və nə yaxşı ki, 2020-ci ilin sentyabrın 27-dən noyabrın 10-a qədər davam edən İkinci Qarabağ savaşı oldu. Bu savaş nəticəsində işğal altında olan Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Ağdam, Laçın, Kəlbəcər rayonları işğaldan azad edildi. Həmin yaşayış yerlərinin işğaldan azad edilməsi o demək idi ki, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyev və Ordumuz xalqımızı 30 illik Vətən həsrətindən xilas etdi. Üstəlik də xalq da bu ağır günlərdə Ali Baş Komandanın və Azərbaycan Ordusunun yanında oldu. Bir daha təsdiq edildi ki, xalq və dövlət bir olanda ölkəmizə heç bir yadelli zərər toxundura bilməz. Əksinə, dərsini alar və ibrət götürər.

Bax beləcə, torpaqlarımız işğaldan azad olunandan sonra, 30 il Vətən həsrətiylə yaşayan minlərlə sakin öz doğma ocağına dönüş etdi. Bu dönüş Zəngilanda, Laçına, Füzulidə və eləcə də digər azad olunmuş rayonlarda başladı. İlk dəfə dönüş edən Zəngilanın Ağalı kəndinin sakinləri oldu. O sevinci, Vətən yurdunun duyğularını öncə onlar hiss etdilər. Hiss etdilər ki, doğrudan da ikinci dəfə Vətən dönmək nə qədər xoşbəxtlik imiş. Onlar bu xoşbəxtliyi təsəvvür belə edə bilmirdilər. Amma təsəvvür edə bilmədiklərini onlar Ali Baş Komandan İlham Əliyevin və Azərbaycan Ordusunun qələbəsiylə bu sevinci yaşadılar və gördülər.

Bu sevinci yaşayanlardan bir neçəsini mən də yaxşı tanıyıram. Artıq Füzuli şəhərinə 3-cü dəfə köç karvanı gəlib və onların hər biri dövlətimiz tərəfindən inşa edilmiş və istifadəyə verilmiş yaraşıqlı mənzillərdə yaşayırlar. Natiq Məmməd oğlu Əliyev də Füzuli şəhərinin yeni köçmüş sakinlərdən biridir. Natiq qardaşımız deyir ki, mən düz otuz il Füzuli həsrətiylə yaşamışam.

Amma heç vaxt ümidimi üzməmişəm. Düşünmüşəm ki, nə vaxtsa geri dönüş edəcəyik. Qaçqınlıq dövründə gecələr Füzuli yuxuma girirdi. Yuxudan qalxıb hönkür-hönkür ağlayır və bunu balalarıma bildirmirdim. Çünki onlar görərdi ki, mən ağlayıram, pis olardılar. Ona görə ki, valideynin ağlamağını görən övlad çox ümidsiz olur. Amma mən onlarla söhbət edəndə həmişə təsəlli verirdim və bildirirdim ki, darıxmayın, hər bir qaranlıq ömrün işıqlı anları da olur. Təsəlli verməyimə baxmayaraq, uşaqlarım darıxırdı.

Onların ikisi beş-altı yaşı olanda Füzulidən çıxmışdıq. Geri qayıdanda, birinin 35, digərinin 36 yaşı vardı. Özü də deyim ki, onlar İkinci Qarabağ uğrunda gedən döyüşlərdə iştirak ediblər. Tək mənim deyil, yaxın qonşularımın bir neçə övladı da İkinci Qarabağ döyüşündə ermənilərə qarşı qəhrəmancasına vuruşub, şəhid olanlarımız da var. Allaha and olsun, onların heç birini tək qoymuruq. Üstəlik də bu gün biz bu torpağa qayıtmışıqsa, şəhidlərin və qazilərin qanı hesabına geri dönmüşük. Bütün daşlarda, qayalarda, otlarda, çəmənlərdə, çiçəklərdə onların ətri hiss olunur. Hətta bizim yaşadığımız bu mənzillərdə belə şəhid ruhları dolaşır. Hər səhər yuxudan qalxanda "Məngələnata" yüksəkliyinə baxıb, şükür eləyirəm, deyirəm ki, İlahi, nə yaxşı ki, Ərgünəşi, Məngələni, Köndələni görməyi bizə qismət elədin. Biz o dağlara, o göllərə, o yüksəkliklərə baxıb sevinirik və eyni zamanda o yerlərən şəhidlərimiz və qazilərimizin ətrini, qoxusunu hiss edirik. Hiss edirik ki, Vətən uğrunda həlak olan bu qəhrəmanların ruhları yurd yerində dolaşır.

Müəllim, onu da deyim ki, Füzuli şəhərinin indiki görkəmi də bizə çox xoş gəlir. Yəni müasir üslubda tikilən yaşayış binaları, sosial obyektlər və digər infrastrukturlar burada gözəl bir şəhər aurası yaradıb. Hər şeydən öncə Füzulinin havası elə əvvəlki havadı, ciyərinə çəkirsən, sənə ləzzət eləyir. Bir şeyi də deyim ha, bizim adamlar çox zəhmətkeş və halal insanlardırlar.

Yəni, çörək qazanmağın yolunu tapmağı bacarırlar. Gəlişimizin müddəti bir o qədər də çox olmasa, amma bir rahatlığımız, bir sakitliymiz və bir dincliyimiz var. İndi baxıram ki, hamı bir-birinə əvvəlkindən daha mehribandır. Bilirsiz, niyə? Çünki biz gördük ki, Vətənsizlik, qəribçilik, yurdsuzluq nə deməkdir. Bax, indi ona görə də Füzuli şəhərinə qayıdan minlərlə sakin bir-birinə can deyib, can eşidirlər. Mən öncə bu şəraitə görə ölkə Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə təşəkkür edirəm. Çünki o, Füzuliyə qayıdan sakinlərlə görüşdə də bizimlə çox səmimi söhbət etdi. Biz onu həyatda görməmişdik. İlk dəfə gördük və elə bildik ki, ən yaxın doğmamız və əzizimizdir.

**İnsan da bu qədər sadə və səmimi olarmı? Şəxsən biz, Füzuli rayonunun sakinləri 7 fevralda - Prezidentliyə seçkilər günündə İlham Əliyevə səs verəcəyik. O, bizim əbədi və əzəli Prezidentimizdir! Gözümüzün yaşını silib, arxa durub və ən nəhayət, işğal altında olan torpaqlarımızı azad edərək, bizi yurdumuza qaytarıb. Belə bir dünya şöhrətli və xalqını sevən Prezidenti yenidən seçməməkmi olar?! Biz həmişə göydə Allaha, yerdə İlham Əliyevə güvənmişik. Ümumiyyətlə, bizim ağır günümüzdə, qaçqınlıq dövrümüzdə ən böyük arxa duranımız Ulu Öndər Heydər Əliyev olub. Ondan sonra isə qayğımızı, çətinliyimizi və əzab-əziyyətimizi Prezident İlham Əliyev çəkib. Biz də ömrümüz boyu bu sevgini, bu zəhməti və bu qayğını yadımızdan çıxaran deyilik. Çünki bizim həyatımızda Günəş yenidən doğub və o günəşin istisini həmişə hiss etmək istəyirik.**

**FAİQ QİSMƏTOĞLU**


AZƏRBAYCAN RESPUBLİKASININ MEDİANIN İNKİŞAFI AGENTLİYİNİN MALİYYƏ YARDIMI İLƏ

# Şəfa VƏLİ: "... sərhədləri dağıtmağın fərqinə varanda utanırlar"



*Ömrün yol ayrıcında dayanan insanlar həmişə gözləntidə olur. Kiminsə, nəyinsə gəlişi onları hər zaman düşündürür... Ömrü sözün gözləntisində olan müsahibim Şəfa Vəli də sözə sığal çəkən insanlardandır. Bir çox mükafatlara layiq görülüb. Bir sıra ədəbi təşkilatların üzvüdür. Amma bütün bunların fövqündə Şəfanın söz adamı olmağı dayanır.*

**-Yaradıcı insan nəyə asidir?**

-Özünə... Həm də, ən çox sevdiyi, qürur duyduğu adam özüdür. Birdən deyirlər: "Filan yazıçı, filan şair elə sakit təbiətlidir ki!" Yalandır... Yaradıcı adamlar sakit təbiətli olmurlar. Onların həmin görünən sakitliyi də özlərinə asilikləridir. Qaynayırlar, qaynayırlar, daşırlar batinlərindən, sığmırlar heç nəyə- heç yerə. Bu cür dağılmışlığın, sərhədləri vurub-qırmağın fərqinə varanda isə utanırlar. Beləcə, özlərinə çəkilirlər, olurlar "sakit təbiətli insan". Əslində, "yaradıcı insan" məfhumunu xüsusiləşdirməsək də olar. Bütün insanlarda yaratmaq qabiliyyəti var. Bir də, "incəsənət" sözü var ha, son iki-üç gündü bu sözə asiyəm. Sənətin hansına "incə", hansına "kobud" demək olar axı? Bu sözü kim tapıb? Kim icad edib? Məgər bir avtobus sürücüsünün balaca bir qızcığaza: "Çantanı ver, qucağımda saxlayım, bala, məktəbin qabağında saxlayaram, düşərsən, orda çantanı da verərəm. Gözümə ağır dəyir ha!"-deməyi mənim şeirimdən əksikdir ki?!

**-Şeir şairin ömür kitabında son dayanacaq ola bilər?**

-Yox. Şair ömrü şeirin keçdiyi yoldur. Gör, şeir neçə min ildə neçə şair ömründən keçib? Hərəsində bir azcıq ayaq saxlayıb, ömür sahibi şairlə dünya haqqında hal-əhval edib. Şair də insandı axı; öz eqosu qaynayanda başlayıb özündən danışmağa-"lirik mən" dediyimiz, yalnız onun anladıldığı şeirlər eqo məhsuludur. Bizim ömrümüzün son dayanacağı sonuncu dəfə xatırlandığımız an olacaq...

**-Xatirələri sol çiyinə yığmağın ağırlığı çoxdur?**

-Hələ də çiyinimdədir o yük... İldən-ilə töküləni də olur, üstünə qoyulanı da. Hansı xatirənin sol çiyinimdə qalmasını, hansının günlərin birində oranı tərk etməsini-unudulmasını kim təyin edir? Bu sualın cavabını tapsan, xahiş edirəm, mənə deyərsən. Yükün ağırlığını isə özümüz təyin edirik. Xatirələrin şirinliyi, acılığı, ağırlığı, zərifliyi bizim onları necə xatırlamağımızdan asılıdır. Məktəbli ikən rezin qaloşda dərsə getmişəm. İnstituta qəbul olanadək o xatirəm-sinif yoldaşlarımın gizlincə qaloşuma baxıb gülmələri məni incidirdi. Tələbəliyimdə o xatirəmlə qürur duymağa başladım. Hər mövsüm təzə ayaqqabıları olan sinif yoldaşlarım ömürlərindəprofessor görməmişdilər, Fəlsəfə elmləri doktoru Qabil Seyidovun mühazirəsini dinləməmişdilər. Rezin qaloşda məktəbə getdiyim, "İlin ən yaxşı şagirdi" olmağım ilə indi də qürur duyuram.

**-Bizim cəmiyyətdə qadının yazar olmağı asan işdir?**

-Bizim cəmiyyətdə, ümumiyyətlə, yazar olmaq çətin işdir. Bizdə yazıçının cinsi önəmli deyil. Çünki "yazıçı" məfhumu çoxdan ikiüzlü olaraq qəbul edilib: bir üzündə qalstuk, kreslo, dikdaban, par-par cildli kitablar, o biri üzündə isə ehtiyac, kirayə pulu, nəşriyyatların üzünə baxmadığı əlyazmalar... Yazıçı olmağa gedən yol düşünməkdən, gözünün nurunu, qamətinin düzlüyünü, barmağının qabarını nəzərə almadan yazmaqdan keçir. Ölkəmizin sərhədlərindən kənarda yazan adama "yazıçı" deyirlər, bizim ölkəmizdə isə kitabı olana. İki kitablıq hekayəm var. Başqa janrları demirəm hələ. Keçən qış bir nəfər zəng vurub ki: "İstanbulda festivala dəvət eləyiblər səni. Təzə kitabın var?" Dedim: "Təzə hekayələrim var, kitab çıxarmaq imkanı yoxdur". Dedi: "Onda sənin əvəzinə kitabı olanı göndərərik". Halbuki festivala qədər 3 ay vaxt vardı. Mənim kitabımı da çıxara bilərdilər, məni göndərə də bilərdilər. Ən azından, dəvət İstanbuldakı təşkilat komitəsindən gəlmişdi. Mənim əvəzimə par-par cildli kitabı, yaxşı yerdə işi olan birini göndərdilər, getdi. Mənsə, hələ də, ümid edirəm ki, nə vaxtsa Azərbaycanda bir naşir zühur edəcək, deyəcək: "Ay yazıçı, qonorar verməsəm belə, gətir, əlyazmalarını çap edək".

**- Yazmaq zövq verir, yoxsa redaktə etmək?...**

-İkisi də... Yazmaq eşqdir, oxumaq vəfadır. Redaktə etmək isə yaşamaq. Yaşamağı sevdiyim qədər sevirəm işimi. Anam Güldərən Vəlinin heç bir kitabda olmayan "kitablıq deyimləri" var. Deyir: "Düşmənin boş olsun, boş otursun". Redaktə mənim boş oturmamağımdır, həm də, özün bilirsən də... Alqayıt demiş: "Davalar-dərmanlar..." Qaldı necə redaktor olmağıma, bu sualın cavabını mənimlə işləyən müəlliflər versə, yaxşı olar. Hər halda, işimi bəyənməyən müəllif ikinci əsəri üçün mənə müraciət etməz, deyilmi? Təkrar məni axtarırlarsa, deməli, sektorda "evdən işləyən yaxşı redaktor" siyahısında varam.

**-Şəfa Güldərən Vəlidən nələr "oğurlayıb"?**

-Mərhəmət... Nə baş verir-versin, günahı özündə axtarmaq... Evdarlıq... Qədim ənənəmiz olan quramanın diplomsuz ustası olmağım. Kitabsevərlik... Sevməkdən ötə, kitabın qədrini bilmək... Bircə, gözəlliyindən heç nə oğurlaya bilməmişəm. Buna da narazı deyiləm. "Anam məndən gözəl olub mən yaşda!" şeiri yazılmazdı yoxsa. İki şairin bir ailədə olması çoxlarına maraqlı gəlir. Hətta uşaqkən mənə deyənlər də olub ki: "Şeiri özün yazmısan, yoxsa anan?" Bu adamlar şeiri bilməyənlər olub deyə, indi onların hamısını bağışlayıram. Axı şeiri tanıyan hər şairin öz üslubu olduğunu bilərdi. Bilmirdisə, onu bağışlamaq olar...

**- Yaşantıları yazmaq yorucu hissdir yoxsa, insan ömrünü kağıza köçürmək gözəldir?**

-Yaşamaqdan yorulmaq insanın qaça bilmədiyi taledir. Hamı haradasa yorulur, hamı hansısa axşam yuxuya gedəndə istəyir ki, heç oyanmasın. İnsan fəlsəfəni məhz bu məqamlarda tanıyır, tapır, öyrənir. Fəlsəfi baxımdan, bədbəxt nəsilik. Fəlsəfə, əvvəlcə, sözdə idi. Nitqlərə hakim oldu, kitablara dadandı. Gəlib çıxdı həyatın hər anına. Sözsüz musiqidəki hökmranlığına birtəhər qatlana bilərdik, amma indi yazılan mahnıların çoxu fəlsəfədir. Açdığın kitabda, getdiyin yolda, dinlədiyin mahnıdazamanın hər anında "düşün, soraqla, axtar" deyərək üzünə çırpılan həyatdan nə yazsan da, son cümlən həmişə uzaqda qalır. Yazıçı həmişə o son cümlənin həsrətindədir. Bu həsrət isə... Gözəldir! Möhtəşəmdir!

**-Təbiətin sözə qıymağı da olur...**

-Onsuz olmaz ki?! İnsan övladı indiyədək neçə dəfə din dəyişib, neçə dəfə özünü sivilizasiyanın zirvəsində hiss edib, ordan aşağı yuvarlanıb, özünü aşıb, belə deyim, öz rekordunu neçə dəfə təzələyib. Düzdürmü? Yenə də "Ana Təbiət", "Ana Vətən" deyir. Çünki bütün fəth etdiyi zirvələrdə təbiətin bir parçası olduğunu, torpağa qarışacağını anlayıb. Dədə Qorqud əfsanələrində də, İskəndərlə bağlı əfsanələrdə də, "Gilqamış"da da ölməzliyin axtarılmağı var. Hətta müqəddəs kitablardan birində belə bir ifadə var: "Tanrı insanların ürəyinə ölməzlik arzusu qoydu". Yəni ölməzlik, əbədilik arzudur-əbədi bir arzu. Təbiət özünü dirildən canlıdır. Biz onun mövcudluğu üçün bir kimyəvi molekuldan artıq deyilik. Bu faniliyimizi bilirik, amma qəbul edə bilmirik. Ona görə, sözümüzlə təbiətlə qalib gəlməyə cəhd edirik. Təbiətsə arada sözə qıyır ki, bizə mahiyyətimizi bir daha anlatsın.

**-SÖZün dünyayla nə işi ola bilər ki?...**

-Sözün dünya ilə işi yoxdur. Dünyanın sözə söykənməyi, bəzən də sözə sığmamağı var. Bu mənada, söz dünyanı eyninə almır, amma dünya bilir ki, söz olmasa kimsə onun həqiqətini anlamaz. Söz-dünya münasibəti bu qədər sadədir.

**- Fikirlərin rəsmi sözüdür, bəs sözün rəsmi?...**

-Sözün rəsmi insanın təfəkküründədir. Sözləri öyrəndikcə onların hamısının rəsmi beynimizdə çəkilir. Bu, məsələnin elmi tərəfi. Keçək bədiiliyə; şairəm axı. Sözün rəsmini hamımız çəkirik-bir göz yummağımızla, bir əlimizi yelləməklə... Səninlə söhbət edə-edə pəncərədən eşiyə baxıram. Şeirimdə dediyim kimi: "Şəkinin dumanı nazlanır..." Duman təbiət hadisəsidir, mən şeir yazıram. O dumandakı naz isə sözün rəsmidir.

**Əntiqə KƏRİMZADƏ**

## *Melodiyaya fatehə oxunur, ritm dəyişir, zövq kütlə dalınca sürünür*



**"Bir neçə il əvvəl Bülənd Ərsoyun İstanbuldakı elit restoranda konsertinə getdik. 1 saatlıq proqramını ifa edirdi. Hünərimiz nə idi, ona nəsə sifariş verək? Ya Bülənd səhnədə guruldayanda ağzımıza bir tikə qoyaq? Siçan kimi səssizcə dinlədik, axırda məxsusi onun üçün bahalı restorana gələnlərin ödədiyi böyük məbləğlərdən faizini alıb getdi".**

Adalet.az xəbər verir ki, Bakı Abadlıq Xidmətinin İctimaiyyətlə Əlaqələr şöbəsinin rəhbəri Lalə Əliyeva deyib.

"Zəhləmgetmiş sovetlərin vaxtında müğənnilər radio, TV solistləri idilər, bütün rayonlara qastrola gedib o pulla alababat dolanırdılar. "Levı" gəlirləri də vardı əlbəttə, - hörmət, imtiyaz - amma kiminsə ağlına gələrdimi ki, məsələn, Rəşid Behbudov, Şövkət Ələkbərova toylardan çörəkpulu qazanır? Mümkün deyildi. Çünki müğənni konsertlərdə böyüyür. Toya girdinsə, hər şey bitir, başlanır dınqıra məclisi. ey.jpg

Ona görə də, hətta ərəb ölkələrində verdiyi konsertlərdə kilo ilə qızıla tutulan Zeynəb xanım bu gün şəhadət barmağını yuxarı qaldırıb deyir ki, sənət hər şeydən ucadır, onu alçaltmaq olmaz. Yəni sözü budur - SSRİ xalq artisti loru dili ilə desək, "manıs", "civi" kimi tanınmamalıdır. Yeri gəlmişkən, elə fəxri adlar da sovetlərdən qalma möhürdü. İntəhası o adı verən qurumlar bazar qanunlarına köklənib, sənətkarı nə yetişdirir, nə də qoruyurlar.

Bizsə yazırıq ki, Aygün Bəylər Sarayda solo konsert vermək üçün evini banka girov qoydu, tək aparıcı ondan 20 min qonorar istədi (nə olsun ki, adlar dəyişib, indi "korporativ", ya "şou" sözləri dəbdədi, məclislərin məğzi ki tolkuçkadı). Yazırıq ki, evini itirdiyi əsnada ağır xəstəlik tapdı, sonra hökümət ona mənzil bağışlayanda sevindiyindən ağladı və sairə və ilaxır".

## *Komaya düşdü, ayıldı və bilmədiyi dildə danışmağa başladı*

**Yəqin ki, ən az bir dəfə bu mövzuda xəbərlə rastlaşmısınız: Hansısa şəxs hər hansı bir qəza keçirir və komaya düşür. Sonra adam oyanır və heç bilmədiyi bir dildə danışmağa başlayır...**

Bu xəbərlər çox inanılmaz görünür. Bəs realdır, yoxsa saxta?

Həmin mövzuda bir çox nümunə var. Məsələn:

II Dünya Müharibəsində Norveçə atılan bir bomba norveçli qadını komaya salır. Komadan oyanan qadın alman ləhcəsi ilə danışmağa başlayır. Ətrafındakı insanlar onun alman casusu olduğunu düşünməyə başlayır.

Başqa bir nümunədə 2016-cı ildə Atlantada ana dili ingiliscə olan 16 yaşlı gənc futbol oyunu zamanı beyin sarsıntısı keçirir. Çox az ispanca bilən bu gənc oyandıqdan sonra axıcı formada öz ana dili kimi ispanca danışmağa başlayıb. Doğma dili olan ingiliscə danışanda isə çətinlik çəkməyə başlayıb.

Bənzər digər nümunədə avstraliyalı bir adam avtomobil qəzasından sonra çincə (mandarin) axıcı formada danışmağa başlamışdı. Qeyd edim ki, həmin adam çin dili ilə orta məktəbdə təməl səviyyədə tanış olmuşdu.

**Emin**

Bakı şəhəri 271 nömrəli tam orta məktəbin sabiq direktoru Səməndər Məmmədov məktəbin müəllimi

**Faiq İbrahimovun**

vaxtsız vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

**"İnşaat" ASC-nin yerləşdiyi ərazidə və ətrafında Bakı şəhər İcra Hakimiyyəti tərəfindən planlaşdırılan quruculuq və abadlıq işləri ilə əlaqədar müəyyən olunmuş kompensasiya müqabilində sökülməsi barədə xəbərdarlıq edilmişdir. Qeyd olunanlara əsasən Sizi 15.02.2024-cü il tarixdə saat 12.00-da Bakı şəhəri, C.Hacıbəyli 30 ünvanında yerləşən "İnşaat" ASC-də keçiriləcək növbədənkənar iclasa dəvət edirik.**

**İclasda müzakirə olunan məsələ:**

**1. "İnşaat" ASC-nin daşınmaz əmlakın sökülməsi müqabilində nəzərdə tutulmuş kompensasiyanın müzakirə olunması.**

**2. "İnşaat" ASC-nin ləğv edilməsi prosesinə başlanılaraq komissiyanın yaradılması.**

**"İnşaat" ASC-nin İdarə heyəti.**

***

**"İnterConstructionGroup" Məhdud Məsuliyyətli Cəmiyyətin(vöen:1501024611) ümumi yığıncağının 18 dekabr 2023-cü il tarixli protokoluna əsasən İnterConstructionGroup" Məhdud Məsuliyyətli Cəmiyyəti müflis elan edilmişdir.**


Təsisçi və baş məsləhətçi:
Aqil ABBAS
Baş redaktor:
İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı.
kod: 200112 h\h
Müxbir hesab: 0137010001994
S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161
İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı AZ.1073 Mətbuat prospekti, 529-cu məhəllə, "AZƏRBAYCAN" nəşriyyatı, 6-cı mərtəbə.
Telefon: 538-05-50, 538-51-31. 534-55-98 Faks: 539-80-26
adaletqezeti@rambler.ru
adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500
Sifariş: 162
Çapa imzalanmışdır: 11.01.2024